# HƏYAT BİLGİSİ

1

METODİK VƏSAİT



Elşad Yunusov
Yalçın İslamzadə
Gülər Mehdiyeva
Elmar İmanov
Elmina Kazımzadə
Famil Ələkbərov

# HƏYAT BİLGİSİ 1

Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün
həyat bilgisi fənni üzrə dərsliyin

## METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# MÜNDƏRİCAT


Giriş ........................................................................................................................ 3

I sinif həyat bilgisi fənni üzrə məzmun standartları ...............................................................4

Mövzular üzrə reallaşdırılacaq təlim nəticələri .......................................................................6

I sinif həyat bilgisi fənni üzrə illik planlaşdırma ......................................................................8

**1. MƏN KİMƏM**.......................................................................................................... 9

**2. SAĞLAMLIQ** ...........................................................................................................24

**3. İNSANLAR VƏ ƏŞYALAR** ......................................................................................30

**4. ƏTRAF MÜHİT** ........................................................................................................49

**5. EHTİYATLI DAVRANAQ**...........................................................................................62

# GİRİŞ

I sinif üçün nəzərdə tutulmuş həyat bilgisi fənni üzrə dərslik komplekti dərslik, metodik vəsait və iş dəftərindən ibarətdir. Fənn proqramının tələbinə uyğun olaraq sosial-humanitar elmlərin və təbiət elmlərinin məzmun bilikləri və bacarıqları müvafiq yaş qrupuna görə seçilmiş və onların inteqrativ öyrədilməsi nəzərdə tutulmuşdur.

XXI əsrin iş və sosial mühiti üçün zəruri olan bilik, bacarıq və səriştələri formalaşdırmaq məqsədilə həyat bilgisi fənninin tədrisi *sorğu və tədqiqata əsaslanan* təlim metodu ilə həyata keçirilir. Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramlarının nəticələrinin və beynəlxalq təhsil təcrübələrinin təhlili *sorğu və tədqiqata əsaslanan təlim* metodunun şagirdləri motivasiya etmək, onların yaş qrupuna uyğun gələn psixomotor və koqnitiv bacarıqlarının inkişafını dəstəkləyən təhsil mühitinin yaradılmasında ən mütərəqqi metodlardan biri olduğunu göstərir. Bu təlim metodu müşahidə etmək, müqayisə etmək və sinifləndirmək kimi fundamental proses bacarıqlarını formalaşdırmaq üçün daha məhsuldar metod kimi özünü təsdiqləmişdir.

*Sorğu və tədqiqata əsaslanan təlim* zamanı şagirdlərə məzmunla əlaqəli və onlara tanış olan situasiya təqdim olunur. Şagirdlər verilmiş situasiyaya dair istiqamətləndirici suallarla müzakirəyə və ilkin biliklərini ifadə etməyə cəlb olunurlar. Növbəti mərhələlərdə yaş səviyyəsinə uyğun seçilmiş müxtəlif fəaliyyətlər yerinə yetirməklə nəticələr ümumiləşdirilir və öyrənmə materialında təqdim olunur. Bu metod vasitəsilə məzmun biliklərinin konkret misallardan başlayaraq ümumi anlayışlara doğru inkişafı nəzərdə tutulur.

Həyat bilgisi fənn kurikulumunun məzmunu iki istiqamət üzrə – təbiət elmlərinin və sosial-humanitar elmlərin məzmun xətləri, standartları və altstandartları əsasında formalaşır.

*Həyat bilgisi fənn kurikulumunun təbiət elmləri məzmununun məqsəd və vəzifələri*

Həyat bilgisi fənninin "Canlılarda struktur və proseslər" və "Ətraf mühit və biz" məzmun xətləri üzrə təlim nəticələri situasiyalar, sual və tapşırıqlar, müxtəlif fəaliyyətlər və təlim materialları vasitəsilə şagirdin fəal iştirakı təmin olunmaqla reallaşdırılır. İbtidai təhsil mərhələsində təbiət elmləri fiziki elmlər (fizika, kimya və coğrafiya) və həyat elmləri (anatomiya, botanika və zoologiya kimi biologiya sahələri) kimi qruplaşdırılır və hər iki məzmun kateqoriyası şagirdlərin koqnitiv və psixomotor inkişafı üçün məhsuldar təlim mühiti daxilində vahid perspektivdən tədris olunur. Həyat bilgisi fənninin təbiət elmləri məzmununun məqsədi şagirdləri yuxarı siniflərdə ayrı-ayrı fənlər kimi öyrənəcəkləri fizika, kimya, biologiya və coğrafiya fənlərini həvəslə və məhsuldar öyrənmək üçün lazım olan ilkin anlayışlar, bacarıqlar və motivasiya ilə təmin etməkdir.

*Həyat bilgisi fənni kurikulumunun sosial-humanitar elmləri məzmununun məqsəd və vəzifələri*

Həyat bilgisi fənninin "Sağlamlıq və təhlükəsizlik" və "İnsan və cəmiyyət" məzmun xətlərinin ümumi təlim nəticələri sosial-humanitar sahənin əsas anlayışlarını mənimsəmələri və şagirdlərin öz mənəvi vəzifələrini dərk etmələri ilə reallaşdırılır. Şagirdlərin tolerant, müstəqil düşünən, ailəsinə, xalqına və dövlətinə faydalı şəxsiyyətlər kimi yetişməsi təlimin əsas vəzifələrindən biridir. Onlarda yüksək əxlaqi dəyərlərə əsaslanan davranış və ünsiyyət bacarıqları formalaşdırılır. Şagirdlər milli və bəşəri mənəvi dəyərləri mənimsəməklə ailədə, məktəbdə və cəmiyyətdə yüksək ədəb, davranış və ünsiyyət bacarıqlarına yiyələnirlər. Həmçinin şagirdlərdə sağlamlığı təmin edən və ona təhlükə törədən amillər barədə zəruri bilik və bacarıqlar formalaşdırılması nəzərdə tutulur.

Fövqəladə hallar və təhlükəli hadisələr zamanı düzgün davranmağı, özünü və yaxınlarını mühafizə etməyi bacarmaq həyati tələblərdəndir. Ona görə də şagirdlər belə təhlükələrlə üzləşdikdə düzgün davranmağı bacarmalıdırlar.

*Fənnin tədrisində istifadə olunan təlim modeli*

*Sorğu və tədqiqata əsaslanan təlim* metodu dərslərin əsasən, *5E modelinə* (5E: *engage*, *explore*, *explain*, *elaborate* və *evaluate* sözlərinin baş hərflərinin, sayını ifadə edir) görə qurulmasını nəzərdə tutur. 5E modeli şagirdlərin sual verməк, müşahidə aparmaq, refleksiya etmək, problemin həll yollarını müəyyənləşdirmək və nəticələri yoldaşları ilə paylaşmaq bacarıqlarını inkişaf etdirmək üçün əlverişli modeldir.

5E dərs modeli ilə qurulan dərslər müəyyən ardıcıllığa əsaslanır, bu ardıcıllıq şagirdlərin öyrənmə mərhələləri ilə səsləşir və aşağıdakı mərhələlərdən ibarətdir:

*1. Maraqoyatma (Engage)*

Şagirdlər onlara tanış olan bir situasiya və istiqamətləndirici suallar təqdim edilməklə müzakirəyə dəvət olunurlar. Burada məqsəd şagirdlərin ilkin bilikləri ilə dərsin təlim nəticələri arasında əlaqə qurmaq, onlarda mövzuya maraq oyadaraq fəaliyyət mərhələsinə hazırlamaqdır.

*2. Fəaliyyət (Explore)*

İkinci mərhələdə şagirdlər fəaliyyətlərdə iştirak edir, nəticələri müzakirə edir və konkret nəticələrlə tanış olduqdan sonra ümumi anlayışları öyrənməyə hazır olurlar.

*3. Öyrənmə (Explain)*

Bu mərhələdə fəaliyyət mərhələsinin nəticələri ümumiləşdirilir, təlim nəticələrində nəzərdə tutulan bilik və anlayışlar təqdim edilir.

*4. Tapşırıq (Elaborate)*

Əvvəlki mərhələnin davamı olaraq bu mərhələdə yeni nümunələr təqdim edilir, anlayışın tətbiq olunduğu əhatə dairəsi genişləndirilir.

*5. Özünüzü yoxlayın (Evaluate)*

Sonuncu mərhələdə təqdim olunan tapşırıqların və sualların köməyi ilə şagirdlərin məzmunu mənimsəmə səviyyələri ölçülür.

**I sinif həyat bilgisi fənni üzrə məzmun standartları**

**1. Canlılarda struktur və proseslər**

**1.1. Canlılarda əsas orqanların yerini, quruluşunu və onların funksiyalarını təsvir edir.**

1.1.1. İnsan bədəninin hissələrini və ya üzvlərini tanıyır.
1.1.2. İnsan bədəninin hissələrini və ya üzvlərini adlandırır.
1.1.3. Bədən hissələrinin və ya üzvlərinin oxşar və fərqli olduğunu təsvir edir.
1.1.4. Beş hissi müəyyən edir.
1.1.5. Beş hissi adlandırır.
1.1.6. Bədən üzvlərini hisslərlə əlaqələndirir.

**1.2. Bütün canlılara xas olan həyati prosesləri təsvir edir.**

1.2.1. Cansız və canlı varlıqları müəyyən edir.
1.2.2. İnsan və heyvanların yaşamaq üçün zəruri ehtiyaclarını sadalayır.
1.2.3. Bitkilərin yaşamaq üçün zəruri ehtiyaclarını sadalayır.

**2. Sağlamlıq və təhlükəsizlik**

**2.1. Gigiyena qaydalarının, sağlam qidalanmanın və fiziki aktivliyin sağlamlığın qorunmasındakı əhəmiyyətini izah edir.**

2.1.1. Gigiyena qaydalarına əməl etməyin insan sağlamlığının qorunmasındakı əhəmiyyətini təsvir edir.
2.1.2. Sağlam qidalanmanın insan sağlamlığının qorunmasındakı əhəmiyyətini izah edir.
2.1.3. Gün ərzində görəcəyi işləri sadə şəkildə planlaşdırır.

**2.2. Məişətdə və gündəlik fəaliyyətdə həyat və sağlamlığın mühafizəsi ilə bağlı zəruri təhlükəsizlik qaydalarına əməl edir.**

2.2.1. Tanımadığı insanlarla ünsiyyətin zərərlərini izah edir.
2.2.2. Şübhəli əşyalarla davranış qaydalarını bilir.
2.2.3. Sağlamlıq üçün təhlükə törədə bilən məişət cihazlarının və alətlərin istifadə profillərini sadalayır.
2.2.4. Nəqliyyat vasitələrini tanıyır və adlandırır.
2.2.5. Liftdən və eskalatordan təhlükəsiz istifadə qaydalarını bilir və əməl edir.
2.2.6. Yol hərəkəti qaydalarını izah edir.

**2.3. Fövqəladə hadisələr zamanı həyat və sağlamlığın mühafizəsi ilə bağlı zəruri təhlükəsizlik qaydalarını izah edir.**

2.3.1. Təbii fövqəladə hadisələri təsvir edir.
2.3.2. Təbii fövqəladə hadisələr zamanı təhlükəsizlik qaydalarını sadalayır.
2.3.3. Texnogen qəza haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.
2.3.4. Texnogen qəza anında zəng etməli olduğu telefon nömrəsini bilir.

**3. Ətraf mühit və biz**

**3.1. Materialları tanıyır və xassələrini başa düşür.**

3.1.1. Ümumi materialları tanıyır.
3.1.2. Materialların bəzi xassələrini müəyyən edir.

**3.2. Cisimlərin hərəkətini toxunma ilə və toxunma olmadan baş verən qarşılıqlı təsirlərə görə təsvir edir.**

3.2.1. Əşyaların yerdəyişməsini onlara dartmaq və itələməklə göstərilən təsirlə əlaqələndirir.
3.2.2. Əşyaların yerdəyişməsini hərəkət olaraq təsvir edir.

**3.3. Səs və işığın hərəkətini izah edir.**

3.3.1. Səs mənbələrini müəyyən edir.
3.3.2. Səs mənbəyindən olan məsafədən asılı olaraq səsin dəyişməsini təsvir edir.

**3.4. Yer kürəsində hava şəraitinin və fəsillərin dəyişməsini, onların xüsusiyyətlərini başa düşür.**

3.4.1. Müxtəlif hava şəraitlərini təsvir edir.
3.4.2. Hava şəraiti qrafikini qurmaq üçün müxtəlif hava simvollarından istifadə edir.
3.4.3. Hava haqqında məlumat toplamaq üçün müvafiq alətlərdən istifadə edir.
3.4.4. Müxtəlif hava şəraitləri üçün fərqli geyim növlərini təsvir edir.

**4. İnsan və cəmiyyət**

**4.1. İnsanın sosial varlıq olduğunu başa düşür.**

4.1.1. Özünü ətrafındakılara təqdim edir.
4.1.2. Müəllimini, sinif yoldaşlarını tanıyır.
4.1.3. “Kollektiv” anlayışını sadə şəkildə insanların birliyi kimi ifadə edir.
4.1.4. Kollektivin və ailənin fərdlərdən formalaşdığını izah edir.
4.1.5. Ailə üzvləri haqqında ümumi məlumatlar verir.
4.1.6. Ailə üzvlərinə qarşı hörmət və sevgi hisslərini nümayiş etdirir.
4.1.7. Öz əşyalarını toplamaqla valideynlərinə kömək edir.
4.1.8. Özünə aid əşyalardan səliqəli istifadə edir.
4.1.9. Paylaşmaq duyğusunu nümayiş etdirir.
4.1.10. Məktəb və məktəbətrafı haqqında məlumat verir.
4.1.11. Yaşadığı ünvanı təsvir edir.

**4.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.**

4.2.1. Azərbaycan Respublikasının pul nişanlarını tanıyır.

**4.3. Dövlət rəmzlərini tanıyır.**

4.3.1. Ölkəsini və paytaxtını tanıyır.

4.3.2. Azərbaycan Respublikasının dövlət rəmzlərini tanıyır.

4.3.3. Milli kimliyini öz fikirləri ilə ifadə edir.

**4.4. Hüquqi biliklərə malik olduğunu nümayiş etdirir.**

4.4.1. İnsan hüquqları barədə təsəvvürə malik olduğunu nümayiş etdirir.

4.4.2. Sinifdaxili intizam qaydalarına əməl edir.

**4.5. Ünsiyyət mədəniyyətinə uyğun davranır.**

4.5.1. Nəzakət qaydalarına əməl edir.

**4.6. Mədəni müxtəlifliyə hörmət edir.**

4.6.1. İnsanları fərqləndirir.

4.6.2. Təsvirlərdə dini simvolları fərqləndirir.

## Mövzular üzrə reallaşdırılacaq təlim nəticələri

| № | Bölmə, fəsil və mövzular | Təlim nəticələri |
|---|---|---|
| | **1. MƏN KİMƏM** | |
| 1 | Məktəbim | 4.1.1. Özünü ətrafındakılara təqdim edir.<br>4.1.2. Müəllimini, sinif yoldaşlarını tanıyır.<br>4.1.10. Məktəb və məktəbətrafı haqqında məlumat verir.<br>4.4.1. İnsan hüquqları barədə təsəvvürə malik olduğunu nümayiş etdirir. |
| 2 | Ailəm | 4.1.5. Ailə üzvləri haqqında ümumi məlumatlar verir.<br>4.1.6. Ailə üzvlərinə qarşı hörmət və sevgi hisslərini nümayiş etdirir. |
| 3 | Ölkəm | 4.3.1. Ölkəsini və paytaxtını tanıyır.<br>4.3.2. Azərbaycan Respublikasının dövlət rəmzlərini tanıyır.<br>4.2.1. Azərbaycan Respublikasının pul nişanlarını tanıyır. |
| 4 | Mən azərbaycanlıyam | 4.3.3 Milli kimliyini öz fikirləri ilə ifadə edir. |
| 5 | Mən harada yaşayıram | 2.2.6. Yol hərəkəti qaydalarını izah edir.<br>4.1.11. Yaşadığı ünvanı təsvir edir. |
| 6 | Ünsiyyət | 4.5.1. Nəzakət qaydalarına əməl edir. |
| 7 | İntizam | 4.4.2 Sinifdaxili intizam qaydalarına əməl edir. |
| | **2. SAĞLAMLIQ** | |
| 8 | Bədən hissələri | 1.1.1. İnsan bədəninin hissələrini və ya üzvlərini tanıyır.<br>1.1.2. İnsan bədəninin hissələrini və ya üzvlərini adlandırır. |
| 9 | Oxşarlıq və fərqlilik | 1.1.3. Bədən hissələrinin və ya üzvlərinin oxşar və fərqli olduğunu təsvir edir. |
| 10 | Bədənimizi necə təmiz saxlayaq | 2.1.1. Gigiyena qaydalarına əməl etməyin insan sağlamlığının qorunmasındakı əhəmiyyətini təsvir edir.<br>2.1.3. Gün ərzində görəcəyi işləri sadə şəkildə planlaşdırır. |
| 11 | Sağlam qidalanma | 2.1.2. Sağlam qidalanmanın insan sağlamlığının qorunmasındakı əhəmiyyətini izah edir.<br>2.1.3. Gün ərzində görəcəyi işləri sadə şəkildə planlaşdırır. |
| | **3. İNSANLAR VƏ ƏŞYALAR** | |
| 12 | Dillər | 4.6.1. İnsanları fərqləndirir. |
| 13 | Dinlər | 4.6.2. Təsvirlərdə dini simvolları fərqləndirir. |
| 14 | Mən və yoldaşlarım | 4.1.3. “Kollektiv” anlayışını sadə şəkildə insanların birliyi kimi ifadə edir.<br>4.1.4. Kollektivin və ailənin fərdlərdən formalaşdığını izah edir.<br>4.1.9. Paylaşmaq duyğusunu nümayiş etdirir. |
| 15 | Evdəki əşyalarımız | 4.1.7. Öz əşyalarını toplamaqla valideynlərinə kömək edir.<br>4.1.8. Özünə aid əşyalardan səliqəli istifadə edir. |

| | | |
|---|---|---|
| 16 | Əşyalar nədən hazırlanır | 3.1.1. Ümumi materialları tanıyır. |
| 17 | Materialların xassələri | 3.1.2. Materialların bəzi xassələrini müəyyən edir. |
| 18 | Əşyaların hərəkəti | 3.2.1. Əşyaların yerdəyişməsini dartmaq və itələməklə onlara göstərilən təsirlə əlaqələndirir.<br>3.2.2. Əşyaların yerdəyişməsini hərəkət olaraq təsvir edir. |
| 19 | Evimizdəki avadanlıqlar | 2.2.3. Sağlamlıq üçün təhlükə törədə bilən məişət cihazlarının və alətlərin istifadə profillərini sadalayır. |
| | **4. ƏTRAF MÜHİT** | |
| 20 | Ətrafı necə öyrənirik | 1.1.4. Beş hissi müəyyən edir.<br>1.1.5. Beş hissi adlandırır.<br>1.1.6. Bədən üzvlərini hisslərlə əlaqələndirir. |
| 21 | Səs haradan gəlir | 3.3.1. Səs mənbələrini müəyyən edir.<br>3.3.2. Səs mənbəyindən olan məsafədən asılı olaraq səsin dəyişməsini təsvir edir. |
| 22 | Bu gün hava necədir | 3.4.1. Müxtəlif hava şəraitlərini təsvir edir.<br>3.4.2. Hava şəraiti qrafikini qurmaq üçün müxtəlif hava simvollarından istifadə edir.<br>3.4.3. Hava haqqında məlumat toplamaq üçün müvafiq alətlərdən istifadə edir. |
| 23 | Fəsillər bizə necə təsir edir | 3.4.4. Müxtəlif hava şəraitləri üçün fərqli geyim növlərini təsvir edir. |
| 24 | Canlı və cansız | 1.2.1. Cansız və canlı varlıqları müəyyən edir. |
| 25 | Yaşamaq üçün nə lazımdır | 1.2.2. İnsan və heyvanların yaşamaq üçün zəruri ehtiyaclarını sadalayır.<br>1.2.3. Bitkilərin yaşamaq üçün zəruri ehtiyaclarını sadalayır |
| | **5. EHTİYATLI DAVRANAQ** | |
| 26 | Nəqliyyat vasitələri | 2.2.4. Nəqliyyat vasitələrini tanıyır və adlandırır.<br>2.2.5. Liftdən və eskalatordan təhlükəsiz istifadə qaydalarını bilir və əməl edir. |
| 27 | Diqqətli olaq | 2.2.1. Tanımadığı insanlarla ünsiyyətin zərərlərini izah edir.<br>2.2.2. Şübhəli əşyalarla davranış qaydalarını bilir. |
| 28 | Seldən necə qorunmaq olar | 2.3.1. Təbii fövqəladə hadisələri təsvir edir.<br>2.3.2. Təbii fövqəladə hadisələr zamanı təhlükəsizlik qaydalarını sadalayır. |
| 29 | Təcili zəng | 2.3.3. Texnogen qəza haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.<br>2.3.4. Texnogen qəza anında zəng etməli olduğu telefon nömrəsini bilir. |

## I sinif həyat bilgisi fənni üzrə illik planlaşdırma (33 saat)

### I yarımil üzrə planlaşdırma

| № | Bölmə, fəsil və mövzular | saat |
|---|---|---|
| | BÖLMƏ – 1. MƏN KİMƏM | |
| 1 | Məktəbim | 1 |
| 2 | Ailəm | 1 |
| 3 | Ölkəm | 2 |
| 4 | Mən azərbaycanlıyam | 1 |
| 5 | Mən harada yaşayıram | 1 |
| 6 | Ünsiyyət | 1 |
| 7 | İntizam | 1 |
| | BÖLMƏ ÜZRƏ ÜMUMİ SAATLAR | 8 |
| | BÖLMƏ – 2.Sağlamlıq | |
| 8 | Bədən hissələri | 1 |
| 9 | Oxşarlıq və fərqlilik | 1 |
| 10 | Bədənimizi necə təmiz saxlayaq | 1 |
| 11 | Sağlam qidalanma | 2 |
| | BÖLMƏ ÜZRƏ ÜMUMİ SAATLAR | 5 |
| | BÖLMƏ – 3. İNSANLAR VƏ ƏŞYALAR | |
| 12 | Dillər | 1 |
| 13 | Dinlər | 1 |
| 14 | Mən və yoldaşlarım | 2 |
| | BÖLMƏ ÜZRƏ ÜMUMİ SAATLAR | 4 |
| | I YARIMİL ÜZRƏ CƏMİ | 17 |

### II yarımil üzrə planlaşdırma

| № | Bölmə, fəsil və mövzular | saat |
|---|---|---|
| | BÖLMƏ – 3. İNSANLAR VƏ ƏŞYALAR | |
| 15 | Evdəki əşyalarımız | 1 |
| 16 | Əşyalar nədən hazırlanır | 1 |
| 17 | Materialların xassələri | 1 |
| 18 | Əşyaların hərəkəti | 1 |
| 19 | Evimizdəki avadanlıqlar | 1 |
| | BÖLMƏ ÜZRƏ ÜMUMİ SAATLAR | 5 |
| | BÖLMƏ – 4. ƏTRAF MÜHİT | |
| 20 | Ətrafı necə öyrənirik | 2 |
| 21 | Səs haradan gəlir | 1 |
| 22 | Bu gün hava necədir | 1 |
| 23 | Fəsillər bizə necə təsir edir | 1 |
| 24 | Canlı və cansız | 1 |
| 25 | Yaşamaq üçün nə lazımdır | 1 |
| | BÖLMƏ ÜZRƏ ÜMUMİ SAATLAR | 7 |
| | BÖLMƏ – 5. EHTİYATLI DAVRANAQ | |
| 26 | Nəqliyyat vasitələri | 1 |
| 27 | Diqqətli olaq | 1 |
| 28 | Seldən necə qorunmaq olar | 1 |
| 29 | Təcili zəng | 1 |
| | BÖLMƏ ÜZRƏ ÜMUMİ SAATLAR | 4 |
| | II YARIMİL ÜZRƏ CƏMİ | 16 |
| | I SİNİF ÜZRƏ CƏMİ | 33 |

## 1-ci BÖLMƏ — Mən kiməm

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 1 | Məktəbim | 1 | 8 | 3 |
| Mövzu 2 | Ailəm | 1 | 10 | 5 |
| Mövzu 3 | Ölkəm | 1 | 12 | 7 |
| Mövzu 4 | Mən azərbaycanlıyam | 1 | 14 | 9 |
| Mövzu 5 | Mən harada yaşayıram | 1 | 16 | 11 |
| Mövzu 6 | Ünsiyyət | 1 | 18 | 13 |
| Mövzu 7 | İntizam | 1 | 20 | 15 |
| | **CƏMİ** | **8** | | |

**Bölmənin qısa icmalı**

Bölmə sosial mövzuları əhatə edir. Məktəb həyatına yenicə qədəm qoyan uşaqlar üçün sosial bacarıqlar xüsusi əhəmiyyət kəsb etdiyindən ilk tədris vahidinin uyğun məzmunda olması daha məqsədəuyğundur. "Məktəbim" mövzusunda şagirdlər özlərini təqdim etməyi öyrənirlər. Mövzuda həmçinin şagirdlərin təhsil, ad və soyad daşımaq hüquqları sadə şəkildə izah olunur.

"Ailəm" mövzusu ailə üzvləri arasındakı qarşılıqlı münasibətlərdən, ailənin fərd üçün əhəmiyyətindən bəhs edir. Növbəti – "Ölkəm" mövzusunda ölkə, dövlət rəmzləri, paytaxt və milli pul barədə məlumatlar dərinləşdirilir. Bu mövzuda təlqin olunan dövlətçilik ideyası "Mən azərbaycanlıyam" mövzusunda davam etdirilir. Mövzuda Zəfər Gününün timsalında şagirdlərə vətənə məhəbbət, milli kimliyinə görə qürur hissi aşılanması hədəf götürülür.

"Mən harada yaşayıram" mövzusunun təlim məqsədi şagirdlərdə yaşadıqları ərazini tanımaq və sadə yol hərəkəti qaydalarına əməl etmək bacarıqlarını formalaşdırmaqdır. Mövzuda piyada keçidindən istifadə etməyin və işıqforun göstərişlərinə əməl etməyin vacibliyi önə çəkilir.

"Ünsiyyət" mövzusunda şəxslərarası münasibətlərdə qarşılıqlı hörmətə əsaslanan ünsiyyət tərzi və nəzakət qaydalarına, "İntizam" mövzusunda isə sinifdaxili nizam-intizama əməl olunması bacarıqları təşviq edilir.

Bölmə boyunca tədris prosesinin səmərəliliyini təmin etmək üçün oyunlardan, maraqlı və əyləncəli fəaliyyətlərdən istifadə olunur.

**Bölməyə giriş**




Uşaq üçün məktəb həm yeni mühit, həm də təlimlə bağlı yeni rol və vəzifələrdir. Məktəbdə uşaqlar yeni dostlar tapır, bir-biri ilə əməkdaşlıq təcrübəsi qazanır, komandalarda birlikdə çalışır və bacarıqlarını inkişaf etdirirlər.

Ailədən və bağçadan məktəbə keçidin uğurlu olması üçün uşaq ilk günlərdən məktəbdə və sinifdə özünü rahat hiss etməlidir. Uşaqların keçid dövrünə xas olan həyəcan, narahatlıq, emosionallıq kimi halları aradan qaldırmağa kömək edən dəstəkləyici pozitiv mühit yaradılmalıdır. Bunun üçün məktəb barədə ilk təəssüratlara aid söhbət təşkil etmək olar. Uşaqlara özləri haqda danışmağa şərait yaradılmalı, məktəblə bağlı biliklərini və gözləntilərini paylaşmalarına imkanlar təmin olunmalıdır.

Bölmənin ilk səhifəsində mövzulara hazırlıq kimi şəkil üzrə iş təşkil etmək olar. Şagirdlərin diqqəti məktəb binasına, məktəbin qarşısında toplanmış insanlara yönəldilir. İlk dərs gününün yaratdığı canlanma, uşaqların və valideynlərin keçirdiyi hisslər barədə suallar verilir. Dərslikdəki suallar müzakirə olunur. Müəllim şagirdlərə bölməni əhatə edən suallar verə bilər: "Məktəbin binası xoşunuza gəldimi?", "Məktəb həyatində kimləri gördünüz?", "Məktəbimiz hansı şəhərdə (rayonda və ya kənddə) yerləşir?", "Biz hansı ölkədə yaşayırıq?" və s.

## Mövzu 1. Məktəbim

**Dərslik:** səh. 8 • **İş dəftəri:** səh. 3.

| | |
|---|---|
| **Altstandartlar** | 4.1.1. Özünü ətrafındakılara təqdim edir.<br>4.1.2. Müəllimini, sinif yoldaşlarını tanıyır.<br>4.1.10. Məktəb və məktəbətrafı haqqında məlumat verir.<br>4.4.1. İnsan hüquqları barədə təsəvvürə malik olduğunu nümayiş etdirir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, iş vərəqləri, şəkillər, kağız ürəklər |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Özünüzü necə təqdim edə bilərsiniz?
**2. Fəaliyyət.** Tanışlıq.
**3. Öyrənmə**. Məktəb haqqında mətn.
**4. Tapşırıq.** Dərslik: tap. №1,2. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Bu mərhələdə şagirdlər özünü ətrafdakı insanlara təqdim etmək bacarıqlarını nümayiş etdirəcəklər. Onların diqqəti səhifənin əvvəlindəki şəklə yönəldilir. Şəkildəki oğlan və qızın (Kamran və Sevil) özlərini təqdim edərkən söylədikləri cümlələr səsləndirilir. Sonra şagirdlərə müraciət olunur:

– Siz özünüzü təqdim edərkən nə deyə bilərsiniz?

Şagirdlər özünütəqdimetmədə çətinlik çəkərsə, onlara istiqamətləndirici suallar vermək olar:

"Ən çox xoşladığınız oyun hansıdır?", "Məktəbə hazlrlaşanda sizə kim kömək edib?", "Məktəbə gələndə hansı hissləri keçirdiniz?", "Məktəb haqqında nə bilirsiniz?", "Evdə sizdən böyük bacı və qardaşınız varmı? Onlar məktəb haqqında sizə nə danışıblar?"

Uşaqları həvəsləndirmək üçün müəllim təqdimetməni özündən də başlaya bilər. Bu zaman yumordan istifadə etmək olar. Şagirdlərlə səmimi ünsiyyət onların qorxu, təlaş, güvənsizlik kimi hisslərini dəf etmələrinə yardımçı ola bilər.

Özünütəqdimetmə bacarığı özünüdərketmə ilə əlaqəlidir. Uşaqlar özlərini tədqim edərkən özlərinə kənardan baxmağı öyrənirlər. Bu zaman müəllim şagirdlərə özləri haqqında əlavə məlumat verməyi xahiş edə bilər. Şagirdlərini tanımaqda, onların həvəs, maraq və qabiliyyətlərini öyrənməkdə bu fəaliyyət gələcək fərdi yanaşma üçün diaqnostik alət rolunu oynaya bilər.

Şagirdlərin təqdimatını oyun vasitəsilə də təşkil etmək olar.

**Oyun.** "***Yoldaşını tap!***" Müəllim şagirdlərdən birinin xarici əlamətlərini söyləyir, şagirdlər isə həmin uşağı tapırlar. Məsələn: "Qızdır, üzü həmişə gülür, saçları qaradır, lent vurub". Şagirdlər yoldaşlarını tapmaqda çətinlik çəkərsə, əlamətləri bir qədər də artırmaq olar: "Ön partalardan birində əyləşib", "Sırada sonuncudur". Uşaqlar nişan verilən şagirdi söylənən əlamətlərə görə tapırlar və müəllim həmin şagirddən özünü təqdim etməyi xahiş edir.

**FƏALİYYƏT** Yanaşı əyləşmiş şagirdlərə bir-birini daha yaxından tanımaq üçün fəaliyyət təklif olunur. Bu fəaliyyəti oyun kimi də təşkil etmək olar. Eyni partada əyləşən şagirdlər bir-birinə sevdikləri oyuncağın əlamətlərini söyləyirlər. Şagirdlər həmin oyuncağı tapıb onun rəsmini çəkirlər. Şagirdlərin fəaliyyəti necə yerinə yetirmələrini görmək və onların özünütəqdimetməsinə şərait yaratmaq üçün çəkilən oyuncaq şəkilləri lövhədən asılır. Şagirdlər növbə ilə qalxıb özlərini və çəkdikləri rəsmi təqdim edirlər. Məsələn, "Mənim adım Aytəndir. Mən tank şəkli çəkmişəm". Bu fəaliyyət fəal, özünə güvənən və tərəddüdlü, özgüvəni zəif olan şagirdləri müəyyən etməyə imkan verəcək.

Aşağıda verilən alternativ fəaliyyət də şagirdlərə özünütəqdimetmə və tanışlıq üçün şərait yaradır.

**Oyun.** ***"Ürəklər"***. *Resurs.* Üzərində şagirdlərin, müəllimin adı yazılmış və ucuna nazik ip bağlanmış kağız ürəklər (rəngli kağızlardan kəsilmiş ürəkləri əvvəlcədən hazırlamaq məqsədəuyğundur).

1. Uşaqlar dairə qurub otururlar. Kağız ürəklər dairənin ortasında yerə qoyulur.
2. Müəllim uşaqları söhbətə təşviq edir: "Kim kimdir? Biz bütün adları bilirikmi?"

3. Şagirdlərə növbə ilə üzərində başqa birinin adı yazılan ürəyi götürmək və onun haqqında danışmaq təklif edilir. Adı yazılmış ürək götürüləndə həmin şagird: "Bu mənəm!" deyir. (Şagirdlərdən kimsə müəllimin adı olan ürəyi də götürə bilər.) Hər bir uşaq başqası haqqında danışır ("Bu addan mənim niyə xoşum gəlir?", "Bu adda başqa kimləri tanıyıram?", "Bu şagirdlə birlikdə hansı oyunları oynaya bilərik?" və s.) və öz adı yazılan ürəyi ona gətirir.
4. Hər kəs ona verilən ürəyi saxlayır və dərs zamanı boynundan asır.
5. Müzakirə üçün verilən suallar:

– Sizcə, niyə ürəklər müxtəlif rəngdədir? "Biz çox fərqliyik! Həm də eyniyik!" fikrini necə başa düşürsünüz?

**ÖYRƏNMƏ** Dərslikdəki mətn şagirdlərin məktəb barədə təsəvvürlərini genişləndirməyə yönəlmişdir. İstiqamətləndirici sualların köməyi ilə məktəbin insan həyatındakı rolu haqqında müzakirə təşkil etmək məqsədəuyğundur: "Siz özünüzü təqdim edərkən ilk növbədə nəyi deməlisiniz?", "İnsanlara nə üçün ad verirlər?", "Soyad nəyi bildirir?", "Məktəb nədir?", "İnsan məktəbdə oxumasa, necə olar?", "İnsanlar məktəbi bitirdikdən sonra nə edirlər?", "Məktəbinizdə hansı yerləri tanıyırsınız?" və s. Mümkün cavablar dinlənilir və diskussiya aparılır.

**Müəllimin nəzərinə!** Mətni öyrənərkən hər insanın təməl hüquqları barədə yaş səviyyəsinə uyğun məlumat vermək məqsədəuyğundur. Bu, ilk növbədə, hər bir insanın ad və soyadı daşımaq, həmçinin təhsil almaq hüququna aiddir. "Hüquq" anlayışı uşaqlar üçün mürəkkəb olduğundan şagirdlər onu sadəcə, eşitməklə kifayətlənirlər. Bu, yuxarı siniflərdə veriləcək məlumatlar üçün bünövrə rolunu oynaya bilər.

Mövzunu belə ümumiləşdirmək olar: "Hər bir insan ad və soyadı ilə tanınır. Ad və soyad daşımaq insanın hüququdur. Ad və soyad daşımaq hüququ ilə bərabər, məktəbdə təhsil almaq da insanın hüququdur. Təhsil insanlara bilik və bacarıq qazandırır. Bilik və bacarıqlar isə problemlərin öhdəsindən daha asan gəlməyə kömək edir".

***QEYD.*** Uşaq hüquqları haqqında söylənənlər sadəcə məlumatlandırma deyil. Müəllimdən uşaq hüquqlarına uyğun peşəkar davranış gözlənilir. Müəllimin mesajları əgər onun yumşaq səs tonunda, həssas münasibətində, dözümlü və ədalətli yanaşmasında əks olunursa, uşaqlar üçün inandırıcı olur.

**TAPŞIRIQ** 1-ci tapşırıq şagirdlərin məktəbdəki fəaliyyətləri nə dərəcədə tanımasını aşkar etməyə yönəlmişdir. Müəllim əlavə şəkillər nümayiş etdirməklə tapşırığı genişləndirə bilər.

2-ci tapşırığı əvvəlcə dərsliyə, sonra isə real vəziyyətə uyğun yerinə yetirmək olar. Bu zaman müəllim suallar verə bilər: "Sinif otağınız haqqında nə deyə bilərsiniz?", "Müəlliminizin adını bilirsinizmi?", "Çantanızı özünüz yığırsınız, yoxsa valideyniniz kömək edir?"



**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:

• Məktəbinizdə nə xoşunuza gəldi? Məktəbin həyətində nə xoşunuza gəldi? Məktəbinizin binası neçə mərtəbəlidir? Sinfiniz neçənci mərtəbədə yerləşir? Sinif otağınızda ən çox nəyi xoşladınız?
• Kimlərlə tanış oldunuz? Yoldaşlarınızdan hansılarının adları yadınızda qaldı? Sizdən "müəlliminiz kimdir?" soruşsalar, necə cavab verərsiniz?
• Onlar haqqında nələri öyrəndiniz? Yanınızda oturan yoldaşınızın adı və soyadı nədir? O hansı oyunu (oyuncağı) sevir?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Adını, soyadını, sevdiyi oyuncaqlarını söyləməklə özünü təqdim edir. | Fəaliyyət |
| Müəlliminin və sinif yoldaşlarının adlarını, yoldaşlarının hansı oyunları sevdiyini söyləyir. | Sual-cavab, oyun |

| | |
|---|---|
| Hər bir insan üçün ad və soyad daşımağın, məktəbdə təhsil almağın vacib olduğunu izah edir. | Sual-cavab, dərslik |
| Məktəb və təhsil haqqında bildiklərini söyləyir. | Dərslik |

## Mövzu 2. Ailəm

**Dərslik:** səh. 10 • **İş dəftəri:** səh. 5

| | |
|---|---|
| **Altstandartlar** | 4.1.5. Ailə üzvləri haqqında ümumi məlumatlar verir.<br>4.1.6. Ailə üzvlərinə qarşı hörmət və sevgi hisslərini nümayiş etdirir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Şəkildəki ailə üzvlərinin müəyyən edilməsi.
**2. Fəaliyyət.** Ailə ağacı.
**3. Öyrənmə.** Ailə haqqında.
**4. Tapşırıq.** Dərslik: tap. №1,2. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**
**7. Dərsdən sonra**. Valideynlə söhbət.

**CƏLBETMƏ** Şagirdlərin diqqəti şəkildəki ailə təsvirinə yönəldilir. Müəllim suallar verə bilər:

– Şəkildə kimlər təsvir olunub? Onlar nə edirlər?

Şagirdlər şəkildəki ailə üzvlərini sadalayırlar.



Şəkillə bağlı cavabları dinlədikdən sonra şagirdlərə müraciət etmək olar:

– Sizin ailənizdə kimlər var? Onlar haqqında əlavə nə deyə bilərsiniz?

Şagirdlərin verdikləri cavablar onların ailələri haqqında məlumat əldə etmək və daha yaxından tanımaq üçün əhəmiyyətlidir.

Şagirdlər “Sizin ailənizdə kimlər var?” sualını cavablandırarkən evdə bəslədikləri heyvanların da (it, pişik, quş, balıq və s.) adını çəkə bilərlər. Bu onların ailə barədə ilkin təsəvvürləridir. “Heyvanlar ailə üzvü deyil” deməklə bu təsəvvürləri dağıtmaq lazım deyil. Əksinə, bu element vasitəsilə “qayğı” və “sevgi” anlayışlarını izah etmək olar. Şagirdlərdən heyvanları nə üçün sevdiklərini və ailədə onların qayğısına kimin qaldığını soruşmaq, cavablarını dinlədikdən sonra onlara belə suallarla müraciət etmək olar:

– Ailə üzvləriniz bir-birinin qayğısına necə qalırlar?

– Çətinliyiniz olanda ailə üzvləriniz sizə necə yardım edirlər?

Müzakirə suallarının məqsədi diqqəti ailədə qayğı və sevgiyə yönəltməklə uşaqlarda məsuliyyət, empatiya hisslərinin inkişaf etdirilməsidir.

**FƏALİYYƏT** Fəaliyyət fərdi iş formasında yerinə yetirilir. Müəllim şagirdlərə fəaliyyəti belə təqdim edə bilər:

– İndi ailənizi maraqlı bir formada təqdim edəcəksiniz. Kitabda gördüyünüz ağac adi ağac deyil. Buna “ailə ağacı” deyirlər. Siz bu ağacın yarpaqları üzərində ailə üzvlərinizin adlarını yazacaqsınız.

Müzakirə zamanı hər bir ailənin üzvlərinin sayının da fərqli olduğunu (bacı-qardaş, nənə-baba, kiçik-böyük və s.) diqqətə çatdırmaq və “müxtəliflik” anlayışını izah etmək olar. Uşaqların fəaliyyəti nə dərəcədə ardıcıl, məntiqli və səliqəli icra etməsinə diqqət yetirmək şagirdlər barədə müəyyən qənaətlərə gəlməkdən başqa, həm də formativ qiymətləndirmə üçün faydalıdır.



**ÖYRƏNMƏ** Şagirdlərin ailə barədə təsəvvürlərini genişləndirməyə yönəlmiş mətnin öyrənilməsi zamanı nuklear və geniş ailə barədə məlumatları dəqiqləşdirmək olar. Müzakirə təşkil edərək ailə üzvlərinin ailədəki rolu ilə bağlı fikirlərin səsləndirilməsinə şərait yaratmaq məqsədəuyğundur.

Bu mövzuda da “hüquq” anlayışına toxunmaq lazım gələcək. Ailədə yaşamağın insanın hüquqlarından biri olmasını şagirdlərin diqqətinə çatdırmaq təlim nəticələrinin reallaşdırılması baxımından məqsədəuyğundur: “Ad və soyad daşımaq, təhsil almaq kimi, ailədə yaşamaq da uşağın hüququdur”.
Bundan sonra dərslikdəki sualı səsləndirmək olar: “Ailə üzvlərinizlə necə vaxt keçirirsiniz?”
Cavablar ümumiləşdirilərkən ailənin insan üçün faydası önə çəkilir. Qeyd olunur ki, hər bir insanın sevgiyə və qayğıya ehtiyacı var. Ailədə insan doğulduğu gündən ona sevgi və qayğı göstərən insanların əhatəsində olur, çünki ailədə insanlar bir-birinə sevgi və qayğı göstərirlər.

**TAPŞIRIQ** 1-ci tapşırıqda şəkil üzrə böyüklərin uşaqlara necə yardım etdikləri barədə müzakirə təşkil olunur. Bu tipli tapşırıqlarla həm də nəsillərarası əlaqələr, davamlılıq və zamanla baş verən dəyişikliklər konsepsiyalarının dərk edilməsinin bünövrəsi qoyulur.

Ailə üzvlərinin uşaqlara göstərdikləri qayğı və yardım barədə dərslikdəki şəkillər və ya müəllimin özünün göstərdiyi başqa şəkillər üzrə iş, yaxud oyun təşkil oluna bilər.

**Oyun. “Kim kömək edər?”** Müəllim problemi səsləndirir, şagirdlər isə bu problemi həll etmək üçün hansı ailə üzvündən yardım ala biləcəklərini söyləməlidirlər. Məsələn:
• Köynəyiniz ləkələnib.
• Tapşırıqların həllində çətinlik çəkirsiniz.
• Əşyanız itib, tapa bilmirsiniz.
• Acımısınız, hazır yemək yoxdur.
• Dostunuzgilə qonaq getmək istəyirsiniz.

**Diferensial təlim.**
*Dəstək.* Ailə üzvlərinin adları soruşulur.
*Dərinləşdirmə.* Şagirdlərə ailə üzvləri barədə daha ətraflı məlumat verməyi tapşırmaq olar.

**Müəllim üçün əlavə məlumat.** Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 8-ci maddəsinə görə, ailə üzvü dedikdə valideynlər və uşaqlar nəzərdə tutulur. Bu, nuklear ailədir. Geniş ailə Azərbaycan mühiti üçün çox aktualdır və Azərbaycan xalqının milli əxlaqi dəyərlərindən biri kimi bu gün də əhəmiyyətini saxlayır. Ona görə də fikrimizcə, şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alaraq “ailə” anlayışını hüquqi müstəviyə keçirmədən bir-birini sevən, bir-birinə qayğı göstərən insanların birliyi kimi izah etmək daha məqsədəuyğundur.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:
• Ailə üzvləri kimlərdir? Ailədə kimlər ola bilər? Onlar ailədə hansı işlər görürlər?
• Ailə üzvləri bir-birinə necə münasibət göstərir? İnsan ailədə böyüməsə, həyatı necə olar? (R. Kiplinqin qəhrəmanı Mauqlini misal gətirmək olar.)

**DƏRSDƏN SONRA** Valideynlərlə iş təşkil olunur. Növbəti dərsdə şagirdlərdən valideynləri ilə hansı oyunları oynadıqlarını soruşmaq olar.
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Ailə ağacı əsasında ailə üzvləri haqqında ümumi məlumat verir. | Fəaliyyət |
| Ailə üzvləri arasında dəstəkləyici münasibətləri, hörmət və sevgi hisslərini konkret nümunələr göstərməklə izah edir. | Sual-cavab |
| Ailə üzvlərinin roluna aid nümunələr söyləyir. | Tapşırıq |

## Mövzu 3. Ölkəm

• **Dərslik:** səh. 12 • **İş dəftəri:** səh. 7

| | |
|---|---|
| **Altstandartlar** | 4.3.1. Ölkəsini və paytaxtını tanıyır.<br>4.3.2. Azərbaycan Respublikasının dövlət rəmzlərini tanıyır.<br>4.2.1. Azərbaycan Respublikasının pul nişanlarını tanıyır. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Azərbaycanın adı və paytaxt şəhəri.
**2. Fəaliyyət.** Dövlət rəmzləri.
**3. Öyrənmə.** Dövlət rəmzləri haqqında məlumat.
**4. Tapşırıq.** Dərslik: tap. №1,2. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Mövzunun əvvəlində Azərbaycan Respublikasının xəritəsi təqdim olunur. Bu, şagirdlərdə ölkəmizin sərhədlərini və kiçildilmiş təsvirini tanımaq üçün əhəmiyyətlidir. Müəllim xəritəni göstərib müxtəlif suallar verə bilər:
– Biz hansı ölkədə yaşayırıq? Ölkəmiz necə adlanır?
Suala şagirdlər "Azərbaycan" cavabını verirlər. Cavabın doğru olmasını qeyd etdikdən sonra belə bir müqayisə aparmaq olar. Bir neçə şagirdə ad və soyadını söyləməyi təklif etmək, onlar ad və soyadlarını söylədikdən sonra diqqəti bu fakta yönəltmək olar:
– Biz sizi adınızla tanıyırıq, amma sinifdə bir deyil, iki, hətta üç şagirdin eyni adı ola bilər. O zaman biz onları soyadlarına görə fərqləndiririk. Siz dəftərinizdə adınızla yanaşı, soyadınızı da yazırsınız. Bu sizin tam adınızdır. Ölkə adları da buna bənzəyir. Ölkəmizin tam adı Azərbaycan Respublikasıdır.
Bu mərhələdə şagirdlərin diqqətini xəritənin üzərindəki tarixi abidələrə yönəltmək və onların uzaq keçmişdə tikildiyini söyləmək olar. Bir neçə sözlə keçmiş dövrün mənzərəsini təsvir etmək məqsədəuyğundur. Fəaliyyətlə birbaşa əlaqəsi olmasa da, bu məlumat şagirdlərdə Azərbaycanın tarixinin qədim olması ilə bağlı təsəvvürlərin əsasını qoyur. Bu həm də gələcəkdə öyrəniləcək tarix fənninə hazırlıqdır.
Dərslikdəki ikinci sual müzakirə olunur:
– Ölkəmizin paytaxtı hansı şəhərdir?
Şagirdlərdən "Bakı şəhəri" cavabını aldıqdan sonra xəritədə yeri göstərilir. Şagirdlərdən ölkəmizin daha hansı şəhərlərini tanıdıqlarını soruşmaq olar. Sonra Bakı haqqında məlumatlar verilir. Azərbaycanda çoxlu şəhərin olduğu, ancaq Bakının bütün şəhərlərdən böyük və əhalisinin çox olduğu vurğulanır.
**FƏALİYYƏT** Tapşırığın məqsədi dövlət rəmzlərinin tanınmasına əsaslanır. "Müstəqil ölkə", "Respublika" kimi mücərrəd anlayışların dərk edilməsi birinci sinif şagirdləri üçün çətin ola bilər, ancaq onlar dövlət rəmzlərini və atributları ölkəni təmsil edən əsas əlamətlər kimi daha asan qavraya bilərlər. Bu onların dövlətçilik, vətənpərvərlik barədə fikirlərinin inkişafı üçün vacibdir.
Şagirdlər bayraq və gerbə aid fəaliyyəti fərdi olaraq yerinə yetirirlər. "Fəaliyyət"in 1-ci tapşırığında dövlət bayrağına aid cümlə şagirdin baza biliklərinə uyğun olaraq tamamlanır: "Bayrağımızın ...... rəngi var. Onun üzərindəki ulduz ...... guşəlidir".
2-ci tapşırıq dövlət gerbinə aid hissələrin müəyyən edilməsinə yönəlmişdir. Nəzərə alsaq ki Azərbaycan Respublikasının dövlət rəmzləri ilə şagirdlər hələ bağça və məktəbəhazırlıq qruplarından tanışdırlar, bu tapşırıq, xüsusilə də bayraqla bağlı fəaliyyət onlar üçün çətin olmayacaq.
**ÖYRƏNMƏ** "Öyrənmə" hissəsində dövlət rəmzləri və paytaxtımızla yanaşı, dövlətin əsas atributlarından olan dövlət dili və pul vahidi haqqında məlumat verilir. Müzakirə sualı səsləndirilir və bütün siniflə müzakirə edilir. Şagirdlərin cavabları onların dövlət bayrağını və dövlət himnini ölkəni təmsil edən əsas əlamət kimi qavradıqlarını təsdiq etməlidir. Müəllim mobil telefondan, yaxud başqa qurğulardan

istifadə etməklə dövlət himnimizi səsləndirə bilər. Bu zaman şagirdlərdən himnimizi ucadan oxumağı xahiş etmək olar.

**TAPŞIRIQ** 1-ci tapşırığı yerinə yetirərkən hər bir şəkil ayrıca müzakirə oluna bilər.





2-ci tapşırığı yerinə yetirərkən müəllim pul vahidlərimizi əyani nümayiş etdirə bilər. Bu zaman şagirdlərin diqqəti pul nişanlarının arxasındakı Azərbaycan xəritəsinə yönəldilir. Şagirdlərin metal pullarımızı da (qəpikləri) tanımaları məqsədəuyğundur.








**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərdən dövlət bayrağını harada gördüklərini soruşmaq olar.
*Dərinləşdirmə.* Şagirdlərdən dövlət gerbini harada gördüklərini, dövlət himnini harada eşitdiklərini soruşmaq olar.
**Müəllim üçün əlavə məlumat.** Nəzərə almaq lazımdır ki, dövlət rəmzlərinin tədrisi və təbliği bu mövzu ilə tamamlanmır. Onu sonrakı dərslərdə digər mövzularla mümkün olduqca əlaqələndirmək lazımdır. Əsasən sosial yönümlü mövzularda milli-mənəvi, maddi dəyərlərimizin təbliğinin prioritet olmasını unutmaq olmaz. Bununla yanaşı, şagirdlərdən digər ölkələr haqqında soruşmaq olar. Ölkələr arasında oxşar (məsələn, hər ölkənin himni, gerbi və bayrağı var) və fərqli əlamətləri (iqlim – isti, soyuq), ərazi fərqini (böyük, kiçik) müzakirə edərək "müxtəliflik" ideyasını vurğulamaq mümkündür.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:
• Ölkələr nə ilə tanınır? Başqa ölkələrin bayraqlarını harada görmüsünüz? Ölkələrin dövlət bayraqları bir-birindən necə fərqlənir?
• Dövlət rəmzləri hansılardır? Dövlət bayrağımızı başqa ölkələrin bayraqlarından hansı əlamətlərinə görə fərqləndirmək olar? Dövlət gerbimiz hansı hissələrdən ibarətdir?
• Ölkəmizin pul vahidi necə adlanır? Milli pulumuz necə adlanır? Azərbaycanın ən kiçik pulu hansıdır (1 qəpiklik)? Puldan nə üçün istifadə edilir? Başqa ölkələrə aid hansı pul nişanlarını tanıyırsınız?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.
**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Ölkəsini və onun paytaxtının adını söyləyir. | Sual-cavab |
| Azərbaycan Respublikasının dövlət rəmzlərini və onların əsas elementlərini sadalayır. | Fəaliyyət, tapşırıq |
| Dövlət bayrağına olan məhəbbətini nümunələrlə izah edir. | Sual-cavab |
| Müxtəlif ölkələrin pul nişanları arasında Azərbaycanın milli pulunu tanıdığnı nümayiş etdirir. | Tapşırıq |

# Mövzu 4. Mən azərbaycanlıyam

• **Dərslik:** səh. 14 • **İş dəftəri:** səh. 9

| | |
|---|---|
| **Altstandartlar** | 4.3.3. Milli kimliyini öz fikirləri ilə ifadə edir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Zəfər Günü.
**2. Fəaliyyət.** Xarıbülbül.
**3. Öyrənmə.** Zəfər Günü və xarıbülbül çiçəyi haqqında.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.** Zəfər Gününün doğurduğu təəssürat.
**6. Formativ qiymətləndirmə.**
**7. Dərsdən sonra.** Valideynlə söhbət.

**CƏLBETMƏ** Cəlbetmə üçün dəstəkləyici mühit yaratmaq, məsələn, 44 günlük müharibə və Zəfər Günü ilə bağlı plakat düzəldib lövhədən asmaq məqsədəuyğundur.










“Mən azərbaycanlıyam” mövzusuna əvvəlki “Ölkəm” mövzusunun davamı kimi baxmaq olar. “Ölkəm” mövzusunda dövlət rəmzləri ilə tanışlıq və onlara hörmət etməyin vacibliyi təbliğ olunursa, bu mövzuda öz vətəninin vətəndaşı olmağın yaratdığı qürur hissi ön plana çəkilir. Məqsəd şagirdlərdə vətənə, torpağa sədaqət, Vətən yolunda mübarizəyə hazır olmaq ruhunu aşılamaqdır. Dərslikdə verilən suallar müzakirə olunur. Bu suallar ətrafında vətənə məhəbbət hissləri ön plana çəkilir.



**FƏALİYYƏT** “Fəaliyyət”də xarıbülbül simvolunun rənglənməsi nəzərdə tutulur. Dərslikdə xarıbülbül simvolunun rəngli versiyası yoxdur. Ona görə də onun rəngli versiyasını şagirdlərin müşahidə edə biləcəyi əlverişli bir yerdən asmaq lazımdır.

**ÖYRƏNMƏ** Mətndə Zəfər Günü və müharibədə şəhid olan əsgərlərin, Azərbaycanın qələbəsinin, Şuşanın, Qarabağın simvolu olan xarıbülbül çiçəyi barədə məlumat verilir. Zəfər Gününün hər bir azərbaycanlı üçün qürur günü olduğu vurğulanır. Mətndən sonra verilən suallar ətrafında geniş diskussiya təşkil etmək olar.

– Zəfər Gününü nə üçün təntənə ilə bayram edirik?

44 günlük müharibədəki şanlı qələbəmizi və bu qələbənin təəssüratlarını gündəlik həyatımızda daim hiss edirik. Ona görə də şagirdlər bu sual ətrafında öz fikirlərini bölüşməkdə çətinlik çəkmirlər. Müzakirənin ikinci sualı birinci ilə sıx əlaqəli olduğundan onun da müzakirəsi çətin olmayacaq. Cavablar nə qədər müxtəlif olsa da, onların hamısında düşmən üzərində qələbənin doğurduğu qürur hissi özünü büruzə verəcəkdir.

– Biz Zəfər Günündə hansı hissləri keçiririk?

Şagirdlər "qürur hissi" anlayışını "çox sevinirik", "fəxr edirik" kimi sözlərlə ifadə edə bilərlər. Qürur hissinin nə olduğunu bilən şagird bu hissin doğurduğu emosiyaları da bölüşə bilər.

Mövzuda təsvir edilən şəkillərdə dövlət rəmzlərinin ölkəni təmsil edən əsas əlamətlər olduğuna nümunələr verilib. Üzərində Zəfər Günü yazılmış şəkildə Dövlət Bayrağının fonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fotoşəklinin verilməsi bu anlayışların əlaqəli olduğunu göstərir. Müəllim diqqəti şəklə yönəldərək Azərbaycanın Dövlət Bayrağı, Azərbaycan dövlətinin başçısı və Azərbaycanın şanlı qələbə gününü bir-biri ilə əlaqələndirmək məqsədilə suallar verə bilər. Məsələn:
– Nə üçün igid əsgərlərimiz "Qarabağı alacağıq və oraya üçrəngli şanlı bayrağımızı sancacağıq!" deyirdilər? Onlar işğaldan azad etdikləri ərazilərə nə üçün ilk növbədə Azərbaycan bayrağını sancırdılar?
**Müəllimin nəzərinə!** Şagirdlərdə milli qürur, vətənpərvərlik kimi keyfiyyətlərin formalaşdırılmasına yönəlmiş mövzuların tədrisinin düzgün təşkili təlim-tərbiyə prosesinin başlıca vəzifələrindəndir. Vətənini, ana dilini sevmək, ölkəsinin tarixini öyrənmək, milli-mənəvi dəyərlərinə sahib çıxmaq kimi ali hisslərin tərbiyəsində məktəbin rolu başqa institutlarla müqayisədə ölçüyəgəlməz dərəcədə böyükdür. Xüsusilə məktəb təhsilinin ilk illərində bu mövzunun tədrisinə diqqət etmək lazımdır.

**TAPŞIRIQ** Tapşırığı yerinə yetirməzdən əvvəl müəllim sinfə müraciət edə bilər:

– Əgər "Zəfər Günü" mövzusunda açıqça düzəltmək istəsəniz, onu necə hazırlayarsınız?

Şagirdlər açıqçanın ideyası, onu necə görürlər, hansı elementlərdən ibarət olduğunu düşünürlər kimi suallara cavab verirlər.
Sonda təşkil edilən müzakirədə müəllim ümumi sual verir:

– Siz bu açıqçanı kimə göndərərdiniz? Açıqçanın arxasında nə yazardınız? Başqa ölkələrdəki uşaqlarla görüşsəniz, onlara Zəfər Günü haqqında nə söyləyərdiniz?

Mövzuya aid tapşırıq çox sadədir və şagirdlərdən Zəfər Gününü əks etdirən açıqçanı tapıb işarə etmək tələb olunur.

**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərə "Torpaqlarımız hansı ölkə tərəfindən işğal olunmuşdu?" sualını vermək olar.
*Dərinləşdirmə.* Şagirdlərə "44 günlük müharibədə hansı şəhərlərimiz azad olundu?" sualı ilə müraciət oluna bilər.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:
• Zəfər Gününü nə üçün qürur günümüz hesab edirik? 44 günlük müharibədə Azərbaycan nəyə nail oldu? Qəhrəman əsgərlərimizdən kimləri tanıyırsınız? Siz Zəfər Günündə yoldaşınızı necə təbrik edərdiniz? Ona nə deyərdiniz?
• Zəfərimizin simvolu olan çiçəyin adı nədir? Xarıbülbül zəfərimizdən başqa, daha nəyin simvoludur? Xarıbülbül hansı quşu xatırladır?

**DƏRSDƏN SONRA** Valideynlərlə iş təşkil olunur. Növbəti dərsdə şagirdlərdən valideynləri ilə xarıbülbül haqqında söhbətdən aldıqları məlumatlar müzakirə edilir.

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.
**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Təsviri incəsənət bacarıqlarından istifadə edərək xarıbülbül simvolunu rəngləyir. | Fəaliyyət |
| Zəfər gününə aid açıqçanı elementlərinə əsasən müəyyən edir. | Tapşırıq |
| Kreativ düşüncə əsasında Zəfər Gününü təsvir edir. | Sual-cavab |

# Mövzu 5. Mən harada yaşayıram

**• Dərslik:** səh. 16 **• İş dəftəri:** səh. 11

| | |
|---|---|
| **Altstandartlar** | 2.2.6. Yol hərəkəti qaydalarını izah edir.<br>4.1.11. Yaşadığı ünvanı təsvir edir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Yaşadığımız evin və məktəbin yerini necə tapmalı.
**2. Fəaliyyət.** Məktəb yolu.
**3. Öyrənmə.** İşıqfor və piyada keçidindən istifadə qaydaları.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərin diqqətini personajların sözlərinə yönəldərək onların müşahidə bacarığını təqdir edən fikirlər söyləyə bilər: "Sevil atası ilə məktəbə gələrkən yola diqqətlə baxır. Onlar piyada keçidindən keçirlər. Kamrangilin evlərinin yanında oyun parkı və market var. Kamran da diqqətlidir, bunları yaxşı yadında saxlayıb".

Müəllim məktəbin yaxınlığındakı hər hansı evin ətrafındakı diqqətçəkən obyektlərdən söhbət aça bilər. Valideynlərindən ayrı düşən bir uşaq haqqında şərti hekayə qurub danışmaq da mümkündür. Məsələn, yolu səhv salan hər hansı uşaq evlərinin yanında nələrin olduğunu bildiyi üçün tez bir zamanda evlərinə və valideynlərinə qovuşub. Bu hazırlıqdan sonra şagirdlərlə dərslikdəki suallar müzakirə edilə bilər.

– Evinizin yaxınlığında nələr var?

Suala qaneedici cavablar verən şagirdlərin müşahidə bacarıqlarının daha yaxşı olduğunu nəzərdə saxlamaq vacibdir. Gələcək dərslərdə fərdi tapşırıqlar verilərkən onların bu qabiliyyəti nəzərə alına bilər.

**FƏALİYYƏT** Fəaliyyətin icrasına başlamazdan əvvəl şagirdlərə hər gün məktəbə gələrkən yolda nə gördüklərini yada salmağı təklif etmək məqsədəuyğun olar. Yolboyu müşahidə etdikləri obyektləri xatırlamaq onlara fəaliyyəti daha səmərəli yerinə yetirməyə kömək edər.

Şagirdlər fəaliyyəti həm fərdi, həm də cütlər şəklində yerinə yetirə bilərlər. Cütlər şəklində işləyərkən, əsasən, eyni ərazidə yaşamalarının onlara müəyyən yardımı toxuna bilər. Şagirdlər fəaliyyətin icrası zamanı əməkdaşlıq edir və bir-birinə yardımçı olurlar.

**ÖYRƏNMƏ** "Öyrənmə" mətnində diqqətçəkən obyektlərin məkan barədə təsəvvür yaratması, işıqfor və piyada keçidi haqqında məlumat verilir. Mətnin piyada keçidi və işıqforla bağlı hissəsi qayda xarakterli olduğuna görə şagirdlərin onu yadda saxlaması vacibdir.

Müzakirə üçün nəzərdə tutulan suallar və onlara cavablar səsləndirilir. Müəllim istiqamətləndirici suallar verə bilər:

– Evinizin yanında hansı yerlər daha çox diqqət cəlb edir? Hansı yerləri yadda saxlamaqla evinizin yerini daha yaxşı yadda saxlaya bilərsiniz?

Növbəti sual işıqforun funksiyası haqqındadır:

– İşıqfordan və piyada keçidindən nə üçün istifadə etmək lazımdır?

İşıqfor haqqında müzakirə zamanı tapmaca-şeirdən istifadə etmək olar. Kiçikyaşlı məktəblilərin şeirləri daha asan yadda saxladığı nəzərə alınsa, bu tapmaca işıqforun funksiyalarını izah etmək üçün daha faydalı olar.

Qırmızı, yaşıl, sarı
Üçrəngli işıqlar.
Yanmasa o işıqlar,
Yollar tamam qarışar.



Qırmızı yandı – dayan.
Maşın gəlir o yandan.
Sarıda tələsməyən
Uzaq olar bəladan.
Yandı yaşıl – ayıq ol!
Marş irəli, yaxşı yol!

**TAPŞIRIQ** Tapşırıqda yolu qırmızı işıqda keçən və piyada keçidindən istifadə etməyən uşaqları müəyyən etmək tələb olunur. Şəkillərdə eyni məkanlarda 4 fərqli situasiya təsvir olunur. Tapşırığı yerinə yetirdikdən sonra müəllim diqqəti qaydalara əməl etməməyin mənfi nəticələrinə yönəldən suallar verə bilər:

– Hətta yolda avtomobil görünməsə belə, yolu nə üçün qırmızı işıqda keçmək olmaz? Piyada keçidindən keçməyən yoldaşlarınıza bunun düzgün olmadığını necə başa salardınız?

Şagirdlərin bu suallara verəcəyi cavablar onların sosial məsuliyyət hissinin ifadəsi kimi də əhəmiyyətlidir.



**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərdən işıqforun təhlükəsizlik üçün əhəmiyyətini soruşmaq olar.

*Dərinləşdirmə*. Şagirdlərə işıqfor və piyada keçidindən istifadə qaydalarına əməl etməyin vacibliyini əsaslandırmaq təklif oluna bilər.

**Müəllim üçün əlavə məlumat.** Kiçikyaşlı uşaqlar yolda böyüklərin müşayiəti ilə hərəkət edirlər. Buna baxmayaraq onları gələcəkdə yolu müstəqil keçməyə hazırlamaq vacibdir. Uşaqlara yolu keçərkən ehtiyatlı davranmağın dörd addımı barədə danışmaq olar. Onlara böyüklərlə birgə yolu keçərkən bu addımlara diqqət etmək tövsiyə oluna bilər.

"Valideynlərinizlə birgə yolu təhlükəsiz keçmək üçün aşağıdakı üsulun köməyi ilə məşq edin:

**Dayanın – Baxın – Dinləyin – Düşünün (DBDD üsulu)**

*Dayanın. Keçidə yaxınlaşdığınız zaman səkinin kənarına çatmamış dayanın.*

*Baxın. Sağa, sola və yenidən sağa baxaraq minik avtomobillərini, velosipedləri, yük maşınlarını və digər nəqliyyat vasitələrini axtarın.*

*Dinləyin. Nəqliyyat vasitələrinin səsinə diqqət yetirin. Onlar görünməsə də, səslərini eşitmək olar.*

*Düşünün. Yolu təhlükəsiz keçmək üçün sizin kifayət qədər vaxtınız varmı?"*

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:

• Evinizin yaxınlığında diqqətinizi ən çox nələr çəkir? Yaşadığınız yerdə nə xoşunuza gəlir? Nə üçün? Evinizin yanında böyük binalar varmı? Varsa, onları necə təsvir edərsiniz? Evinizin ətrafında yaşıllıq çoxdurmu? İdman meydançası varmı? Uşaq meydançası necə? Ən çox harada vaxt keçirməyi xoşlayırsınız?

• İşıqforun rənglərinin mənası nədir? Evinizin yaxınlığında avtomobil yolu varmı? Yolda avtomobillərin hərəkəti sıxdırmı? Orada işıqfor qoyulubmu? İşıqforda rənglər necə sıralanıb?

• "Piyada keçidi" nişanında nə təsvir olunub? "Piyada keçidi" nişanı harada qoyulur? "Piyada keçidi" nişanı qoyulmayan yollarda piyadalar üçün keçidi necə tanımaq olar?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Yaşadığı ünvanı ətrafdakı diqqətçəkən obyektlərə istinadən təsvir edir. | Fəaliyyət |
| İşıqforun funksiyasını izah edir. | Tapşırıq |
| Piyadalar üçün nəzərdə tutulan zolaqdan istifadə qaydasını izah edir. | Sual-cavab, tapşırıq |

# Mövzu 6. Ünsiyyət

• **Dərslik:** səh. 18 • **İş dəftəri:** səh. 13

| | |
|---|---|
| **Altstandartlar** | 4.5.1. Nəzakət qaydalarına əməl edir. |
| **Köməkçi vasitələr** | Oyun üçün rekvizitlər, "Sülh gülü" |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Sinif yoldaşları arasında söhbət.
**2. Fəaliyyət.** Sehrli sözlər.
**3. Öyrənmə.** Nəzakət qaydaları və onun əhəmiyyəti.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Mövzuya şagirdlərin gündəlik həyat və məişətinə aid situasiyalardan nümunələrlə başlamaq olar. Müəllim şagirdlərə belə suallar verə bilər:

– Həyətə çıxanda tanış uşaqları görəndə nə edirsiniz?

Şagirdlərin mümkün cavablarından ən uyğunu "Salamlaşırıq" olacaq. Bu cavabdan sonra sual oluna bilər:

– Necə salamlaşırsınız? Salamlaşarkən nə deyirsiniz?

Şagirdlər salamlaşma zamanı istifadə etdikləri nitq etiketlərini səsləndirəcəklər: "Salam! Xoş gördük! Necəsən!" və s. Cavablar şagirdlərin sadə nəzakət qaydalarını nə dərəcədə bilməsi və onlara əməl etməsi haqqında ilkin təsəvvürlər yaradacaq.

**FƏALİYYƏT** "Fəaliyyət"in icrası nitq etiketlərini situasiyalara uyğunlaşdırıb yerinə yazmağı nəzərdə tutur. "Fəaliyyət"i nəzakət qaydaları və nitq etiketləri ilə bağlı rollu oyunlardan da istifadə etməklə yerinə yetirmək olar. Məsələn, "Mağazada" (alıcı və satıcı), "Ailədə" (ana və uşaq, bacı-qardaş), "Parkda" (dostlar, yoldaşlar) və s. Rollu oyun bilik və bacarıqların yeni situasiyalara tətbiq edilməsi üçün yaxşı üsuldur. Oyun zamanı aldığı informasiya uşaq tərəfindən mənimsənilir və o, adi həyatda bu informasiyadan istifadə edərək qərarlar qəbul edir. Bu informasiyalar başqaları ilə əlaqələr qurmaq və planlaşdırmaq, həmçinin impulslarını idarə etmək bacarığının inkişafına kömək edir. Uşaqlar oynadıqları rola uyğun danışmağı öyrənməlidirlər. Bu mənada rollu oyun həm də onlarda ekspressiv dili inkişaf etdirir.

Başqa üsuldan da istifadə etmək mümkündür. Uşaqlar şeir-tapmacaları sevirlər. Ona görə də müəllim tapmacanı deyib qafiyəni tamamlamağı təklif edə bilər. Bu cür tapmacalar uşaqlar üçün nəzakət qaydalarını asanlıqla mənimsəməyə kömək edir. Cavab sözlər əvvəlcədən lövhədə yazıla bilər və şagirdlərə yalnız uyğun variantı seçib söyləməyi təklif etmək olar.

**Salam!** **Bağışlayın!** **Sağ olun!** **Təşəkkürlər!**

*1. Dostumla rastlaşanda ona deyirəm... (Salam).*
*2. Kimsə mənə bir işdə kömək edirsə əgər,*
*Mütləq ona deyirəm: ... ( Sağ olun, təşəkkürlər).*
*3. Birinə toxunanda,*
*Ya yol olsun, ya oyun,*
*deyirəm : ... ( Bağışlayın).*

**ÖYRƏNMƏ** Mətndə sadə nəzakət qaydalarından bəhs olunur. Müzakirə üçün nəzərdə tutulan suallar və onlara cavablar səsləndirilir. Bu zaman müəllim şagirdlərin fikirlərini dinləyib nəzakət qaydalarının cəmiyyətdə yaşamaq və insanların bir-biri ilə uğurlu ünsiyyəti üçün vacibliyini vurğulaya bilər. Şagirdlər anlamalıdırlar ki, tanımadığı insanlarla, özündən böyüklərlə, müəllimi ilə danışanda onlara "sən" deyə müraciət etmək nəzakət qaydalarına uyğun deyil. Şagirdlərə nəzakətli davranışa aid sözlərin mənasını və bu sözlərin başqalarına necə təsir etməsinin izahını vermək səmərəli ola bilər. Məsələn, "Salam" və "Hələlik" deyəndə biz qarşı tərəfə çatdırmaq istəyirik ki, siz mənim üçün əhəmiyyətlisiniz və mən sizə hörmətlə yanaşıram. "Təşəkkür" edəndə biz başqasının xoş hərəkətini, sözünü, ya da sadə dəstək jestini dəyərləndirdiyimizi onun nəzərinə çatdırırıq. Ona hörmətlə yanaşmağımız, yaxşı hərəkətini, sözünü və dəstəyini qiymətləndirməyimiz qarşı tərəfin xoşuna gəlir.

Şagirdlər qarşı tərəfin hisslərini, reaksiyalarını təhlil edərlərsə, bu zaman bir-birini daha yaxşı başa düşər və ünsiyyətdə daha həssas davranarlar.

**Müəllimin nəzərinə!** Nəzakət qaydaları yalnız formal davranış addımları deyil. Bu, cəmiyyətdə hörmətə əsaslanan münasibətlərin qurulmasının başlanğıcı və əsas şərtdir. Mövzu şagirdlər üçün yenidir və ünsiyyət qurarkən nəzakət qaydalarına əməl etməyin vacibliyi haqqında təsəvvürlərin bünövrəsini qoyur.

**TAPŞIRIQ** Tapşırıqda verilmiş situasiyalarda nəzakət qaydalarına əməl edilib-edilmədiyini müəyyənləşdirmək tələb olunur. Şəkillərdəki situasiyalarda istifadə olunan ifadələri də şagirdlərdən soruşmaq məqsədəuyğundur:

– Kitabı alan zaman uşaq nə söyləməlidir? Görüşərkən uşaqlar bir-birinə nə deyirlər?

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə konkret situasiyalarla bağlı nitq etiketlərini sadalamağı təklif etmək olar.

*Dərinləşdirmə.* Şagirdlərə nitq etiketlərindən istifadə edilməməsinin ünsiyyətə mənfi təsirini izah etmək təklif oluna bilər.

**Müəllim üçün əlavə məlumat**. Nəzakətli və qarşılıqlı hörmətə əsaslanan davranışın inkişafı üçün məşhur Montessori məktəbinin **"Sülh gülu" texnikasından** (yaxud "Barış çiçəyi") istifadə etmək məqsədəuyğun olar. Bu üsul uşaqlara münaqişələri müstəqil şəkildə aradan qaldırmağa kömək edir. Bunun üçün sinifdə görünən yerdə bir gül qoyulur. Gülü uşaqlarla birgə kağızdan və ya parçadan düzəltmək olar. Müəllim sülh, barış haqqında danışıb güldən hansı vəziyyətlərdə və necə istifadə edilməsinin addımlarını təsvir etməlidir.

*Münaqişəli situasiyanın təsviri.* Məsələn, bir dost digərinə kobud söz desə və ya onun istifadə etdiyi əşyanı əlindən dartıb alsa, dostu ondan inciyər. Bu zaman problemi həll etmək üçün "Sülh gülü"ndən istifadə etmək olar.

*Təlimat.* Əvvəlcə inciyən dost onu incidən yoldaşının diqqətini çəkməlidir. Sonra "Sülh gülü"nü götürüb sakitcə ona yaxınlaşmalı və hisslərini ifadə etməlidir. Məsələn, "Kitabımı əlimdən dartıb alanda mənim xoşuma gəlmədi". Sonra o, gülü dostuna verir və dostu danışmağa başlayır. O danışır (üzr istəyir, yaxud bunu bilmədən etdiyini söyləyir və s.), inciyən dostu isə sakit dayanıb onu dinləyir. Hər iki tərəfi qane edən bir qərara gələndən sonra hər ikisi əllərini gülün saplağına qoyur və "Dostlar!" deyirlər. Bu o deməkdir ki, baş verən hadisəyə baxmayaraq onlar yenə dost olaraq qalırlar.

İlk vaxtlar müəllim üçüncü tərəf kimi uşaqlara bu prosesdə kömək edə bilər. Sonradan isə şagirdlər bu üsuldan müstəqil istifadə etməyi öyrənəcəklər. "Sülh gülü" uşaqlara hisslərini həmyaşıdlarına rahatlıqla ifadə etmək imkanı yaradır və problemi dialoq vasitəsilə həll etmək bacarığının inkişafına xidmət edir.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:

• Hansı nəzakət qaydalarına əməl edirsiniz? Tanışınızla qarşılaşanda nə edirsiniz? Sizdən yaşda böyük biri ilə eyni vaxtda qapıdan keçməli olsanız, necə hərəkət edərsiniz? Məktəbdə dərs qurtarıb evinizə gedəndə yoldaşlarınızdan ayrılırsınız. Bu zaman nə etməlisiniz? Yoldaşınız, ya da heç tanımadığınız biri hansı bir işinizəsə kömək göstərsə, siz nə etməlisiniz?

• Ünsiyyət zamanı hansı sözlərdən istifadə edirsiniz? Səhər görüşərkən bir-birinizə nə deməlisiniz? Günorta qarşılaşsanız, nə deyərsiniz? Axşam görüşəndə nə söyləmək lazımdır? Kimsə sizi çağıranda ona necə cavab verirsiniz? Kimsə sizə kömək edəndə ona hansı sözləri deyirsiniz?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Situasiyaya uyğun nitq etiketlərini (salamlaşmaq, vidalaşmaq, müraciət etmək, müraciətə cavab vermək, təşəkkür etmək) müəyyən edir. | Fəaliyyət |
| Situasiyaya uyğun nitq etiketlərinə (salamlaşmaq, vidalaşmaq, müraciət etmək, müraciətə cavab vermək, təşəkkür etmək) əməl edir. | Oyun |
| Verilmiş situasiyalarda nəzakət qaydalarına əməl edilib-edilmədiyini müəyyən edir. | Tapşırıq |

# Mövzu 7. İntizam

**• Dərslik:** səh.20 **• İş dəftəri:** səh. 15

| | |
|---|---|
| **Altstandartlar** | 4.4.2 Sinifdaxili intizam qaydalarına əməl edir. |
| **Köməkçi vasitələr** | İntizam qaydalarına aid müxtəlif təsvirlər |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Dərs zamanı sinif otağında səliqənin pozulması.
**2. Fəaliyyət.** "Texnologiya" dərsində.
**3. Öyrənmə.** Sinif intizam qaydaları və onun əhəmiyyəti.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-6.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Mövzu "Texnologiya" dərsində şagirdlərin fəaliyyətini təsvir edən şəkillə başlayır. Şagirdlər tapşırığı yerinə yetirirlər və bu zaman görülən iş nəticəsində döşəməyə kağız qırıntıları, karandaş yonqarı və s. tullantılar tökülür. Müəllim şagirdlərin diqqətini şəklə yönəldərək soruşur:



– Uşaqlar hansı dərsdədirlər? Onlar nə edirlər? Döşəmədə nə görürsünüz?

Şagirdlər "Texnologiya" fənni ilə tanış olduqlarına görə sualı cavablandıra bilərlər.

***QEYD.*** Məktəblərdə sinif otaqlarının təmizliyinə məsul olan işçilər vardır. Burada məqsəd həmin işçilərə aid işlərin şagirdlər tərəfindən yerinə yetirilməli olmasını göstərmək deyil. Fəaliyyətin məqsədi şəxsiyyətin inkişafında çox mühüm amil olan özünütərbiyə dəyərlərinin formalaşdırılması və inkişafıdır. Özünütərbiyə şəxsiyyətin özünüdərki və özünüidarəsi ilə bağlı kateqoriyadır. Onu inkişaf etdirməyin yolu isə intensiv təcrübə əsaslı öyrənmədir. Şagirdlərin pozitiv davranış modellərinin formalaşdırılmasında özünütərbiyə çox böyük rol oynayır. Müxtəlif tipli məntiqi və yaradıcı inkişafyönümlü fəaliyyətlər sosial və mənəvi inkişafa təsir edərək arzuolunan davranış modellərini ərsəyə gətirir. Dərslikdə belə fəaliyyət kimi "Texnologiya dərsi" təklif olunur. Müəllim uyğun hesab etdiyi başqa fəaliyyətlər də təklif edə bilər.

**FƏALİYYƏT** Şagirdlər dərsin sonunda sinif otağında səliqəni bərpa edən personajların adlarını müəyyənləşdirib çərçivələrə yazırlar. Fəaliyyətdəki davranışların izah edilməsinə yönələn suallar vermək məqsədəuyğun olar. Məsələn:



– Şagirdlər bunu nə üçün edirlər? Siz bu işlərdən hansını yerinə yetirə bilərsiniz? Sinifdəki səliqəsizlik dərsin keyfiyyətinə necə təsir edə bilər?

**ÖYRƏNMƏ** Mətndə ümumiləşdirilmiş bir sinfin intizam qaydaları əks olunub. Mətnin sonunda şagirdlərin diqqətini bu məlumata yönəltmək lazımdır: "Biz yalnız sinifdə deyil, evdə, küçədə, nəqliyyatda və oyun meydançasında da intizamlı oluruq. İntizam qaydalarına əməl edənlər intizamlı insanlardır".

Sualların müzakirəsi zamanı şagirdlər evdə, küçədə, nəqliyyatda və oyun meydançasında intizam qaydalarını müəyyən edirlər. Qeyd olunur ki, hər yerin özünə uyğun intizam qaydaları var. İnsan olduğu hər yerdə intizam qaydalarına əməl etməlidir.

**Müəllimin nəzərinə!** Dərsin təlim məqsədinin reallaşdırılması zamanı özünütərbiyə daxili intizam hissi ilə əlaqələndirilir. Başqa sözlə, şagirdlərdə daxili intizamın inkişafı dərsin əlavə məqsədlərindən biri kimi nəzərdə tutulur. Şagird yerə zibil atmamağı vərdişə çevirməli və buna vacib intizam qaydası kimi şüurlu şəkildə əməl etməlidir. Bu vərdişin formalaşdırılması uşaqların intizamlı şəxs kimi böyüməsinin əsas şərtlərindən biridir. Sözügedən vərdiş sosial həyatın bütün sahələrində şagird üçün faydalı olacaq. İnsan intizamlı olarsa, o özünə nəzarət edəcək və bütün hərəkətlərinə görə məsuliyyət daşıyacaq.

**TAPŞIRIQ** Tapşırıqda intizam qaydalarına əməl etməyən uşaqları müəyyənləşdirmək tələb olunur. Hər bir şəkli ayrıca müzakirə edərək hansı hərəkətlərin intizam qaydalarına zidd olduğunu əsasladırmaq məqsədəuyğundur.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə sinifdaxili intizam qaydalarını izah etməyi təklif etmək olar.

*Dərinləşdirmə.* Şagirdlərdən soruşmaq olar: "Sinifdaxili intizam qaydalarına daha nələri əlavə edə bilərlər?"

**Müəllim üçün əlavə məlumat.** Məktəbdaxili nizam-intizam qaydaları şagirdlərin təhlükəsiz və səmərəli təlim mühitində təhsil alması və tədris prosesinin təhlükəsizliyinin təminatı üçün vacibdir. Qaydaların köməyi ilə:

- Səmərəli təlim və tədris mühiti yaradılır – tədris nizamlı təşkil edilir və keyfiyyəti qorunur.
- Şagirdlərə məktəb binalarında yaxşı davranma imkanı verilir.
- Şagirdlərin özünə və başqalarına hörmət etmək, məktəbdə və məktəbdənkənar həyatda qarşılıqlı öhdəlikləri dərk etmək kimi sosial kompetensiyaları inkişaf etdirilir.

Bu qaydalar Cenevrə "Uşaq hüquqları bəyannaməsi" (CUHB) ilə təsbit edilmişdir. Uşaq hüquqlarına görə, uşaqların gələcəkdə cəmiyyətin fəal üzvü olmaları və qanunlara əməl etmələri elə məktəb dövründə fərdidən ümumiyə doğru inkişaf etdirilməlidir.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:

- Şagirdlər sinifdə səliqəni qorumaq üçün nə etməlidirlər? Sinfin səliqəli olması kimdən asılıdır? Siz sinfinizin səliqəli olması üçün nə edirsiniz?
- Başqa harada intizam qaydalarına əməl edilməlidir? Həyətinizi, küçənizi, oynadığınız meydançanı səliqəsiz görsəniz, bu sizin əhvalınıza necə təsir edər? Siz yolda hansı qaydalara əməl edirsiniz? Məktəbin həyətində də intizam qaydaları varmı? Məktəbin dəhlizində hansı qaydalara əməl etmək lazımdır?
- İntizam qaydalarına əməl etmək nə üçün vacibdir? Oyun meydançasında nisbətən böyük uşaqlar kiçiklərə oynamaq üçün şərait yaratmasalar, necə olar? Sərnişinlər hərəkət zamanı avtobusdan, taksidən yerə zibil atmağa adət edərsə, nə baş verər?

**DƏRSDƏN SONRA** Tapşırıqda park və küçələrdə insanların qaydalara necə əməl etdiklərini müşahidə etmək tələb olunur. Növbəti dərsdə şagirdlərin müşahidələrinin nəticəsi müzakirə edilir. Bu tapşırıq şagirdlərin tənqidi təfəkkürünün inkişafına kömək etməklə yanaşı, həm də onların fəal vətəndaş mövqeyinin formalaşmasına yardımçı ola bilər.

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Sinifdaxili intizam qaydalarını (sinifdəki əşyaları səliqəli istifadə etmək, sinfi təmiz saxlamaq) sadalayır. | Sual-cavab |
| Sinifdaxili intizam qaydalarına əməl edir. | Fəaliyyət |
| Verilmiş situasiyalarda intizam qaydalarına əməl edilib-edilmədiyini müəyyənləşdirir. | Tapşırıq |

## 2-ci BÖLMƏ | Sağlamlıq

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 8 | Bədən hissələri | 1 | 24 | 18 |
| Mövzu 9 | Oxşarlıq və fərqlilik | 1 | 26 | 20 |
| Mövzu 10 | Bədənimizi necə təmiz saxlayaq | 1 | 28 | 22 |
| Mövzu 11 | Sağlam qidalanma | 2 | 31 | 24 |
| | **CƏMİ** | **5** | | |

**Bölmənin qısa icmalı**

Bölmə insanın bədən hissələri, vizual olaraq oxşarlıq və fərqlilik, gigiyena qaydalarına əməl olunması, düzgün qidalanma, gün ərzində görüləcək işlərin sadə planlanması ilə bağlı mövzuları əhatə edir. Şagirdlərin yaş səviyyəsi nəzərə alınaraq bölmədə elmi terminlərdən istifadə olunmamışdır.

Kiçikyaşlı məktəblilər müəyyən bədən hissələrini tanıyırlar. Bölmənin ilk mövzusunda şagirdlərin bədən hissələri haqqında bilikləri genişləndirilir. Şagirdlərə  bədən hissələrinin, xüsusən də yeni tanış olduqları üzvlərin – topuğun, biləyin, dizin, dirsəyin hərəkət zamanı rolları və funksiyaları izah edilir.

"Oxşarlıq və fərqlilik" movzusunda insanların zahiri görünüşlərinə görə fərqli olduqları barədə bəhs edilir. Şagirdlər "İnsanlar bir-birindən necə fərqlənirlər?" sualı ətrafında düşünür və bu qənaətə gəlirlər ki, hamımız insan olsaq da, bütün insanlar bir-birindən fərqlənir.

"Bədənimizi necə təmiz saxlayaq" mövzusunda şagirdlərə təmizlik vasitələrindən istifadə və təmizlik haqqında olan vacib biliklər təqdim edilir. Kiçikyaşlı şagirdlərdə bədən təmizliyinin əhəmiyyəti və buna həssas yanaşma vərdişlərini formalaşdırmaq çox vacibdir. Çünki onlar gigiyena qaydalarını və onlara əməl etməyin həyati əhəmiyyəti haqqında tam məlumatlı deyillər. Ona görə də bu mövzu şagirdlərə aşağıdakı suallara cavab tapmaqda kömək edir:

– Bədən təmizliyi niyə vacibdir? Dişlərimizi niyə tez-tez və ya gün ərzində iki dəfə fırçalamalıyıq? Dırnaqlarımızı niyə kəsməliyik?




Sağlam qidalanma sağlam həyat tərzinin vacib şərtlərindəndir. Günün, əsasən, sabit və müəyyən vaxtlarında (səhər, günorta, axşam) müxtəlif növ qidalardan istifadə edilməsi, karbohidrat tərkibli qidaların (düyü, əriştə, çörək, kartof) əsas enerji mənbəyi olması, süd, pendir, ət, balıq kimi qidaların böyüməkdə xüsusi əhəmiyyəti, meyvə və tərəvəzlərin isə xəstəliklərə dözümlü olmağımızda rolu, həmçinin qazlı içkilər, jelibon, konfet və çips kimi qidalardan istifadənin sağlamlıq üçün zərərli olduğu izah edilir. Şagirdlər mövzu üzrə aşağıdakı suallara cavab tapırlar:

– Sağlam qidalanma nədir? Hansı qidalardan istifadə edirsiniz? Gün ərzində neçə dəfə və hansı vaxtlarda qidalanırsınız? Qidaları təyinatına görə (şərti bölünmüş) istifadə edirsinizmi? Hansı qidalar zərərlidir? Eyni qidadan davamlı və çox istifadə etmək zərərli ola bilərmi?

**Bölməyə giriş**

İnsan sağlamlığı onun gündəlik fəaliyyətinə və əldə etdiyi nailiyyətlərə ciddi təsir göstərir. Buna görə də sağlamlığımızı qorumaq məktəbin ilk siniflərindən təbliğ olunmalıdır. Bu baxımdan insan sağlamlığının, bunun üçün gün rejiminə, düzgün qidalanma və gigiyena qaydalarına əməl olunmasının əhəmiyyəti ilə bağlı müzakirələr təşkil etmək məqsədəuyğundur.

Bölmənin ilk səhifəsi üzrə iş təşkil edilir. Təsvir olunan şəkillərin ardıcıllığı müzakirə edilir. Şəkillər üzrə Günayın gün ərzində hansı işlər gördüyü şərh edilir. Uşaqlara onların gün ərzində hansı işlər gördükləri barədə suallar vermək olar. Müzakirə aşağıdakı suallar ətrafında yekunlaşdırılır:

– Sağlamlıq deyəndə nə başa düşürsünüz? Təmizlik niyə vacibdir? Gün ərzində hansı işləri görürsünüz?

## Mövzu 8. Bədən hissələri

**Dərslik:** səh.24 **• İş dəftəri:** səh. 18

| | |
|---|---|
| **Altstandartlar** | 1.1.1. İnsan bədəninin hissələrini və ya üzvlərini tanıyır.<br>1.1.2. İnsan bədəninin hissələrini və ya üzvlərini adlandırır. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, iş vərəqləri, şəkillər, kağız ürəklər |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Hərəkət zamanı istifadə etdiyimiz bədən hissələrimiz.
**2. Fəaliyyət.** Bədən hissələri.
**3. Öyrənmə.** İnsanın bədən hissələrini adlandırmaq.
**4. Tapşırıq.** Dərslik: tap. №1,2, 3. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərə müxtəlif hərəkətlər etməyi tapşırmaq olar. Məsələn, yerlərində qaçmaq, tullanmaq, oturub-qalxmaq, qolları yana açmaq, yuxarı qaldırmaq və s. Şagirdlərə sual verilir:

– Bu hərəkətləri edərkən hansı bədən hissələrindən və ya üzvlərindən istifadə edirsiniz?



Şagirdlərin bütün mümkün cavablarını (məsələn: "əl", "ayaq", "qol", "göz", "burun" və s.) qəbul etmək tövsiyə olunur. Müəllim bu tapşırığı bütün siniflə də yerinə yetirə bilər. Bunun üçün şagirdlərdən biri lövhəyə dəvət olunur. Ona hər hansı hərəkəti icra etmək tapşırılır. Müəllim hər hansı bir bədən üzvünün adını söyləyir. Şagirdlər şən və qəmgin üzlərlə münasibət bildirirlər: həmin üzv bu hərəkətdə iştirak edirsə, şən, etmirsə, qəmgin üzü nümayiş etdirirlər. Belə üsulla tapşırığın icrası zamanı müəllim hansı şagirdin səhvə yol verdiyini müəyyən edə bilər və bu səhvi həmin şagirdlə iş zamanı qaldıra bilər. Məsələn, şagirdə yerində addımlamağı xahiş edir və bir-bir bədən üzvlərinin adını çəkir:

– Burun, ayaq, qulaq, topuq və s.

Hər üzvü səsləndirdikcə şagirdlər münasibət bildirirlər.

Sonra şagirdlərin diqqəti dəslikdəki şəklə yönəldilir və sual səsləndirilir:

– Şəkildə adını bilmədiyiniz bədən hissəsi varmı?

Şagirdlərin insan bədəninin müxtəlif hissələri haqqında ilkin biliklərini sərbəst ifadə etmələri üçün şərait yaradılır. Müəllim barmağını şəkildəki uşağın müxtəlif bədən üzvlərinin üzərinə qoyub şagirdlərdən həmin üzvün adını soruşa bilər.

**FƏALİYYƏT** Şagirdlər şəkildə göstərilən bədən hissələrinin sayını boşluqlara yazırlar. Bununla onların diqqəti bədən hissələri və sayları arasındakı uyğunluğa yönəldilir.
Əlavə fəaliyyət. Bədən hissələrinin adlarını şagirdlərlə birlikdə səsləndirərək mahnı oxumaq olar.
*https://www.youtube.com/watch?v=dqdyZp8h2Qo*

**ÖYRƏNMƏ** Dərslikdə bədən üzvlərinin funksiyalarına dair verilmiş təlim materialı üzrə iş aparmaqla şagirdlərin diqqətini bədən hissələri və funksiyaları arasındakı əlaqələrə yönəltmək olar. Hərəkətlərin şagirdlərlə birlikdə icra edilərək göstərilməsi tövsiyə olunur. Məsələn, əllərin biləkdən fırladılması, qolların dirsəklərdən qatlanaraq hər hansı bir işin icrası, oturub qalxaraq dizlərin işi və s. Biləklərin, dirsəyin və dizlərin müxtəlif hərəkətlər zamanı rolunu və əhəmiyyətini göstərməklə bədən hissələrinin öyrənilməsini və yadda saxlanılmasını təmin etmək olar. Texniki imkanları olan siniflərdə bədən hissələri ilə əlaqədar videomaterial nümayiş etdirilə bilər: *https://www.youtube.com/watch?v=r13kDj1Bsxs*




Müzakirə vasitəsilə şagirdlərə izah olunur ki, bədən hissələrinin hər birinin spesifik funksiyası (işi) olsa da, bədən üzvləri bir çox hərəkətləri icra etmək üçün birlikdə çalışır və bir-birinə dəstək olur. Diz, bilək, dirsək və topuq kimi bədən hissələrinin hərəkətlərin icrasında rolunu göstərməklə bədən hissələrinin əlaqəli işləməsini və həyati əhəmiyyətini vurğulamaq olar.

Müzakirə üçün verilən sual ətrafında bütün mümkün cavabların qəbul edilməsi tövsiyə olunur.

– Yeriyərkən və qaçarkən dizlərimiz bizə necə kömək edir?

Şagirdlərin tənqidi təfəkkürünün inkişafı üçün ziddiyyətli suallardan da istifadə oluna bilər. Məsələn:

– Əgər dizimiz olmasaydı, necə qaçardıq və bu, rahat qaçmağımıza necə təsir edərdi? Biləyimiz hərəkətli olmasaydı, hansı işləri görmək çətinləşərdi?

**TAPŞIRIQ** 1-ci tapşırıqda bədənin hər bir hissəsi adı ilə uyğunlaşdırılır. Müəllim tapşırığı bütün siniflə də yerinə yetirə bilər. Bunun üçün şagirdlər ayağa qalxır. Müəllim bədən üzvlərinin adını çəkdikcə şagirdlər həmin üzvü göstərirlər.

2-ci tapşırığı praktik yerinə yetirmək olar. Müəllim şagirdlərə insan şəkli çəkməyi tapşırır. Şəkil çəkəndən sonra şagirdlərdən şəkilləri qaldırıb nümayiş etdirməyi xahiş edir. Bir neçə şagird çəkdiyi şəkildə insanın bədən hissələrini göstərir və adını söyləyir.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:

• Yazı yazarkən hansı bədən hissələrindən istifadə edirsiniz? Qaçarkən, futbol, voleybol, tennis oynayanda hansı bədən üzvləriniz hərəkət edir?

• Hansı bədən hissələrini tanıyırsınız? Bu üzvlərdən nə zaman istifadə edirik? Hər hansı bədən üzvümüz öz fəaliyyətini yerinə yetirməzsə, yaxud pis yerinə yetirərsə, biz kimə müraciət edirik? Buna hansı nümunələr göstərmək olar?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Bədən hissələrinin adlarını və sayını uyğunlaşdırır. | Fəaliyyət |
| Bədən üzvlərini tanıyır və adlandırır. | Tapşırıq |
| Bədən hissələrini icra etdiyi işlərlə əlaqələndirir. | Sual-cavab, tapşırıq |

## Mövzu 9. Oxşarlıq və fərqlilik

**Dərslik:** səh.26 • **İş dəftəri:** səh. 20

| | |
|---|---|
| **Altstandartlar** | 1.1.3. Bədən hissələrinin və ya üzvlərinin oxşar və fərqli olduğunu təsvir edir. |
| **Köməkçi vasitələr** | Fərqli insan şəkilləri |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Uşaqların fərqli əlamətlərinin müəyyən edilməsi.
**2. Fəaliyyət.** Fərqlənmək.
**3. Öyrənmə.** İnsanların oxşar və fərqli cəhətləri.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərə parta yoldaşları ilə oxşar və fərqli cəhətləri müəyyən etməyi tapşırmaq olar. Şagirdlər şəkildə təsvir edilən uşaqlara diqqətlə baxıb onları bir-birindən fərqləndirən xüsusiyyətləri sadalayırlar. Şəkillə bağlı cavabları dinlədikdən sonra şagirdlərə müraciət etmək olar:

– Siz bir-birinizdən necə fərqlənirsiniz?

Şagirdlərin cavabları (əlamətlər) lövhəyə qeyd edilə bilər.

**FƏALİYYƏT** Şagirdlər fəaliyyəti yerinə yetirdikdən sonra müzakirə təşkil etmək məqsədəuyğundur. Bu zaman şagirdlərin diqqəti eyni bədən hissələrinin fərqli rənglə boyadılmasına yönəldilir.

**ÖYRƏNMƏ** Dərslikdə mövzu üzrə verilmiş qısa məlumat şərh olunur: bütün insanların eyniadlı hissələri ümumi görünüşünə görə oxşardır. İnsanlar boylarının ölçüsünə, saçlarının, dərilərinin və gözlərinin rənginə, burnunun, qulaqlarının və çənələrinin formasına görə bir-birindən fərqlənirlər. Buna baxmayaraq bütün insanların eyniadlı bədən hissələri oxşardır, amma bir-birinin eynisi olan insan,

demək olar ki, yoxdur. Eyni ailənin üzvləri bir-birinə oxşasalar da, fərqlənirlər. Müəllim əkiz insanlar barədə məlumat verə bilər.

**Müəllimin nəzərinə!** Mövzunun fiziki qüsurlu şagirdlər üçün həssaslığını nəzərə alaraq izahat zamanı belə şagirdlərə toxunan məsələlərə maksimum diqqət yetirmək lazımdır. İnklüzivlik nəzərə alınmalıdır.

**TAPŞIRIQ** Verilmiş şəkil üzrə müqayisəli təhlil aparılır. Müəllim müxtəlif şəkillər də göstərə bilər. Şagirdlər bu qənaətə gəlirlər ki, bütün insanlarda uyğun bədən üzvləri bir-birinə oxşasa da, hər biri müxtəlif əlamətlərə görə (rəng, forma və ölçü) fərqlənir.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:

- Ailə üzvləriniz arasında hansı üç oxşar və üç fərqli əlaməti qeyd edə bilərsiniz? Siz ailədə kimə bənzəyirsiniz? Hansı əlamətlərə görə?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Nümunə əsasında iki insan arasındakı oxşar və fərqli cəhətləri sadalayır. | Fəaliyyət |
| Fərqli insanlarda eyniadlı bədən hissələrinin fərqli cəhətlərini müəyyən edir. | Tapşırıq, sual-cavab |

## Mövzu 10. Bədənimizi necə təmiz saxlayaq

**Dərslik:** səh. 28 • **İş dəftəri:** səh. 22

| | |
|---|---|
| **Altstandartlar** | 2.1.1. Gigiyena qaydalarına əməl etməyin insan sağlamlığının qorunmasındakı əhəmiyyətini təsvir edir.<br>2.1.3. Gün ərzində görəcəyi işləri sadə şəkildə planlaşdırır. |
| **Köməkçi vasitələr** | Fəaliyyət üçün vasitələr, poster, animasiya |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Dişlərin təmizliyi.
**2. Fəaliyyət.** Təmizlik.
**3. Öyrənmə.** Təmizliyin sağlamlıq üçün əhəmiyyəti.
**4. Tapşırıq.** Dərslik: tap. №1,2. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərin diqqətini mövzuya yönəltmək və onların mövzu üzrə ilkin biliklərini yoxlamaq məqsədilə dərslikdə verilmiş suallar ətrafında müzakirə təşkil etmək olar. Şagirdlərin sualları cavablandırarkən fikirlərini sərbəst ifadə etmələrinə, gündəlik həyatlarından nümunələr gətirməklə fikirlərini əsaslandırmalarına şərait yaratmaq lazımdır.

**FƏALİYYƏT** Şagirdlər təmizlik vasitələri ilə istifadə məqsədləri arasında əlaqə qururlar. Təmizlik vasitələrinin bizim təmizliyimizdə rolunu müəyyənləşdirmək üçün viktorina keçirmək olar. Müəllim təmizlik vasitəsinin adını söyləyir, uşaqlar isə ondan hansı məqsədlə istifadə edildiyini söyləyirlər. Məsələn, sabun – əllərimiz çirklənəndə, çimməndə, yeməkdən əvvəl və sonra əlimizi yumaq üçün istifadə edirik. Viktorinanı bu tərzdə də keçirmək olar. Müəllim hər hansı bir situasiya söyləyir, şagirdlər isə hansı vasitədən istifadə etmək lazım olduğunu deyirlər. Məsələn, paltarınız çirkə bulaşıb – su, sabun, şotka ilə təmizləmək olar.

**ÖYRƏNMƏ** Təmizliyin əhəmiyyəti və buna nail olmaq üçün hansı vasitələrdən və necə istifadə olunduğu barədə məlumat verilir. Texniki imkanları olan siniflərdə videomaterial nümayiş etdirmək olar: *https://m.youtube.com/watch?v=M8cnzSypxXY*

Müzakirə mərhələsində suallar ətrafında fikir mübadiləsi nəticəsində şagirdlər təmizliyin vacibliyini, həyatımız üçün əhəmiyyətini nümunələrlə əsaslandırırlar.

Şagirdlərin tənqidi təfəkkürünün inkişafına yönəlmiş ziddiyyətli suallardan da istifadə oluna bilər. Məsələn: "Əl və ayaq dırnaqlarını kəsməsək, nə baş verər?", "Yeməkdən əvvəl əllərimizi yumasaq, nə olar?"

**TAPŞIRIQ** Tapşırıq vasitəsilə şagirdlər təmizlik vasitələrinin təyinatına uyğun istifadəsi ilə bağlı biliklərini nümayiş etdirirlər. Tapşırıq rollu oyunla da yerinə yetirilə bilər. Bunun üçün təmizlik vasitələrinin özləri, yaxud modelləri verilir. Şagirdlərdən biri lövhə qarşısına dəvət olunur və ona vasitələrdən biri verilir. Şagird bu vasitə ilə nə etmək mümkün olduğunu nümayiş etdirir. Məsələn, sabunla əlini yuyur, daraqla saçını darayır və s.

2. Uyğun sözlər boşluqlara yazılır.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:

• Çimməsəniz, nə olardı? Siz hansı günlər çimirsiniz? İnsanlar yayda daha çox çimirlər, yoxsa qışda? Sizcə, bunun səbəbi nədir?

• Bədən təmizliyinin faydası nədir? Biz çirkli əllərimizlə yemək yesək, uzun müddət yuyunmasaq, dişlərimizi təmizləməsək, nə baş verər?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Təmizliyi və təmizlik vasitələrini əlaqələndirir. | Fəaliyyət |
| Təmizlik vasitələrinin təyinatına uyğun istifadəsini göstərir. | Tapşırıq |
| Ziddiyyətli yanaşma ilə təmizliyin vacibliyini izah edir. | Sual-cavab, tapşırıq |

## Mövzu 11. Sağlam qidalanma

**Dərslik:** səh.31 • **İş dəftəri:** səh. 24

| | |
|---|---|
| **Altstandartlar** | 2.1.2. Sağlam qidalanmanın insan sağlamlığının qorunmasındakı əhəmiyyətini izah edir.<br>2.1.3. Gün ərzində görəcəyi işləri sadə şəkildə planlaşdırır. |
| **Köməkçi vasitələr** | Müxtəlif qidaları göstərən poster, qida model və mulyajları |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Qida növləri.
**2. Fəaliyyət.** Yemək süfrəsi.
**3. Öyrənmə.** Düzgün qidalanma.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Dərslikdə verilmiş sualı bir qədər də genişləndirib müzakirə təşkil etmək məqsədəuyğundur. Məsələn:

– Səhər, günorta və axşam saatlarında hansı qidalardan istifadə edirsiniz? İnsan yeməsə, nə baş verər? Ananız evdəki ərzaqlardan yeməyi necə hazırlayır? Siz hər hansı bir yemək hazırlaya bilərsinizmi?

**FƏALİYYƏT** Şagirdlər yemək süfrəsi hazırlamaqla hansı qidalara daha çox üstünlük verdiklərini, qidaları müvafiq zamana görə qruplaşdırmaqla isə qidalanma rejiminə düzgün riayət etdiklərini göstərirlər. Müəllim rollu oyun təşkil edə bilər. Bu zaman şagirdlərdən biri "aşpaz", digəri isə "sifarişçi" olur. Sifarişçi yaxınlaşıb hansı yeməyi yemək istədiyini "sifariş" edir. "Aşpaz" isə uyğun ərzaq mulyajlarından, yaxud onların şəkillərindən istifadə etməklə həmin yeməyi "hazırlayır".

**ÖYRƏNMƏ** Şagirdlər öyrənmə mərhələsində mənimsəyirlər ki, qida əsas enerji mənbəyidir. Həmçinin müxtəlif növ qidalardan lazımi qədər və vaxtında istifadə etmək sağlamlığa çox vacibdir.

Qidaların şərti olaraq aşağıdakı kimi qruplaşdırılması şagirdlərin mövzu üzrə bilikləri daha asan mənimsəməsinə kömək edər:
• daha çox enerji mənbəyi olan qidalar;
• böyümək üçün vacib olan qidalar;
• xəstəliklərə qarşı dözümlülüyü təmin edən qidalar;
• sağlamlıq üçün zərərli qidalar.

Dərslikdə qidalar haqqında verilmiş məlumatlar nümunələrlə şagirdlərə izah edilir. Şagirdlərdən hansı qidanı daha çox sevdiklərini və onlardan gün ərzində necə istifadə etdiklərini soruşmaq məqsədəuyğundur. Faydalı olsa belə, eyni qidadan çox istifadə edilməsinin sağlamlığa zərər verdiyi vurğulanmalıdır. Sağlamlıq üçün vacib olan amillərdən biri də günlük istifadə olunan qidaların müxtəlifliyinə və vaxt bölgüsünə diqqətin yetirilməsidir. Məsələn, su, çörək, ət və meyvə kimi müxtəlif təyinatlı qidaların münasib vaxtda istifadə olunması vacibdir. Həmçinin şagirdlərin diqqətinə çatdırmaq lazımdır ki, gün ərzində sudan istifadə sağlam qidalanmanın əsas tələblərindəndir.

Sağlam qidalanmada diqqət yetirilməsi vacib məsələlərdən biri də sağlamlığa zərərli olan qidalardır ki, bu qidalara da uşaqlar daha çox meyil edirlər. Məsələn, çips, jelibon, konfetlər və qazlı içkilər kimi məhsullar sağlam olmayan qidalardır. Bu qidalardan istifadəni azaltmaq üçün şagirdlərin diqqətini həmin qidaların sağlamlığa vura biləcəyi zərərlərə yönəltmək olar. Məsələn, konfetdən çox istifadə edilməsi dişlərin ağrımasına və vaxtından tez xarab olmasına səbəb ola bilər. Dərslikdə verilmiş suallar ətrafında müzakirələr təşkil olunur. Müəllim əlavə suallar verə bilər. Məsələn: "Qidalardan düzgün istifadə edilməməsi sağlamlığa necə zərər vura bilər?"

**TAPŞIRIQ** Bu tapşırıq mövzu üzrə biliklərin möhkəmləndirilməsi ilə yanaşı, şagirdlərdə qruplaşdırma, təhlil, müqayisə və tətbiqetmə bacarığının inkişaf etdirilməsinə yönəlmişdir. Tapşırıq əyani şəkildə qrup işi kimi də yerinə yetirilə bilər.

**Qrup işi.** Müəllim hər qrupa müxtəlif qida şəkilləri və iki zərf paylayır. Zərfin birinin üzərinə FAYDALI QİDALAR, digərinə isə ZƏRƏRLİ QİDALAR sözləri yazılır. Müəyyən vaxt ərzində qruplar qida şəkillərini uyğun zərflərin içinə qoyur. Vaxt bitdikdən sonra qrup nümayəndəsi seçimlərini əsaslandırır.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil etmək olar:
• Əgər dostunuz xəstələnsə, ona hansı qidaları tövsiyə edərsiniz? Siz xəstələnəndə evdə sizə yeməyə və içməyə nə verirlər? Bu yeməklər bizə nə üçün lazımdır?
• Səhər yeməyində hansı qidalardan istifadə etmək daha faydalıdır? Niyə müxtəlif növ qidalardan istifadə etməliyik?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Öz süfrəsini təyinatına uyğun formalaşdırır. | Fəaliyyət |
| Qidaları faydalı və zərərli olaraq qruplaşdırır. | Tapşırıq, qrup işi |
| Qidalardan düzgün və təyinatına uyğun istifadəni izah edir. | Sual-cavab, tapşırıq |

## 3-cü BÖLMƏ

## İnsanlar və əşyalar

| Mövzu № | Adı | | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|---|
| Mövzu 12 | Dillər | | 1 | 36 | 27 |
| Mövzu 13 | Dinlər | | 1 | 38 | 29 |
| Mövzu 14 | Mən və yoldaşlarım | | 2 | 40 | 31 |
| Mövzu 15 | Evdəki əşyalarımız | | 1 | 43 | 33 |
| Mövzu 16 | Əşyalar nədən hazırlanır | | 1 | 45 | 35 |
| Mövzu 17 | Materialların xassələri | | 1 | 47 | 37 |
| Mövzu 18 | Əşyaların hərəkəti | | 1 | 50 | 39 |
| Mövzu 19 | Evimizdəki avadanlıqlar | | 1 | 52 | 41 |
| | **CƏMİ** | | **9** | | |

**Bölmənin qısa icmalı**

Bölmə elmi və sosial yönümlü mövzuları əhatə edir.

"Dillər" və "Dinlər" ölkəmiz üçün daim aktual mövzular olub cəmiyyətdəki fərqlilikləri və bu fərqliliklərə hörmətlə yanaşmanı nəzərdə tutan təlim nəticələrinin reallaşdırılmasına yönəlmişdir.

Ölkəmizdə qədim zamanlardan fərqli dillərdə danışan, ayrı-ayrı dinlərə etiqad edən çoxsaylı xalqlar və etnik qruplar sülh və əmin-amanlıq, dinclik və bərabərlik şəraitində yaşamışlar. Azərbaycan cəmiyyəti müxtəlifliyə dözümlü mühiti və multikultural şəraiti ümumbəşəri dəyər kimi əsrlərlə qoruyub saxlamışdır. Bu ənənə günümüzdə də davam edir. Uşaqlar erkən yaş dövrlərindən böyüklərin fərqli dinlərə, mədəniyyətlərə tolerant və hörmətyönlü münasibətini uyğun davranış modeli kimi qəbul edirlər. Ailədə başlayan iş məktəbdə davam etdirilir. Məktəb təhsili dinlərə tolerant yanaşmağın vacibliyini aşılayır, həmçinin şagirdlərin ana dilini sevməsi ilə yanaşı, başqa dillərin də öyrənilməsini təşviq edir.

"Mən və yoldaşlarım" mövzusu komanda işi, əməkdaşlıq, bölüşmək kimi vacib sosial bacarıqların formalaşdırılmasını nəzərdə tutur.

Komanda işi (həmçinin qruplarda iş, birgə öyrənmə, mütəhərrik oyunların təşkili və ya başqaları ilə işləmək kimi də tanınır) liderlik, səmərəli qarşılıqlı əlaqə qurmaq, əməkdaşlıq, dəstək olmaq və münaqişələri konstruktiv şəkildə həll etmək kimi sosial bacarıqların formalaşdırılmasına müsbət təsir edir. Nəticədə şagirdlərdə sosial zəkanın inkişafı təmin olunur.

"Evdəki əşyalarımız" mövzusu sosial yönümlüdür və uşağın özünə aid əşyalardan səliqəli istifadə etmək və öz əşyalarını, oyuncaqlarını səliqəli toplamaq kimi vərdişinin formalaşmasına istiqamətlənmişdir.

"Əşyalar nədən hazırlanır" və "Materialların xassələri" mövzuları kimya sahəsində elmi biliklərin əldə edilməsində ilk addımlardır. "Əşyaların hərəkəti" mövzusu isə şagirdlərdə fizika elmi ilə bağlı bəzi anlayışlar barədə təsəvvür yaradır. Bu dərslərdə tədqiqat əsaslı öyrənmənin təməli qoyulur.




"Evimizdəki avadanlıqlar" mövzusu şagirdlərin sağlamlıq üçün təhlükə törədə bilən məişət cihaz və alətlərini tanıması və istifadə profillərini bilməsini nəzərdə tutur.

**Bölməyə giriş**. Əvvəlki bölmədə keçilən "Oxşarlıq və fərqlilik" mövzusuna istinad edərək suallar vermək olar. Məsələn:

– İnsanlar bir-birindən hansı əlamətləri ilə fərqlənirlər?

Suala cavab olaraq şagirdlər keçmiş biliklərinə əsasən fiziki fərqləri sadalaya bilərlər. Müəllim onları dinləyərək qeyd edə bilər ki, bunlar insanların gözlə görünən əlamətləridir, ancaq insanları fərqləndirən gözlə görünməyən əlamətlər də var. Bundan sonra insanların danışdığı dil və etiqad etdiyi dinə görə fərqlənməsi haqqında məlumat vermək olar.

# Mövzu 12. Dillər

**• Dərslik:** səh. 36 **• İş dəftəri:** səh. 27

| | |
|---|---|
| **Altstandartlar** | 4.6.1. İnsanları fərqləndirir. |
| **Köməkçi vasitələr** | Məktəbli ləvazimatları, marker, rəngli kartlar, rəqəm, əşya və obyekt təsviri olan şəkillər |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Xarici dillərdə salamlaşmaq.
**2. Fəaliyyət.** Dillər.
**3. Öyrənmə.** Dilin ünsiyyət vasitəsi kimi vacibliyi.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-4.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**
**7. Dərsdən sonra**. Valideynlə söhbət.

**CƏLBETMƏ** Müəllim şagirdlərin bilmədikləri xarici dillərin birində bəzi fikirlər səsləndirir. Bunu xarici dil müəllimini sinfə dəvət etməklə, yaxud mobil telefondan səsləndirməklə də həyata keçirmək olar. Müəllim şagirdlərdən səslənən fikirlərin mənasını soruşur. Şagirdlər cavab verə bilmədikdə bəzi sözlərin mənasını izah edə bilər. Müəllim sinfə belə suallar verə bilər:

– Biz səslənən bu fikirlərin hamısını nə üçün başa düşə bilmirik? Bu fikirləri başa düşüb onu səsləndirən insanlarla danışmaq üçün bizə hansı bacarıqlar lazımdır?

Şagirdlərin diqqəti dərslikdə mövzunun əvvəlində lövhədə yazılan sözlərə yönəldilir.

– Bu sözlərin mənası nədir? Bu sözlər nə üçün fərqli yazılır və fərqli səslənir?




Birinci suala şagirdlərin mümkün cavablarından ən uyğunu *"salamlaşma"* olacaq. Növbəti *"Bu sözlər nə üçün fərqli yazılır və fərqli səslənir?"* sualına isə *"ayrı-ayrı dillərdə olduğu üçün"* cavabı verilə bilər. Sonra "Salam" sözünün müxtəlif dillərdə səslənməsini bu linklərdən istifadə etməklə təqdim etmək olar:
*https://www.youtube.com/watch?v=1f4ATIuNg5Y*
*https://www.youtube.com/watch?v=472AnCrHYVs*

**FƏALİYYƏT** Şagirdlər məktəbdə bir və ya bir neçə xarici dil öyrənirlər. Müəllim şagirdlərin daha hansı xarici dil bildiklərini müəyyən etmək üçün oyun təklif edə bilər.

**Oyun. "Kim daha çox əşya sayar?"** Oyunun qaydaları izah edilir. Şagirdlər çantalarındakı və ya ətrafındakı əşyaları bildikləri xarici dillərdə səsləndirirlər. Daha çox əşya adı sayan qalib gəlir. Oyun qrup və ya cütlərdə təşkil oluna bilər.

Yekunda hansı dillərin səsləndiyi sadalanır. Müəllim qalibləri elan edir və rəngli kartlarla mükafatlandırır.

**ÖYRƏNMƏ** Dərslikdə verilmiş mətndə ünsiyyət vasitəsi olan dilin insanlar arasında fikirlərin bir-biri ilə paylaşılmasından bəhs edilir. Ölkəmizdə müxtəlif millətlərin nümayəndələrinin bir yerdə dinc, mehriban, yanaşı yaşaması və bunun qarşılıqlı hörmət sayəsində mümkünlüyü qeyd olunur. Onların çoxu öz dillərində danışsalar da, bir-birimizi başa düşmək üçün dövlət dilimiz olan Azərbaycan dilində danışırıq. Sinifdə azsaylı xalqların nümayəndələri varsa, onlardan öz dillərində bir neçə söz deməyi xahiş etmək olar.

Müzakirə sualları mövzunun daha dərindən öyrənilməsinə geniş imkan yaradır:

– Dilin insanlar üçün əhəmiyyəti nədir?

Sualın məqsədi dilin ünsiyyət vasitəsi olmasına, düşüncə və zəkanın göstəricisi kimi əhəmiyyətinin açılmasına yönəlmişdir. Müəllim əlavə suallar da verə bilər:

– Daha çox xarici dil bilən insanların hansı üstünlükləri ola bilər? Bu insanları necə adlandırırlar? *(poliqlot)* Siz hansı xarici dilləri bilmək istərdiniz? Nə üçün bu dilləri seçdiniz?

Müəllim şagirdlərin diqqətini ikinci sula yönəldir:

– Fərqli dildə danışan insanla necə ünsiyyət qurarsınız?

Bu sualı müzakirə etməzdən əvvəl rollu oyun təklif etmək olar. Bunun üçün iki şagird seçilir və onlara bir-birinin dilini bilməyən iki xarici vətəndaş olduqları barədə təlimat verilir. Şagirdlərdən biri digərinin yaşı, neçənci sinifdə oxuması, harada yaşaması ilə bağlı suallar verir. Digər şagird isə onun dilində danışa bilmədiyi üçün işarə, jest və mimikalarla fikrini izah etməyə çalışır.

Bu rollu oyun vasitəsilə şagirdlər ünsiyyətdə qeyri-verbal kommunikasiyanın roluna toxunur, fikri şifahi nitqdən istifadə etmədən çatdırmağın mümkünlüyü, işarə, jest və mimikaların da bir “dil” olması qənaətinə gəlirlər.

**TAPŞIRIQ** Öyrənilən mövzunun möhkəmlənməsi dərslikdə verilmiş “Boşluqlara uyğun sözləri yazın” tapşırığı ilə yerinə yetirilir. Dərslikdə verilmiş tapşırıqlarla yanaşı, şagirdlərə əlavə əyləncəli, inkişafetdirici və öyrədici tapşırıqlar verilə bilər. Lövhəyə şəkillər yapışdırılır. Rəqəm, əşya və obyekt təsvir olunmuş hər bir şəklin yanında şagirdlər növbə ilə lövhəyə yaxınlaşıb bildikləri fərqli dillərdə şəkildə olan təsvirin adını yazırlar. Təsvirin adını yazmaqda çətinlik çəkən şagirdlər müəllimin köməyindən istifadə edə bilərlər. Yekunda hansı təsvirlərin yanında daha çox fərqli dillər qeyd olunduğu müəyyənləşdirilir. Digər bir tapşırıq isə şifahi aparıla bilər. Müəllim hər hansı xarici dildə sözü səsləndirir, şagirdlər isə bu sözün hansı dildə olduğunu tapırlar.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə onların bildikləri xarici dildə əşyaları, sözləri səsləndirməyi təklif etmək olar.

*Dərinləşdirmə.* Eyni xarici dildə danışmağı bacaran iki şagirdə qısa ünsiyyət qurmağı təklif etmək olar.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

• Dil nə üçün ünsiyyət vasitəsi hesab olunur? İnsanlar dil vasitəsilə hansı hisslərini ifadə edirlər? Çox dil bilməyin insana faydası nədir? Yeni dil öyrənmək üçün nə edərdiniz?

• Fərqli dildə danışan insanlar bir-birinin dilinə nə üçün hörmətlə yanaşmalıdırlar? İnsanlar nə üçün fərqli dillərdə danışırlar? İnsanın öz ana dilinə münasibəti necə olmalıdır?

**DƏRSDƏN SONRA** Valideynlərlə iş təşkil olunur. Növbəti dərsdə şagirdlərin valideynləri ilə söhbətinin nəticəsi qısa müzakirə oluna bilər. Bu fəaliyyət ana dilinin əhəmiyyətini anlamaq baxımından faydalıdır.

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Ətrafında gördükləri əşya və obyektləri müxtəlif dillərdə səsləndirir. | Fəaliyyət |
| Dili ünsiyyət vasitəsi kimi izah edir. | Sual-cavab, rollu oyun |
| Fərqli dillərdə danışan müxtəlif millətlərin nümayəndələrinə hörmətlə yanaşmağın səbəbini sadə sözlərlə izah edir. | Tapşırıq |

# Mövzu 13. Dinlər

**• Dərslik:** səh. 38 **• İş dəftəri:** səh. 29

| **Altstandartlar** | 4.6.2.Təsvirlərdə dini simvolları fərqləndirir. |
|---|---|
| **Köməkçi vasitələr** | Azərbaycanın tarixi və müasir tikililər (Qız qalası, Şəki xan sarayı, məscid, dərs keçən sinfin yerləşdiyi məkana məxsus tarixi və müasir tikililər, kilsə və sinaqoq) əks olunmuş şəkillər, ulduz formasında kartlar, rəngli kağızlar, üçbucaq, kvadrat, rəngli kağız və ya kartondan dairə formasında kəsilmiş fiqurlar, qayçı, yapışqan, yapışqanlı rəngli kağız |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Hansı dinləri tanıyırsınız?
**2. Fəaliyyət.** Dini simvollar.
**3. Öyrənmə**. Əxlaqi, mənəvi dəyərlər.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərin diqqətini mövzuya yönəltmək və onların mövzu üzrə ilkin biliklərini yoxlamaq məqsədilə oyun keçirilir.
**Oyun. "Tap görək".** Oyunun qaydaları izah edilir. Şagirdlərə bir-bir Azərbaycanın tarixi və müasir tikililəri əks olunmuş şəkillər göstərilir. Şəkillərdə Qız qalası, Şəki xan sarayı, məscid, kilsə, sinaqoq və şagirdlərin yaşadıqları ərazilərə aid müxtəlif tikililər əks oluna bilər.
Şəkildə təsvir olunan tikilinin və ya abidənin adını birinci deyən şagird qalib olur. Həmin şagird tikili və ya abidə haqqında sadə və qısa izah da verə bilər. Şagird tikilinin və ya abidənin adını deyir, lakin həmin obyekt haqqında məlumat verə bilmirsə, müəllim sinfə müraciət edir. Məlumatı olan şagirdlərin izahı dinlənilir. İzahlar sadə verilə bilər. Əgər şagirdlərin həmin obyekt haqqında məlumatı yoxdursa, müəllim tikili və ya abidənin yerləşdiyi məkan, hansı məqsədlə inşa olunduğu haqqında sadə və qısa izah verir. Müəllim şagirdlərin diqqətini daha çox dini memarlıq abidələrinə yönəldir.
Oyun bu qayda ilə müəllimin masasında olan şəkillər qurtarana qədər davam edir. Oyunda qalib olan və izahı ilə fərqlənən şagirdlər rəğbətləndirilir.
**Müəllim üçün əlavə məlumat**. Fərqli dillər, fərqli xalqlar olduğu kimi, dinlər də müxtəlifdir. Din insanlara Allaha ibadət etməyin yollarını izah edir, böyüyə hörmət, gücsüzə mərhəmət hissləri aşılayır.
Azərbaycanda islam, xristian, yəhudi dinlərinə mənsub insanlar yaşayırlar. Xristianlar kilsədə, yəhudilər sinaqoqda, müsəlmanlar isə məsciddə Allaha ibadət edirlər.
Müəllim sonra kilsə, məscid və sinaqoq şəkillərini lövhədən asıb sinfə suallar verir:
– Şəkillərdə hansı simvolları görürsünüz?
Şagirdlərin cavablarına uyğun olaraq müəllim onların diqqətini dərslikdə verilmiş şəkillərə yönəldə bilər.
Dini azlıqların kompakt yaşadığı ərazilərdə əhalinin etiqad etdiyi dinlər barədə həmin ərazidə yaşayan şagirdlər məlumatlı ola bilərlər. İslam dini respublikamızda böyük əksəriyyətin etiqad etdiyi din olduğuna görə şagirdlərin içərisində daha çox bu dinlə bağlı təsəvvürlərin olması mümkündür. Şagirdlərin əvvəlki dərslərdə müxtəliflik haqqında öyrəndiklərini yada salıb insanların etiqad etdiyi dinə görə də fərqləndiyini onların diqqətinə çatdırmaq olar. Bəzi şagirdlərin tanışları arasında müxtəlif dinlərə etiqad edən şəxslər ola bilər. Həmin şagirdlərdən bu insanlar, onların adət-ənənələri barədə bildikləri məlumatları bölüşməyi xahiş etmək olar.

**FƏALİYYƏT** Şagirdlər üç böyük qrupa bölünürlər. Hər bir qrupa fərqli simvolların şəkli verilir və rəngli kağızlardan, masalarının üzərindəki üçbucaq, kvadrat, dairə formasında kəsilmiş həndəsi fiqurlardan istifadə etməklə onlara təqdim olunan dini simvolu hazırlamaq tapşırılır. Simvolu hazırlayan qrup həmin simvol haqqında məlumat verir. Məlumatda təqdim edilən simvolun hansı dinə aid olması, həmin dinə etiqad edənlərin ibadət etdiyi məkanın adı qeyd olunmalıdır. Fəaliyyətin yerinə yetirilməsinə görə qruplar rəğbətləndirilir və onlara ulduz formasında kartlar verilir.



**ÖYRƏNMƏ** Mətndə dinlərin müxtəlifliyi, ölkəmizin çoxdinli olması, insanlarda əxlaqi, mənəvi dəyərlər formalaşdırması, dini etiqadı fərqli olan insanların dinc, yanaşı yaşaması və onların bir-birinin dininə hörmətlə yanaşmasına dair məsələlər yer alır. Dinlərin insanları xeyirxah, dürüst, elmli, təhsilli olmağa səsləməsi də mətndə qeyd olunmuşdur.

Müzakirə sualı səsləndirilir və bütün siniflə müzakirə aparılır. Şagirdlərin cavabı onlarda dinlər haqqında ilkin təsəvvürləri müəyyən etməyə imkan verir. Müzakirə zamanı şagirdlərin fikirləri dinin insanları paklığa, bir-birinə hörmətə, elmli və təhsilli olmağa səslədiyinə yönəldilir.

Şagirdlərin verdikləri cavabları ümumiləşdirib dinlərin insanlara aşıladığı mənəvi keyfiyyətlərdən (mərhəmətli olmaq, insanları sevmək, böyüklərə hörmət, kiçiklərə qayğı göstərmək, xəstələri və yaşlıları ziyarət etmək) danışmaq, bu keyfiyyətlərin insanlar üçün faydalı olduğunu qeyd etmək olar. İnsanlar toplum halında yaşayırlar. Toplumda qayğıya, köməyə ehtiyacı olan insanlar var. Din belə insanlara yardım etməyi, onların ehtiyaclarını ödəməyi tövsiyə edir.

**TAPŞIRIQ** Dərslikdəki tapşırıq şəkil üzrə yerinə yetirilir. Verilmiş şəkilləri uyğun sözlərə xətlərlə birləşdirmək tapşırılır. Tapşırığı yerinə yetirərkən şagirdlər təsvirlərdəki simvollara diqqət yetirməli, əvvəlki fəaliyyətləri xatırlayaraq icra etməlidirlər.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə dini simvolların şəklini çəkmək və hansı dinə aid olduğunu qeyd etmək təklif oluna bilər.

*Dərinləşdirmə*. Şagirdlərə dinlərin insanlara aşıladığı mərhəmət və hörmət hissinin əhəmiyyəti haqqında danışmaq təklif oluna bilər.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

• Azərbaycanda hansı dinlər var? Din haqqında nə bilirsiniz? Məscid hansı dinin ibadətgahıdır? İnsanlar məscidə nə üçün gedirlər?

• İnsanlar bir-birinin dininə necə yanaşmalıdırlar? Ayrı-ayrı dinlərə inanmaq insanların birlikdə işləməsinə, təhsil almasına necə təsir edir? Azərbaycanda dini fərqli olan insanlar bir-birinə necə münasibət bəsləyirlər? Onlar mehriban davranmasalar, nə baş verər?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Simvolların hansı dinə aid olduğunu izah edir. | Fəaliyyət |
| Təsvirlərdə simvolları aid olduğu dinə görə fərqləndirir. | Tapşırıq |

# Mövzu 14. Mən və yoldaşlarım

**• Dərslik:** səh. 40 **• İş dəftəri:** səh. 31

| | |
|---|---|
| **Altstandartlar** | 4.1.3. “Kollektiv” anlayışını sadə şəkildə insanların birliyi kimi ifadə edir.<br>4.1.4. Kollektivin və ailənin fərdlərdən formalaşdığını izah edir.<br>4.1.9. Paylaşmaq duyğusunu nümayiş etdirir. |
| **Köməkçi vasitələr** | Konfet, şəkilli kartlar, rəngli karandaşlar, flomaster |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Birlikdə oynadığımız hansı oyunları bilirik?
**2. Fəaliyyət.** Komandalar yarışır.
**3. Öyrənmə**. Bölüşmək, paylaşmaq dəyəri.
**4. Tapşırıq.** Dərslik: tap. №1-3. İD: tap. №1-3.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərin diqqətini mövzuya yönləndirmək üçün onlarla oyun keçirilir.
**Oyun. “Konfet kimdədir?”** Oyunun qaydaları izah edilir.
6 şagird lövhə qarşısında üzü sinfə olmaqla bir sırada düzülür və əllərini arxada cütləşdirib ovuclarını açıq saxlayırlar. Qalan uşaqlar kiçik komandalara bölünürlər.
Müəllim əlində bir konfet tutub lövhə qarşısında dayanan uşaqlara arxadan bir-bir yaxınlaşır və özünü sanki onların ovcuna konfet qoyurmuş kimi göstərir. Konfeti isə komandaların görməməsi şərti ilə həmin uşaqlardan yalnız birinin ovcuna qoyur. Yerlərində əyləşən komandalar 3 cəhddən konfetin kimdə olduğunu tapmalıdır.
Müəllim əvvəlcə birinci komandaya konfetin kimdə olduğunu tapmağı tapşırır. Komanda nümayəndəsi konfetin olduğunu ehtimal etdiyi uşağa yaxınlaşır. Bu zaman müəllim “soyuq”, “buzlu” və “isti” sözlərindən istifadə etməklə ovcunda konfet olan uşağa nə qədər yaxın olduğuna işarə verir. 3 cəhddən konfeti tapan komanda qalib gəlir və müəllim həmin konfeti komandaya bağışlayır. Tapa bilmədikdə isə konfet onu ovcunda tutan şagirdə verilir.
Növbə başqa komandaya keçməzdən qabaq müəllim yenə lövhə qarşısında dayanan uşaqlara arxadan yaxınlaşaraq onlardan birinə yeni konfet verir. Beləcə, bütün komandalara konfeti tapmaq imkanı verilir. Oyunun sonunda müəllim sual verir:
– Bu oyunu təklikdə oynamaq olarmı?
Şagirdlərin bu suala cavabı “Xeyr!” olacaq. Sonra şagirdlərin diqqəti dərsliyin əvvəlində verilmiş şəklə yönəldilir. Hansı oyun olduğu və həmin oyunun qaydaları soruşulur.



Şəkildə “Gizlənpaç” oyunu təsvir olunub. Bu oyun uşaqlar arasında geniş yayıldığına görə şagirdlər sualı tez cavablandıracaqlar. Onlardan soruşulur:
– “Gizlənpaç” oyununu təklikdə oynamaq olarmı?
Şagirdlər bu suala da cavab olaraq “Xeyr!” deyəcəklər. Bu zaman müəllim “Nə üçün?” sualını verməklə onların komanda işini zəruri edən şərtlər barədə fikirlərini dəyərləndirə bilər.
– Siz birlikdə hansı oyunları oynayırsınız?
Bu sualın cavabı şagirdlərin komanda oyunlarına olan marağını müəyyən etməyə imkan verir. Şagirdlər oyunun adını söylədikcə müəllim həmin oyunun qaydaları barədə suallar verə bilər.
– Oyunu neçə nəfər oynaya bilər? Bu oyunu niyə sevirsiniz? Bu oyunu kimdən öyrənmisiniz?

**FƏALİYYƏT** Dərslikdəki fəaliyyət oyun formasındadır. Bu oyun şagirdlərin komanda kimi çıxış etmək bacarıqlarını nümayiş etdirir, hədəfə çatmaq üçün birgə fəaliyyətin əhəmiyyətini başa düşməyə imkan verir.

**ÖYRƏNMƏ** Mətn komandaların yaranmasını şərtləndirən amillər, komanda yaratmağın əhəmiyyəti və üzvlərinin komanda daxilində çalışa bilmələrinin əsas şərti – məlumatların bölüşdürülməsi və fəaliyyətlərin bir deyil, bir neçə nəfər tərəfindən yerinə yetirilməsi haqqındadır. Mətndə komanda işi sayəsində insanların bölüşmək, paylaşmaq bacarıqları qazanması da qeyd olunur.

– Komanda üzvləri bir-birinə necə kömək edirlər?

Şagirdlər müzakirə sualını cavablandırarkən onları şəxsi təcrübələrindən (məsələn, oynadıqları oyun zamanı) çıxış etməyə yönləndirmək məqsədəuyğundur. Sualın cavabı şagirdlərin birgə fəaliyyətə nə dərəcədə açıq olmalarının göstəricisi kimi dəyərləndirilə bilər.

– Komanda üzvləri bir-birinə nə üçün hörmətlə yanaşmalıdırlar?

Bu sualın cavabı şagirdlərdə əməkdaşlıq, ünsiyyət bacarıqları haqqında təsəvvür yarada bilər. Müzakirə nəticəsində onlar komandada işin uğurunun üzvlərin əməkdaşlıq bacarıqlarından asılı olduğu qənaətinə gəlməlidirlər. Üzvləri əməkdaşlıq etməyi bacarmayan komanda uğur qazanmır.

**Müəllim üçün əlavə məlumat**. Komanda işinin faydaları arasında bölüşmək bacarığının inkişafı da var. Paylaşmaq, bölüşmək vacib sosial bacarıq kimi qiymətləndirilir. Belə bacarığı olmayan fərdin sosial həyata inteqrasiyası mümkün deyil. Bu məqama xüsusi diqqət edərək bölüşmək bacarığını hər bir insan üçün lazım olan keyfiyyət kimi vurğulamaq vacibdir. Ailənin üzvləri ilə birgə bir komanda olması şagirdlərin diqqətinə çatdırılmalıdır. Nəzərə alınsa ki, illik planlaşdırmada "Mən və yoldaşlarım" mövzusu üçün 2 saat vaxt ayrılmışdır, növbəti dərsi bölüşmək bacarığından bəhs edən bir uşaq hekayəsinin oxusuna, yaxud da cizgi filminin baxışına həsr etmək məqsədəuyğundur. Texniki imkanları olan siniflərdə *https://portal.azertag.az/az/taxonomy/term/23?page=8* səhifəsindən müəllim tərəfindən əvvəlcədən komanda üzvlərinin uğurlu əməkdaşlığından bəhs edən seçilmiş hekayələr və ya *https://portal.azertag.az/az/node/26189* ("Daş paltar") nağılı oxuna bilər. Əlavə olaraq şagirdlər *https://www.youtube.com/watch?v=7oLiVQipoBQ* ("Əlcək" Ukrayna xalq nağılı) cizgi filmi izləyə bilərlər. Şagirdlər hekayəni oxuyub, cizgi filminə baxıb müzakirələr aparır və uyğun nəticələr çıxarırlar.

**TAPŞIRIQ** Dərslikdə verilmiş şəkillərdən yalnız biri komanda işinə aid deyil. Şagirdlər həmin şəkli seçib qırmızı rənglə işarə etməlidirlər. Bundan sonra veriləcək "Komanda işi təsvir olunan şəkilləri hansı əlamətlərə görə seçdiniz?", "Qırmızı rənglə işarə etdiyiniz şəkildəki fəaliyyəti niyə komanda işi hesab etmirsiniz?" sualları şagirdlərin mövzunu nə qədər mənimsədiklərinin göstəricisi olacaq.

Əlavə olaraq şagirdlərə ailə üzvləri ilə (ata, ana, baba, nənə, bacı və qardaşları) komanda olaraq oynadıqları oyunların adlarını yazmağı tapşırmaq olar.

**Diferensial təlim.**

*Dəstək***.** Şagirdlərə vərəqi iki hissəyə bölüb bir hissəyə oynadıqları fərdi oyunların, digər hissəyə isə komanda oyunlarının adını yazmaq təklif oluna bilər.

*Dərinləşdirmə.* Şagirdlərə komandada işləmək üçün lazım olan keyfiyyətləri sadalamaq təklif edilə bilər.

**Müəllim üçün əlavə məlumat.** Başqa insanlarla işləmək, "komanda oyunçusu" olmaq, mürəkkəb vəziyyətlərdən çıxmaq, təkcə özü üçün deyil, bütün komanda üçün məsuliyyət daşımaq müasir dövrün mühüm həyati bacarığıdır. Şagirdlərdə bu bacarığın formalaşmasında müəllimin üzərinə böyük məsuliyyət düşür. Səmərəli komanda işinin təşkili üçün aşağıdakı tövsiyələrin nəzərə alınması müəllimə kömək edə bilər.

**1. Qarışdırın, amma...** Uşaqları sinifdə yaxın əlaqələri olmayan şagirdlərlə işləməyə təşviq edin. Bununla belə, çalışın ki, güclü dominant xarakterli uşaqlar utancaq, özünə güvənməyən uşaqlarla bir qrupda olmasınlar.

**2. İşin şərtlərini izah edin!** Aydın və konkret addımları təsvir edib komandaları təlimatlandırın. Qruplara işin hər mərhələsini başa çatdırmaq üçün təxmini vaxtı səsləndirin və vaxtın idarə olunmasında onlara kömək edin.

**3. Uğurları qeyd edin!** Mükafatınız kiçik bir priz, şərti fəxri nişan ola bilər. Qeyri-sağlam rəqabətin qarşısını almaq üçün sinifdəki bütün uşaqlara iştiraklarına görə təşəkkürünüzü bildirin. Həmçinin yüksək

nəticələri olmayan komandanın üzvlərinə dəstəkləyici münasibətinizi nümayış etdirməyi unutmayın: “İş çətin olsa belə, siz sona qədər təslim olmadınız”, “Əminəm ki, gələn dəfə daha yaxşı alınacaq”.

**4. Əsas qaydaları təqdim edin!** “Hörmətlə yanaşmaq”, “Hər kəsə fikrini bildirmək üçün imkan vermək” və “Dostu səbirlə dinləmək” qaydalarına aid poster hazırlayıb divardan asmaq olar. Qaydaları uşaqlarla birgə hazırlasanız, onlar bu qaydaları mənimsəyərək şəxsi davranış normaları kimi həvəslə əməl edəcəklər.

**5. Həssas dil normalarına əməl edin!** Həssas dəstəkləyici dil üslubundan istifadə edin. “Hiss edirəm ki, bacararsan...” və “Sən nə düşünürsən?....” kimi özünəgüvən təşviq edən cümlələrdən istifadə edin. Bununla siz həm də şagirdlər üçün həssas, hörmətə əsaslanan ünsiyyət üslubundan istifadənin rol modeli olursunuz.

**6. Diqqətli müşahidəçi olun!** Fəal müdaxilə etməyərək qrupların işini izləyin. Məsləhətlər verməyə tələsməyin, ehtiyac olduqca istiqamətləndirici və düşündürücü suallar verin. Nümunə göstərmək üçün siz də şagirdlərinizin komandasına qoşula bilərsiniz.

**7. Yumoru unutmayın!** Sinif şəraitində komanda işini təşviq etməyin ən əlverişli yollarından biri onu əyləncəli etməkdir. İşi tamamlayaraq əl çalmaq işarəsindən istifadəni təklif edin. Uşaqların sərbəstliyi pozitiv ünsiyyətə və iş prosesində yaranan münaqişəni həll etməyə yol açır.

**8. İnklüzivliyi təmin edin!** Sinfinizdə dərslərdə mütəmadi (xəstəlik və ya digər səbəblərə görə) iştirak etməyən və ya davranış problemli şagirdlər ola bilər. Onları qrup fəaliyyətindən azad etməyə tələsməyin, düşünüb hansı formadasa birgə işə cəlb etməyə çalışın. Məktəb psixoloqu, yaxud valideynlərlə məsləhətləşib çıxış yolu tapa bilərsiniz!

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

• Komandada işləməyin komanda üzvü üçün faydası nədir? İnsanlar komandanı nə üçün yaradırlar? Komanda üzvü olmaq nə deməkdir? Komanda qaydaları necə müəyyən olunur? Komanda fəaliyyəti fərdi fəaliyyətdən necə fərqlənir?

• Komandanın işi nə zaman uğurlu alınır? Komandanın qələbəsi kimin qələbəsidir? Komanda üzvləri bir-biri ilə əməkdaşlıq etməsə, nə baş verər? Komanda üzvləri arasında münasibət necə olmalıdır?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| “Komanda” anlayışını ümumi işin məqsədinə xidmət edən insanların birliyi kimi izah edir. | Fəaliyyət |
| Komanda üzvlərinin rollarını sadə şəkildə şərh edir. | Tapşırıq, sual-cavab |
| Əşyalarını komanda yoldaşları ilə paylaşır. | Fəaliyyət, tapşırıq, sual-cavab |

## Mövzu 15. Evdəki əşyalarımız

**• Dərslik:** səh. 43 **• İş dəftəri:** səh. 33

| | |
|---|---|
| **Altstandartlar** | 4.1.7. Öz əşyalarını toplamaqla valideynlərinə kömək edir.<br>4.1.8. Özünə aid əşyalardan səliqəli istifadə edir. |
| **Köməkçi vasitələr** | Mövzuya dair şəkillər, kağızdan kəsilmiş ulduz |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Əşyaların yerinə yığılması.
**2. Fəaliyyət.** Səliqə yaradaq.
**3. Öyrənmə**. Səliqəli olmağın faydaları
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-3.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**
**7. Dərsdən sonra**. Valideynlə söhbət.

**CƏLBETMƏ** Tənəffüs zamanı qabaq partalardan birinin üzərindəki əşyaların yeri dəyişdirilir və nisbətən səliqəsiz hala gətirilir. Müəllim şagirdlərə müraciət edir.
– Gördüyünüz kimi, partanın üstündəki əşyalar olduqca səliqəsizdir. Sizcə, onu necə səliqəyə sala bilərik?
– Kim bu işdə mənə kömək edə bilər?
Şagirdlərin cavabları müxtəlif ola bilər. Müəllimə kömək etmək istəyən bir neçə şagird dəvət olunur.
Şagirdlər arasında əşyaların yerinə yığılması zamanı iş bölgüsü edilir. Sonra müəllim sinfə müəyyən suallar verir:
– Evdə əşyalarınızın yerini bilirsinizmi? Valideynlərinizə kömək edirsinizmi? Valideynlərinizə hansı işlərdə kömək edirsiniz?
Şagirdlərin diqqəti mövzu üzrə dərsliyin əvvəlində verilmiş şəklə yönəldilir.
– Uşaqlar nə edirlər?




Şagirdlər şəkildəki uşaqların oyuncaqlarını və paltarlarını səliqə ilə yığdıqlarını söyləyəcəklər. Müəllim şagirdlərdən onların bu fəaliyyəti barədə soruşa bilər:
– Necə düşünürsünüz, onlar əşyalarını özləri yığmalıdırlar? Nə üçün?
Böyük ehtimalla şagirdlər “Bəli” cavabı verəcək və valideynlərinə kömək etdiklərini söyləyəcəklər. Lakin bunun böyüklərə aid işlər olmasını söyləyənlər də ola bilər. Belə cavab qeydə alınarsa, müəllim həmin şagirdləri diqqətdə saxlamalı, dərsin sonunda suallar verməklə qənaətlərinin dəyişdiyinə əmin olmalıdır. Müəllim sinifdə əşyaların yerinə yığılmasını şagirdlərin şəkildə gördükləri ilə əlaqələndirə bilər: “Evdə hər gün çantanızı kim yığır?”, “Sinifdə çantanızı kim yığır?”
Şagirdlərin cavablarına görə müəllim növbəti müqayisəli suallar verə bilər: “Gecə paltarınızı kim geyindirir?”, “Məktəbdə üst geyiminizi kim geyindirir?”
**FƏALİYYƏT** Müəllim şagirdlərin evdə əşyalarının yerini necə bildiklərini müəyyənləşdirmək üçün oyun təklif edə bilər.
**Oyun. “Səliqə yaradaq”.** Müəllim sinfi qız və oğlan olmaqla iki komandaya bölür. Sonra qızlar “1, 2, 3, 4” saymaqla 4 komandaya ayrılır. Oğlanlar da həmçinin “1, 2, 3, 4” saymaqla uyğun saya görə qızların komandasına paylanır. Beləliklə 1 sayda olan qız və oğlanlar 1-ci komandanın, 2 sayda olan qız və oğlanlar 2-ci komandanın, 3 sayda olan qız və oğlanlar 3-cü komandanın və nəhayət, 4 sayda olan qız və oğlanlar 4-cü komandanın üzvləri kimi müəyyən olunurlar. Oyunun qaydaları izah edilir. Müəllim hər bir komandaya otaq təsvir olunmuş şəkil verir. Şəkillərdən birində yataq otağı, birində qonaq otağı, birində mətbəx, sonuncuda isə dəhliz var. Komandalara müxtəlif əşyalar təsvir olunmuş şəkil dəsti verilir. Komandalar əşyaları (şəkil kimi verilmiş dəst) onlara verilmiş otaqdakı (dəhlizdəki, mətbəxdəki) uyğun yerlərinə yerləşdirməlidirlər. Fəaliyyəti ən tez və düzgün bitirən komanda qalib olur. Qalib komanda kağızdan kəsilmiş ulduzla mükafatlandırılır.



Sonra şagirdlərin diqqəti dərslikdə verilmiş şəklə yönəldilir.
– Necə düşünürsünüz, bu otağı səliqəli hesab etmək olarmı?
Təbii ki, cavab “xeyr” olmalıdır, ancaq fərdi sorğuda “bəli” cavabı eşitmək də mümkündür. Belə hal yaranarsa, şagirddən otağı hansı xüsusiyyətlərinə görə səliqəli hesab etdiyini soruşmaq tövsiyə olunur.
**ÖYRƏNMƏ** Mətndə əsas diqqət özünə aid əşyaları hara gəldi atmamaq, istifadə etdikdən sonra onları yerinə qoymaq vərdişinə yönəldilir. Əşyaları uşağın özünün toplamasının faydasını qeyd etməklə bu vərdişin nə qədər gərəkli olduğu əsaslandırılır.
– Nə üçün əşyalarınızı səliqə ilə yığmalısınız?
Bu sualın cavabları mövzu ilə bağlı təlim nəticəsinin reallaşmasının göstəricisidir. Şagirdlər anlamalıdırlar ki, səliqə gözəl görüntü olmaqdan başqa, həm də insanlar üçün faydalıdır. Səliqə ilə

yığmaq əşyaların təzəliyini qorumağa kömək edir. Hər kəs özünə aid əşyaları yerinə özü yığarsa, axtaranda onları asanlıqla tapar.
Texniki imkanları olan siniflərdə səliqəli olmaqla, əşyalara qayğıkeş münasibət bəsləməklə bağlı cizgi filmləri nümayiş etdirilə bilər. Müəllimin vaxtdan səmərəli istifadə etməsi üçün dərsə hazırlaşarkən cizgi filminin mövzuya uyğun hissələrini seçməsi məqsədəuyğundur.
*https://www.youtube.com/watch?v=yGtW8lVAqT4&list=PL_hVaZnZgaWU-xwaPR_XpmiSIsHI_8P97&index=7* ("Oyuncaqlar da ağlayır" cizgi filmi)
*https://www.youtube.com/watch?v=DUfesswankU* ("Pinti Kamal" cizgi filmi)
Şagirdlər bu cür cizgi filmlərinə baxıb orada baş verənləri müzakirə edə, filmdəki hadisələrə, hərəkətlərə, personajlara tənqidi münasibətlərini ifadə edə bilərlər.

**TAPŞIRIQ** Öyrənilən mövzunun möhkəmləndirilməsi dərslikdə verilmiş tapşırıqla yerinə yetirilir. Şagirdlər şəkillər üzrə danışdıqdan sonra onlara sual vermək olar:
– Axşam yatağınızı kim açır? Səhər yatağınızı kim yığır? Ayaqqabılarınızı kim silir? Evdə kimə gördüyü işlərdə kömək etməyi sevirsiniz? Niyə?
Cavablardan asılı olaraq müəllim şagirdlərin evdə daha çox nəyə maraq göstərməsi, ailə üzvləri ilə qarşılıqlı münasibətləri barədə məlumat əldə edə bilər.

**Diferensial təlim.**
*Dəstək***.** Şagirdlərə evdə gördükləri işləri sadalamaq təklif oluna bilər.
*Dərinləşdirmə.* Şagirdlərə "Evdə valideynlərə nə üçün kömək etmək lazımdır?" mövzusu haqqında danışmaq təklif oluna bilər.
**Müəllim üçün əlavə məlumat.** Uşaq əməyi, adətən, "uşaqların istismarı" termini ilə eyniləşdirilir. Beynəlxalq Əmək Təşkilatının (BƏT) tərifinə görə, uşaq əməyinin heç də hamısı istismarçı hesab edilmir. Çünki evdə valideynlərinə kömək etmək uşağın inkişafında müsbət rol oynaya bilər. Uşağın ev işlərinə alışması yalnız evin təmiz qalması üçün yox, həm də uşağın ailə üzvlərinə münasibəti, şəxsi məsuliyyət daşıması və bir fərd kimi yetişməsi üçün də vacibdir. Bu baxımdan şagirdlərin evdə valideynlərinə köməyi, dərs keçdiyi sinifdə, yaşadığı həyətdə təmizliyi və səliqəni qorumağa yönəlmiş fəaliyyətləri təqdir olunmalıdır. Belə yanaşma onların ətrafdakı insanların əməyinə hörmət hissinin, ekoloji mədəniyyətinin və bir çox başqa sosial vərdişlərinin formalaşmasına da müsbət təsir göstərir.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:
- Əşyalarınızı səliqə ilə yığmağınız hansı işinizi asanlaşdırır? Evdə ən çox hansı əşyalardan istifadə edirsiniz? Axtardığınız əşyanı tapmayanda hansı hissləri keçirirsiniz?
- Valideynlərə kömək etməyiniz onlara necə təsir edir? Əşyalarınızı özünüz yerinə qoymayanda onları kim yığışdırmalı olur? Evdə kiçik bacı-qardaşlara oyuncaqlarını yığışdırmağı necə öyrətmək olar? Uşaqların özlərinə aid əşyaları səliqə ilə yerinə yığmaqlarının valideynlər üçün müsbət cəhəti nədir?

**DƏRSDƏN SONRA** Valideynlərlə iş təşkil olunur. Növbəti dərsdə şagirdlərdən valideynlərinə hansı ev işlərində kömək etdiklərini və daha hansı işlərdə kömək edə biləcəklərini soruşmaq olar.
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Otaqda əşyaların yerlərini müəyyən edir. | Fəaliyyət |
| Səliqəli olmağın faydasını izah edir. | Sual-cavab |
| Sadə ev işlərində valideynlərinə kömək edir. | Tapşırıq, sual-cavab |

# Mövzu 16. Əşyalar nədən hazırlanır

**• Dərslik:** səh.45 **• İş dəftəri:** səh.35

| | |
|---|---|
| **Altstandartlar** | 3.1.1. Ümumi materialları tanıyır. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, iş vərəqləri, şəkillər, kağızdan kəsilmiş ulduzlar |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Nədən hazırlanıb?
**2. Fəaliyyət.** Əşyalar.
**3. Öyrənmə.** Əşyaların hazırlandığı materialları tanıyaq.
**4. Tapşırıq.** Dərslik: tap. №1-2. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərin diqqətini mövzuya yönəltmək və onların mövzu üzrə ilkin biliklərini yoxlamaq məqsədilə siniflə oyun keçirilə bilər.

**Oyun. "Gözbağlıca".** Oyunun qaydaları izah edilir. Şagirdlərdən biri lövhə qarşısına dəvət olunur və gözü dəsmalla bağlanılır. O, əli ilə müxtəlif materiallardan hazırlanmış bir neçə əşyaya toxunur. Əşyanın nədən hazırlandığı soruşulur. Cavabı düz tapan şagird kağızdan kəsilmiş ulduzla mükafatlandırılır. Oyun bir neçə şagirdlə davam etdirilir. Növbəti şagirdə fərqli əşyalar təklif olunur.

Şagirdlərin diqqəti mövzu üzrə dərsliyin əvvəlində verilmiş şəklə yönəldilir. Müəllimin bu nümunələrə aid əşyaları nümayiş etdirməsi məqsədəuyğundur. Bu zaman müəllim bir neçə şagirddən bu əşyalara toxunmağı xahiş edir və onlardan bu əşyaların hansı materialdan hazırlandığını soruşur. Şagirdlər "rezin", "dəmir", "şüşə", "parça" və s. kimi cavablar verə bilərlər. Müəllim müzakirəni daha da genişləndirmək üçün bu maddələrdən daha nələr hazırlandığını soruşa bilər. Məsələn:

– Parçadan daha nələr hazırlanır? Rezindən hazırlanmış hansı əşyaları tanıyırsınız?

**FƏALİYYƏT** Fəaliyyət üçün nəzərdə tutulmuş tapşırıq qruplar üzrə oyun şəklində də yerinə yetirilə bilər.

**Oyun. "Kim daha çox tapdı?"** Oyunun qaydaları izah edilir. Şagirdlərə qutudan hərəyə bir kart götürmək təklif olunur. Kartlarda "Taxta", "Şüşə", "Plastik" və "Kağız" sözləri yazılır. Şagirdlər seçdikləri karta görə uyğun qruplarda birləşirlər. Yəni "Taxta" yazılmış kart seçənlər "Taxta" qrupuna, "Şüşə" yazılmış kart seçənlər "Şüşə" qrupuna, "Plastik" yazılmış kart seçənlər "Plastik" qrupuna və "Kağız" yazılmış kart seçənlər "Kağız" qrupuna ayrılır. Sonra hər qrupa aşağıdakı şəkildə cədvəl çəkilmiş iş vərəqi paylanır.

| Taxta | Şüşə | Plastik | Kağız |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

Qruplara verilmiş vaxt müddətində sinifdə olan bütün əşyaları müvafiq hesab etdikləri sütunda yazmaq tapşırılır. Qruplara nümunə verilə bilər. Məsələn: dəftər – kağız sütununa yazılır. Vaxt tamam olduqda qruplardan seçilmiş liderlər tapşırıqlarını səsləndirir. Tapşırığı tez və düzgün yerinə yetirən qrup qalib olur.

**Qeyd.** Sinfin səviyyəsinə görə tapşırıq üçün vaxt minimum 5, maksimum 8 dəqiqə müəyyən edilə bilər.

**ÖYRƏNMƏ** Mətndə əsas diqqət əşyaların müxtəlif materiallardan hazırlandığına yönəldilir. Şagirdlərin yaş səviyyəsi nəzərə alınaraq yalnız metal, plastik, şüşə, kağız, rezin və taxta materiallardan hazırlanmış əşyalar haqqında məlumat verilməsi tövsiyə olunur. Şagirdlərin gündəlik həyatlarında istifadə etdikləri əşyalar ətrafında müzakirə təşkil edilə bilər. Bunun üçün müxtəlif suallar vermək olar:

– Yemək yeyərkən hansı əşyalardan istifadə edirsiniz? Onlar hansı materialdan hazırlanıb?

– Məktəbli çantanızda hansı əşyalar var? Onların hansı materialdan hazırlandığını sadalaya bilərsiniz?
– Bir neçə materialdan hazırlanmış hansı əşyaları tanıyırsınız?
Müzakirənin gedişində istifadə edilən əşyaların hansı materialdan hazırlanmasının çox önəmli olması diqqətə çatdırılır. Şərh olunur ki, yemək zamanı istifadə olunan qaşıq, çəngəl və digər əşyalar kağızdan və ya parçadan hazırlana bilməz. Çünki onlar əyilər və ya islanar. Həmçinin istifadə etdiyimiz əşyalar bir neçə materialdan hazırlana bilər. Məsələn, velosipedin, şkafın, partanın hissələri müxtəlif materiallardan hazırlanır.

**TAPŞIRIQ** 1-ci tapşırıqda Azərbaycanın pul vahidlərindən manatlıqların kağızdan, qəpiklərin isə metaldan hazırlandığı şagirdlərin diqqətinə çatdırılır. Müəllim pul nümunələrini nümayiş etdirə bilər. Onlardan daha hansı ölkələrin pul vahidlərini gördükləri soruşulur. Əgər şagirdlər hər hansı bir ölkənin pul vahidlərini gördüklərini səsləndirərsə, bu zaman həmin ölkənin pul vahidlərinin də hansı materialdan hazırlandığı soruşula bilər.
2-ci tapşırıq vasitəsilə şagirdlərin mövzunu nə dərəcədə qavradıqları yoxlanıla bilər. Müxtəlif hissələri fərqli materiallardan hazırlanmış əşya təqdim etməklə bu tapşırıq uğurla yerinə yetirilər.




**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərə məktəbli çantalarındakı kağızdan hazırlanmış əşyaların siyahısını yazmaq təklif oluna bilər.
*Dərinləşdirmə.* Şagirdlərə müxtəlif hissələri fərqli materiallardan hazırlanmış bir əşyanın şəklini çəkmək və həmin hissələrin hansı materiallardan hazırlandığını qarşısında yazmaq tapşırıla bilər.
**Müəllim üçün əlavə məlumat.** Mövzunun məqsədi şagirdləri əşyaların hazırlandığı bəzi materiallarla tanış etməkdir. Verilən materialların üzərində fərqli nümunələr göstərməklə mövzunu dərinləşdirmək mümkündür. Əşyaları hazırlandıqları materiallarına görə qruplaşdırıb növbəti mövzu üçün zəmin hazırlamaq olar. Əlavə materiallarla mövzunu çətinləşdirmək tövsiyə olunmur. Növbəti mövzuda materialların xassələrindən bəhs ediləcək.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:
• Hansı materialları tanıyırsınız? Əşyaları hazırlayarkən onların materialları necə seçilir?
Şagirdlərin mövzuda öyrəndikləri biliklər ətrafında fikir mübadiləsi təşkil olunur. Sonra növbəti suallar verilir:
• Bu materiallardan hansı əşyalar hazırlanır? Kağızdan, metaldan, plastikdən hansı əşyalar hazırlanır? Rezin və taxtadan hazırlanmış hansı əşyaları tanıyırsınız?
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.
**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Materialları adlandırır. | Fəaliyyət |
| Əşyaları hazırlandıqları materiallara görə qruplaşdırır. | Fəaliyyət, sorğu-sual |
| Bir neçə materialdan hazırlanmış əşyaları fərqləndirir. | Tapşırıq, sorğu-sual |

# Mövzu 17. Materialların xassələri

**• Dərslik:** səh.47 **• İş dəftəri:** səh.37

| | |
|---|---|
| **Altstandartlar** | 3.1.2. Materialların bəzi xassələrini müəyyən edir. |
| **Köməkçi vasitələr** | Şəkillər, 2 ədəd su dolu qab, bir neçə kağız vərəq, corab, taxta xətkeş, qalın kəndir parçası, sellofan paket (plastik material), parça dəsmal, müəllim tərəfindən hazırlanmış sertifikat nümunəsi. |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Əşyaların materialları necə fərqlənir?
**2. Fəaliyyət.** Sukeçirən və sukeçirməyən materiallar.
**3. Öyrənmə**. Materialların xassələri haqqında.
**4. Tapşırıq.** Dərslik: tap. №1-3. İD: tap. №1-4.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədilə müəllim "auksion" oyunu keçirə bilər. Şagirdlərə auksionun keçirilmə qaydası haqqında məlumat verilir. Hər hansı bir materialın adı söylənilir. Şagirdlər də həmin materialın xüsusiyyətlərini ardıcıl şəkildə sadalayırlar. Hamı növbə ilə fikir bildirir. Hər fikirdən sonra müəllim "bir, iki..." sayır. "Üç" sayı deyilməmiş başqa bir şagird tez fikir bildirməlidir. Səslənən fikirlər bir-birini təkrarlamamalıdır. "Üç" sayı bitəndə materiala aid yeni xüsusiyyət səslənmirsə, sonuncu söyləyən şagird qalib olur. Məsələn: metal – bərk, ağır, parlaq, sukeçirməyən və s.
Sonra şagirdlərin diqqəti dərslikdə verilmiş şəkillərdə yatağın xüsusiyyətlərinə yönəldilir və suallar ətrafında müzakirə təşkil edilir.

**FƏALİYYƏT** Sukeçirən və sukeçirməyən materiallarla bağlı fəaliyyət müəllim tərəfindən dərslikdə verilmiş ardıcıllıqla yerinə yetirilir. Təcrübənin sonunda müəllim şagirdlərə aşağıdakı sualı verə bilər:
– Hansı kağız topası islanmışdı?
Cavab verməkdə çətinlik çəkən şagirdlərə hər iki kağız topasına toxunmaq imkanı verilir. Müəllim əlavə suallar verə bilər:
– Dəsmaldakı kağız topası niyə islanmışdır? Sellofan paketdəki kağız topası niyə islanmamışdır?
Şagirdləri bəzi maddələrin sukeçirən, bəzilərinin isə sukeçirməyən olması fikrinə istiqamətləndirmək məqsədəuyğundur.

**ÖYRƏNMƏ** Mövzunun öyrənmə mərhələsində əşyaların hazırlandığı materialların xassələri şəkillərdən ibarət nümunələr əsasında izah edilir. Bəzi materiallardan hazırlanmış əşyaların bərk və ya yumşaq, ağır və ya yüngül, parlaq və ya parlaq olmayan, bəzi materialların isə sukeçirən və ya sukeçirməyən olması diqqətə çatdırılır. Materialların xassələrinə görə bir-birindən fərqlənməsi şagirdlərə bir daha izah olunur. Materialların eyni zamanda bir neçə xassəsinin ola bilməsi də nümunələr əsasında vurğulanır. Məsələn, parça materialların yumşaq, yüngül və sukeçirən olması qeyd edilə bilər. Digər nümunə kimi kağızdan hazırlanmış əşyaların asanlıqla yanması izah oluna bilər. Odla təmasda olan əşyaların kağızdan və s.-dən hazırlanmamasının səbəbi qeyd edilə bilər. Metaldan hazırlanmış əşyaların yanmaya qarşı davamlı olması, bu səbəbdən də onlardan yemək bişirmək, su qaynatmaq məqsədilə əşyalar hazırlanması vurğulana bilər.
Müzakirə sualı səsləndirilir və bütün siniflə müzakirə aparılır. Şagirdlər mövzu üzrə öyrəndikləri, təcrübədə müşahidə etdikləri, əvvəlki dərsdə qazandıqları bilik və məlumatlar əsasında verilmiş suallara münasibət bildirir, müzakirə edirlər.

**TAPŞIRIQ** Şagirdlər bu mövzuda əşyaları hazırlayarkən seçilən materialın xassəsinin çox önəmli olduğunu öyrənirlər. Bu bilgilərindən istifadə edərək tapşırıqları yerinə yetirirlər.

1-ci tapşırıqda şagirdlər əşyaların hazırlandığı maddələrin sadə xassələrini müəyyən edirlər. Müzakirə zamanı bəzi əşyaların bir neçə xassəyə malik olduğunu qeyd etmək olar. Məsələn, qaşıq həm sukeçirməyən, həm də bərk maddədən hazırlana bilər.
2 və 3-cü tapşırıqlarda əşyanın təyinatından asılı olaraq onun xassələrini müəyyən etmək tələb olunur. Çərpələngin havaya qalxması üçün o, yüngül materialdan hazırlanmalıdır. Çox zaman çərpələng kağız və ya polietilen materialdan hazırlanır. Qayıq isə, əsasən, bərk, yüngül və sukeçirməyən maddədən hazırlanır. Şagirdlərə bunun səbəbi barədə sual vermək olar:
– Nə üçün qayıq sukeçirməyən maddədən hazırlanmalıdır? Qayıq ağır materialdan hazırlansa, nə baş verər? Qayıq çox yumşaq materialdan hazırlansa, onda əyləşmək olarmı?
**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərə məktəbli çantalarındakı bərk və yumşaq əşyaların siyahısını yazmaq təklif oluna bilər.
*Dərinləşdirmə.* Şagirdlərə metal və kağız materialı bir neçə xassəsinə görə bir-birindən fərqləndirmək tapşırıla bilər.
**Müəllim üçün əlavə məlumat.** Mövzunun məqsədi materialların xassələrini bilmək və bu xassələrin əşyaların hazırlanması zamanı nə qədər önəmli olduğunu şagirdlərin diqqətinə çatdırmaqdır. Materialların dərslikdə verilməyən xassələrini tanıtmaq məqsədilə əlavə məlumat vermək və mövzu üzrə bilgiləri dərinləşdirmək tövsiyə olunmur. Materialların dərslikdə verilməyən xüsusiyyətləri barədə yuxarı siniflərdə bəhs ediləcək.
**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:
• Materialların hansı xassələri var? Bərk materialla yumşaq materialı necə fərqləndirmək olar? Sukeçirən və sukeçirməyən materialı necə fərqləndirmək olar? Ağır və yüngül materialı necə fərqləndirmək olar?
• Nə üçün biz materialların xassələrini bilməliyik? Əşyaları hazırlayarkən material düzgün seçilməsə, nə baş verər?
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.
**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Materialların xassələrini bildiyini nümayiş etdirir. | Fəaliyyət |
| Bir materialın bir neçə xassəsini müəyyənləşdirir. | Tapşırıq, sorğu-sual |
| Əşyanın hazırlanmasında seçilən materialın xassəsinin əhəmiyyətini şərh edir. | Tapşırıq, sorğu-sual |

## Mövzu 18. Əşyaların hərəkəti

**• Dərslik:** səh. 50 **• İş dəftəri:** səh. 39

| | |
|---|---|
| **Altstandartlar** | 3.2.1. Əşyaların yerdəyişməsini dartmaq və itələməklə onlara göstərilən təsirlə əlaqələndirir.<br>3.2.2. Əşyaların yerdəyişməsini hərəkət olaraq təsvir edir. |
| **Köməkçi vasitələr** | Rəngli kağızdan kəsilmiş alma şəkilləri, səbətlər, yapışqan, qırmızı, göy, yaşıl, qara markerlər |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Hərəkət nədir?
**2. Fəaliyyət.** Əşyamızın yerini dəyişdirək.
**3. Öyrənmə**. Əşyaları dartmaq və itələməklə yerini dəyişmək.
**4. Tapşırıq.** Dərslik: tap. №1-3. İD: tap. №1-3.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərin diqqətini mövzuya yönəltmək və onların mövzu üzrə ilkin biliklərini yoxlamaq məqsədilə oyun keçirilir.

**Oyun. "Kim daha cəlddir?"** Oyun komandalarla aparılır. Hər komandaya bir səbət verilir. Lövhədə komandaların sayı qədər ağac rəsmi çəkilir. Hər ağaca rəngli yapışqanlı kağızlardan kəsilmiş eyni sayda alma yapışdırılır. Komandalar 1, 2, 3, ... adlandırılır və lövhədən eyni məsafədə bir cərgədə start xəttində dayanırlar. Ağac təsvirləri də komandaların nömrəsinə uyğun olaraq 1, 2, 3, ... qeyd edilir. Komandalar müəllimin işarəsi ilə eyni anda oyuna başlayır. Hər komandanın səbəti ilk oyunçu tərəfindən yerdən qaldırılmadan itələməklə lövhənin qarşısına gətirilir. Oyunçu öz ağacından bir alma qoparıb səbətə qoyur və səbəti eyni qayda ilə dartaraq start nöqtəsinə gətirib komanda yoldaşına ötürür. Oyun bu qayda ilə ağacdakı almalar qurtarana kimi davam etdirilir. Ağacdakı almaları tez yığan komanda qalib olur.

Oyun bitdikdən sonra müəllim sinfə suallar verir:

– Səbəti ağacın yanına necə gətirdiniz? Almanı ağacdan necə qopardınız?

Şagirdlərin suallara ən uyğun cavabları "itələməklə" və "dartmaqla" olacaq. Müəllim müxtəlif suallar verməklə şagirdlərdən müxtəlif hərəkətlərə aid cavablar ala bilər.

Sonra şagirdlərin diqqəti dərslikdəki soyuducunun qapısının açılıb örtülməsinə dair şəkillərə yönəldilir. Müəllim şagirdlərə dartma və itələmə hərəkətlərinə aid gündəlik həyatdan nümunələr göstərməyi tapşıra bilər.

**FƏALİYYƏT** Şagirdlərə masalarının üzərindəki qələmlərini yanaşı oturduqları yoldaşlarına, dəftər və dərsliklərini isə özlərinə yaxınlaşdırmaq tapşırılır. Şagirdlərə sualla müraciət edilir:

– Qələmi yoldaşınıza, dəftər və dərsliyi özünüzə yaxınlaşdırmaq üçün hansı hərəkətləri etdiniz? Bəs əksinə, dəftər və dərsliyi yoldaşınıza, qələmi isə özünüzə yaxınlaşdırmaq üçün nə edərdiniz?

Bu zaman şagirdlərin diqqəti əşyaların yerini dəyişdirmək üçün onları hərəkət etdirmək lazım olduğuna yönəldilir.

**ÖYRƏNMƏ** Şagirdlərə "Öyrənmə" rubrikasındakı materialı izah edərkən əşyaların yerini dəyişdirmək üçün itələmək və ya dartmaqla onların necə hərəkət etdirilməsi barədə sadə nümunələr göstərmək olar.

Müzakirə mərhələsində suallar ətrafında fikir mübadiləsi aparılır. Bu mərhələdə şagirdlər itələməklə və dartmaqla əşyaların istiqamətini dəyişməsini nümunələrlə əsaslandırırlar.

Şagirdlərin məntiqi təfəkkürünün inkişafı üçün düşündürücü suallardan da istifadə oluna bilər. Məsələn:

– Müəllim böyük bir daşı dartan və itələyən texnika şəkli göstərərək nə üçün belə hallarda texnikadan istifadə edildiyini soruşa bilər.

**TAPŞIRIQ** 1-ci tapşırıq şəkildə təsvir olunan uşaqların nə etdiyini müəyyənləşdirməyə yönəlmişdir. Şagirdlərə belə şəkillər göstərib kimin dartdığını, kimin isə itələdiyini soruşmaq olar.





2-ci tapşırıq eyni şəkil üzrə yerinə yetirilir. Şəkildə verilmiş qutunun hərəkət istiqamətini göstərən oxun rənglənməsi tapşırılır. Tapşırığı yerinə yetirərkən şagirdlərə ox işarəsi və onun mənası izah edilə bilər. Ox işarəsi istiqaməti bildirir. Şagirdlərin riyaziyyat fənnindən keçdikləri sağ, sol, yuxarı, aşağı və s. istiqamətlər yada salınır. Bir neçə ox çəkib onun istiqamətini şagirdlərdən soruşmaq olar.

3-cü tapşırıq şagirdlərin fikirlərini şifahi olaraq əsaslandırmalarına yönəlmişdir. Suala cavab vermək üçün sinifdə praktik tapşırıq yerinə yetirmək olar. Məsələn, şagirdlərdən biri öz stulunu əvvəlcə tək itələyir. Sonra başqa sinif yoldaşı stulu dartır, o isə itələyir. Şagirddən stulun yerini dəyişdirməyin hansı halda daha asan olduğu soruşulur.

Əlavə olaraq əşyaların hərəkət istiqamətini oxlarla göstərməklə oyun təşkil oluna bilər.

**Oyun. "Yerini tap".** Lövhədə 8 × 8 ölçüdə dama xanaları çəkilir. Lövhədə oxlarla itələmək və dartmaq istiqamətləri qeyd olunur. Damanın müxtəlif xanalarında qırmızı, qara, yaşıl, göy markerlə dama daşlarına bənzər dairələr çəkilir. Lövhəyə dörd oyunçu dəvət olunur. Onların hər birinə göstərişlər yazılmış vərəq və seçdiyi rəngə uyğun marker verilir. Göstərişdə qeyd olunur:




- Göy: 7 dama itələ, 3 dama dart, 2 dama itələ, 6 dama dart.
- Qara: 3 dama dart, 2 dama itələ, 5 dama itələ, 4 dama dart.
- Qırmızı: 5 dama itələ, 2 dama dart, 4 dama dart, 1 dama itələ.
- Yaşıl: 6 dama dart, 1 dama itələ, 6 dama itələ, 1 dama dart.

Oyunçular lövhədə dama daşının çəkildiyi yerdən başlayaraq öz sətirlərindən kənara çıxmadan daşı "itələməklə" və "dartmaqla" göstərişlərə uyğun (xanalarda markerlə hərəkət istiqamətini cızmaqla) hərəkət edirlər. Sonda hər bir oyunçunun dama daşı başlanğıc damaya qayıtmalıdır. Başlanğıc yerinə qayıdan oyunçu qalib gəlir, qayıda bilməyən oyunçu isə uduzur.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərdən masa üzərindəki pozanı əvvəl yoldaşına, sonra isə özünə tərəf yaxınlaşdırmaqla nə etdikləri soruşula bilər.

*Dərinləşdirmə.* Şagirdlərə texnika və insan tərəfindən əşyaları itələyən və ya dartan şəkillər göstərmək olar. Təqdim olunan şəkillərə görə hansı əşyanın daha çox hərəkət etdiyi və səbəbi soruşula bilər.

**Müəllim üçün əlavə məlumat.** Şagirdlərin dartaraq və itələyərək əşyaların yerini dəyişdirmələri, yerdəyişmənin hərəkət nəticəsində baş verdiyini öyrənmələri yuxarı sinifdə qüvvə ilə hərəkət arasındakı əlaqəni daha yaxşı anlamaları üçün zəmin yaradır. Şagirdlər gələcəkdə əşyaları dartdıqda və itələdikdə onlara qüvvə tətbiq edildiyini, əşyaların hərəkəti ilə qüvvə arasındakı əlaqəni öyrənəcəklər.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

- Əşyaların yerini dəyişdirmək üçün nə etməliyik? Əşyaların yeri nə üçün dəyişdirilir? Bir əşya eyni vaxtda müxtəlif istiqamətlərə dartılarsa, nə baş verər?

Texniki imkanları olan siniflərdə *https://www.youtube.com/watch?v=vXkM1nXh6ho* nümayiş etdirilə bilər. ("Balıq, qu quşu və xərçəng" nağılını misal gətirmək olar.)

- Əşya hərəkət etməsə, yerini dəyişə bilərmi? Əşyanın yerini dəyişməsi nə deməkdir? Əşyanın hərəkətini necə başa düşürsünüz? Siz hansı hərəkətlər edə bilirsiniz? *(qaçmaq, tullanmaq, oturmaq, yerimək və s.)*

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Dartmaq və itələməklə əşyaların yerini dəyişdiyini izah edir. | Fəaliyyət |
| Əşyaların yerini dəyişməklə hərəkət etdiyini izah edir. | Tapşırıq |
| Əşyalar hərəkət etdikdə istiqamətini dəyişdiyini sadə nümunələrlə izah edir. | Sorğu-sual |

# Mövzu 19. Evimizdəki avadanlıqlar

• Dərslik: səh. 52 • İş dəftəri: səh. 41

| | |
|---|---|
| **Altstandartlar** | 2.2.3. Sağlamlıq üçün təhlükə törədə bilən məişət cihazlarının və alətlərin istifadə profillərini sadalayır. |
| **Köməkçi vasitələr** | Yaşıl kartlar, elektriklə işləyən məişət avadanlıqları və kəsici-deşici alətlərin şəkilləri, kağızdan kəsilmiş ulduz və ya ürəklər |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Evdəki avadanlıqlardan istifadə qaydaları.
**2. Fəaliyyət**. Cihaz və alətlər.
**3. Öyrənmə**. Elektriklə işləyən məişət avadanlıqları və kəsici-deşici alətlər haqqında.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-4.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**



**CƏLBETMƏ** Dərslikdə verilmiş şəkil üzrə iş təşkil edilir.

– Uşaqlar nə etmək istəyirlər?

Şagirdlər uşaqların elektrik caydanını qoşmağa və çörəyi doğramağa hazırlaşdıqlarını söyləyəcəklər. Müəllim sinfə müraciət edir:

– Siz evdə böyüklərin nəzarəti olmadan bu kimi işlər görürsünüzmü?

Suala şagirdlər həm “bəli”, həm də “xeyr” cavabını verə bilərlər. Bu səbəbdən müəllim onlara əlavə sual verə bilər:

– Sizcə, bu işləri görmək təhlükəlidir?

Şagirdlərin cavabı dinlənildikdən sonra müəllim kiçik izahatla davam edir:

– Evdə işığın kəsilməsi elektrikin kəsilməsi deməkdir. Bu çaydan elektriklə işləyir, ona görə də ona *elektrik çaydanı* deyirlər. Ehtiyatlı davranmayanda elektrik həyat üçün çox təhlükəli ola bilər. Evimizdə yalnız çaydan deyil, paltaryuyan maşın, ətçəkən, saçqurudan və başqa avadanlıqlar da elektriklə işləyir. Elektriklə işləyən texnikanın xüsusi istifadə qaydaları olur. Böyüklər ondan düzgün istifadə etmək üçün bu qaydaları oxuyub öyrənirlər. Uşaqlar bu qaydaları oxumurlar, ona görə də məişət texnikasından istifadə edərkən səhvə yol verə bilərlər.

Bundan sonra növbəti müzakirə sualını vermək olar.

– Sizcə, uşaqlar bu işləri özləri müstəqil etməlidirlərmi?

Şagirdlər müəllimin izahını dinləyəndən sonra böyük ehtimalla bunun təhlükəli ola biləcəyini söyləyəcəklər.

**FƏALİYYƏT** Şagirdlərlə evdəki məişət avadanlıqları və nə üçün istifadə olunduqlarını müəyyənləşdirmək istiqamətində oyun təşkil olunur. Sinif iki böyük komandaya ayrılır. Hər komandaya bir yaşıl kart verilir.

**Oyun. “Olar! Olmaz!”** Oyunun qaydaları izah edilir. Komanda üzvlərinə cihaz və alət şəkilləri göstərilir. Şəkildəki cihaz və ya alətin adı deyilməli və onun nə üçün istifadə edildiyi izah olunmalıdır. Ən tez yaşıl kart göstərən komanda cavabı birinci səsləndirir. Cavab düz olarsa, komanda 1 xal qazanır. Cavab səhv olarsa, digər komanda cavab verir. Ən çox xal toplayan komanda qalib olur.

Oyun aşağıdakı nümunəyə uyğun təşkil oluna bilər:

| | | |
|---|---|---|
| ***Avadanlıq və əşyalar*** |  |  |
| ***Cavab nümunələri*** | *Elektrik çaydanı: çay hazırlamaq üçün istifadə olunur.* | *Qayçı: müxtəlif əşyaları, sapı, kağızı, parçanı kəsmək üçün istifadə olunur.* |

**ÖYRƏNMƏ** Mətndə ən çox istifadə edilən məişət avadanlıqlarının – həm məişət texnikası, həm də kəsici-deşici alətlərin adları çəkilir. Azyaşlıların məişət texnikasından istifadə etmələrinin təhlükəli olduğunu anlatmaq, kəsici-deşici alətlərlə işləmək zərurəti yaranarsa, mütləq böyüklərdən yardım almaq haqqında şagirdlərə məlumat verilir.
Uşaqların çəngəl, bıçaq, qayçı, iynə kimi kəsici-deşici alətlərdən istifadə etməsi çox rast gəlinən haldır. Bu mərhələdə şagirdlərə iki qayçını göstərmək olar. Qayçılardan biri məişətdə istifadə olunan itiuclu, digəri şagirdlərin daha çox texnologiya dərsində istifadə etdiyi kağızkəsən qayçı ola bilər. Şagirdlərdən qayçıların bir-birindən necə fərqləndiyini soruşub onların diqqətini kağızkəsən qayçının uclarının xüsusi materialla kütləşdirilməsinə cəlb etmək və sual vermək olar:
– Sizcə, bu qayçını nə üçün belə düzəldiblər?
Ümumiləşdirilmiş cavab belə olacaq:
– Bunu qayçının iti ucunun, kəskin ağzının yarada biləcəyi zədələnmələrdən uşaqları qorumaq üçün ediblər.
– Qayçını bu şəkildə düzəltməsələr, onunla işləyərkən hansı zədələri almaq olar?
Şagirdlər təsəvvür etdikləri, yaxud öz təcrübələrində baş verən zədələr barədə danışa bilərlər.
Bundan sonra növbəti müzakirə sualını səsləndirmək olar:
– Evdə kəsici və deşici alətlərdən hansı işlərdə istifadə olunur?
Şagirdlər bu alətlərlə görülən işləri sadalayacaqlar. Dərslikdə qaz plitəsi ilə bağlı şəkil üzərində ayrıca dayanmaq, bu məişət avadanlığı, o cümlədən məişətdə istifadə olunan elektriklə işləyən digər avadanlıqların da faydasından və təhlükə mənbəyi ola biləcəyi hallardan da danışmaq lazımdır. Müəllim uşaqlara məişətdə istifadə olunan elektrik avadanlıqları ilə davranış qaydalarını göstərən kiçik stend, yaxud plakat nümayiş etdirə bilər. Sonda cavabları ümumiləşdirib müzakirəni yekunlaşdırmaq olar.
**TAPŞIRIQ** Tapşırıq elektrik cihazlarının və kəsici-deşici alətlərin müəyyən edilməsinə istiqamətlənmişdir. Şagirdlər kəsici və deşici alətlərin altındakı dairələri qırmızı, elektrik cihazlarının altındakı dairələri isə göy karandaşla rəngləməlidirlər.
Əlavə olaraq müəllim şagirdlərə mövzuya uyğun müxtəlif tapmacalar söyləyə bilər.

Ağzı poladdan,
Saqqalı sapdan.
*(İynə, sap)*

Altı haça, üstü haça.
İki üzük, iki qılça.
*(Qayçı)*

İçində qışdır,
Çölündə bahar.
*(Soyuducu)*

Mətbəxdədir yeri onun,
Yuvasıdır göy alovun.
Tez bişirir yeməkləri,
Şirin, dadlı kökələri.
*(Qaz plitəsi)*

Upuzun bir quyruğu var,
İşi çoxdur, buyruğu var.
Şiş ucuyla gedir-gedir,
Qırışları tez yox edir.
*(Ütü)*

Taxta, dəmir,
Gah əyilir, gah düzəlir.
*(Bıçaq)*

Açdım çənəmi,
Arasına düşdü bir kağız.
Yumdum çənəmi,
Oldu iki kağız.
*(Qayçı)*

Özüm incə, boyum qısa,
Yer açıram şiş burnumla,
Yol çəkirəm quyruğumla.
*(İynə)*

Dördkünc qutuya
Bir dünya sığar.
Nə bilsə, tezcə
Bizə çatdırar.
*(Televizor)*

**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərə mətbəxdə istifadə olunan elektriklə işləyən avadanlıqların və kəsici-deşici alətlərin adlarını sadalamaları tapşırıla bilər.
*Dərinləşdirmə.* Şagirdlərə məişətdə istifadə olunan avadanlıqların faydası və təhlükələri haqqında danışmaq təklif edilə bilər.
**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

• Məişət texnikasından necə istifadə edilməlidir? Məişət avadanlığı nədir? Məişət texnikasının insanlara nə faydası var? Məişət texnikasına nələr daxildir? Uşaqlara məişət texnikasından istifadə etmək nə üçün tövsiyə olunmur? Məişət texnikası nə üçün təhlükəli ola bilər?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə materialı** |
|---|---|
| Sağlamlıq üçün təhlükə törədə bilən məişət cihazlarını və alətlərə nümunələr göstərir. | Fəaliyyət |
| Sağlamlıq üçün təhlükə törədə bilən məişət cihazlarının və alətlərin istifadə profillərini sadalayır. | Sual-cavab |
| Məişət cihazlarının və alətlərin faydasını və təhlükələrini sadə şəkildə izah edir. | Tapşırıq |

## 4-cü BÖLMƏ — Ətraf mühit

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 20 | Ətrafı necə öyrənirik | 1 | 56 | 45 |
| Mövzu 21 | Səs haradan gəlir | 1 | 59 | 49 |
| Mövzu 22 | Bu gün hava necədir | 1 | 61 | 51 |
| Mövzu 23 | Fəsillər bizə necə təsir edir | 1 | 63 | 53 |
| Mövzu 24 | Canlı və cansız | 1 | 66 | 55 |
| Mövzu 25 | Yaşamaq üçün nə lazımdır | **1** | 68 | 57 |
| | Ümumiləşdirici dərs | 1 | 70 | 59 |
| | **CƏMİ** | **7** | | |

**Bölmənin qısa icmalı**

Bölmə ətraf aləm, ətraf aləmin dərk olunmasında istifadə edilən vasitələr, ətraf aləmin bizə təsiri və bununla əlaqədar olaraq davranış qaydaları ilə bağlı mövzuları əhatə edir. Ətrafı necə öyrənirik? Ətraf mühit haqqında məlumatları necə əldə edirik? Hisslərimiz bizə necə kömək edir? Hansı hiss üzvlərimiz var? Şagirdlərə hisslərin rolunun praktik olaraq oyunlar və ya təcrübələr vasitəsilə sadə anlayışlar şəklində təqdim edilməsi mövzunun mənimsənilməsini asanlaşdırır.

Səs haradan gəlir? Səsin mənbələri nələrdir? Şagirdlərə səs mənbələri və səsin eşidilməsinin məsafədən asılılığı praktik olaraq izah edilir.

Hava şəraiti nədir? Hava şəraiti haqqında məlumatları necə əldə etmək olar? Şagirdlərə hava şəraitinin elementləri, külək torbası düzəldərək məlumatın əldə olunması, əldə olunan məlumatları simvollardan istifadə edərək təqdim etmək bacarıqları verilir.




Fəsillər necə fərqlənir? Fəsillərə görə necə geyinməliyik? Mövzuda yaz, yay, payız, qış fəsillərinin hər birinin ayrı-ayrılıqda əlamətləri və bu fəsillərə uyğun geyimlər təqdim olunur.

Canlılar cansızlardan necə fərqlənirlər? Canlıların hansı əlamətləri var? Şagirdlərdə müzakirələr və sorğu əsaslı öyrənmə ilə fərqləndirmək və təhlil etmək bacarıqları inkişaf etdirilir.

Mövzuda şagirdlər canlılarda yaşamanın davamlılığını təmin edən faktorları ayrı-ayrılıqda təhlil etməklə, səbəb-nəticə əlaqələrini müəyyənləşdirməklə, həmçinin gündəlik təcrübədə öz həyatlarından, müşahidələrindən nümunələr göstərməklə fikirlərini əsaslandırmağı öyrənirlər.

**Bölməyə giriş**. Şagirdlərin ətraf aləm haqqında məlumat toplamalarını və bu məlumatlara əsaslanaraq ətraf mühitdə müşahidə etdiklərini təhlil və müzakirə etmək olar. Hətta bu məlumatları necə əldə etdikləri haqda müzakirəni davam etdirmək də mümkündür.

Suallara verilən cavablar şagirdlərin bölmədəki mövzularla bağlı ilkin biliklərinin diaqnostikası üçün də əhəmiyyətli olacaq.

# Mövzu 20. Ətrafı necə öyrənirik

**Dərslik:** səh. 56 • **İş dəftəri:** səh. 45

| | |
|---|---|
| **Altstandartlar** | 1.1.4. Beş hissi müəyyən edir.<br>1.1.5. Beş hissi adlandırır.<br>1.1.6. Bədən üzvlərini hisslərlə əlaqələndirir. |
| **Köməkçi vasitələr** | Qutu, meyvələr, əşyalar, göz bağlamaq üçün dəsmal |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Ətraf aləmi necə duyursunuz?
**2. Fəaliyyət.** Gözbağlıca oynayaq.
**3. Öyrənmə**. Hisslər və bədən üzvlərinin (hiss üzvlərinin) əlaqələndirilməsi.
**4. Tapşırıq.** Dərslik: tap. №1-4. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim uşaqlarla 3 meymun oyunu keçirə bilər.



**Oyun 1. "Üç meymun"**. Oyunun qaydaları izah edilir. Üç oyunçudan ibarət komanda seçilir. Birinci oyunçu danışa bilmir, ikinci oyunçu eşitmir, üçüncü oyunçu isə görmür. Müəllim birinci oyunçunun qulağına sakitcə hər hansı bir iş görməyi tapşırır (məsələn: "Dairə çək", "Şeir söylə", "İdman et" və s.). Birinci oyunçu bunu ikinci oyunçuya təsvir etməlidir. İkinci oyunçu isə üçüncüyə izah etməlidir. Üçüncü oyunçu müəllimin tapşırığını düzgün icra edərsə, komanda qalib gəlir.
Müəllim şagirdlərə oyunda bir-birini necə başa düşdüklərini soruşur. Şagirdlərin cavabları dərslikdəki mövzu ilə əlaqələndirilir:
– Uşaqlar piknikdə nə edirlər?
– Təsəvvür edin ki, piknikdəki uşaqlar sizsiniz. Ətrafınızdakı əşyalara toxunaraq nə hiss edirsiniz?
– Güllərin rəngini və qoxusunu hansı bədən üzvləri ilə müəyyən edirsiniz?
Bu suallar əsasında müzakirələr təşkil olunur. Ətrafın dərk edilməsində hisslərin rolu, hisslərlə bədən üzvləri (hiss üzvləri) arasında əlaqə haqqında şagirdlərin ilkin bilikləri, düşüncələri öyrənilir. Şagirdlərin gündəlik həyatlarından nümunələr göstərməklə düşüncələrini ifadə etməsinə şərait yaradılır.
**FƏALİYYƏT** Dərslikdəki fəaliyyətə uyğun "Gözbağlıca" oyunu keçirmək olar. Oyun hava şəraitindən asılı olaraq sinifdə və ya məktəbin həyətində keçirilə bilər. Oyundan sonra sinifdə dərslikdə verilmiş suallar əsasında müzakirələr təşkil edilə bilər. Oyun zamanı gözü bağlı olan uşağın digər yoldaşları haqqında məlumatları necə əldə etməsinə dair fikirləri soruşulur.
Bu oyunu başqa formada da keçirmək olar.
**Oyun 2. "Gözbağlıca".** Fəaliyyət üçün lazım olan ləvazimatlar: qutu, həmin mövsümə uyğun meyvələr, əşyalar, göz bağlamaq üçün dəsmal. Oyunun qaydaları izah edilir. Fəaliyyət aşağıdakı ardıcıllıqla yerinə yetirilir:
1. Şagirdlərdən birinin gözləri dəsmalla bağlanır.
2. Qutunun içərisinə istənilən bir əşya (meyvə, qələm, dəftər və s.) yerləşdirilir.
3. Şagird gözübağlı halda qutunun içərisində hansı əşyanın olduğunu ona toxunmaqla müəyyənləşdirir.
4. Gözübağlı şagird qutunun içərisindəkini tapmaqda çətinlik çəkdikdə ona yoldaşları tərəfindən ipucu verilir.

Əşyanı düzgün tapan oyunçu qalib gəlir.
Fəaliyyətin sonunda ətrafdakı səsləri, iyləri, dadları, o cümlədən əşya və obyektlər haqqında digər məlumatları hansı hiss üzvlərimizlə qəbul etdiyimiz barədə mazakirə təşkil etmək olar. Lövhədə belə bir sxem çəkmək məqsədəuyğundur:




**ÖYRƏNMƏ** Şagirdlərin diqqəti lövhədə tamamlanmış sxematik təsvirə yönəldilə bilər. Onlara beş hiss üzvü: görmə, eşitmə, dadbilmə, qoxubilmə və toxunma sadalanır. Sonra ətraf aləmdən məlumatın alınması üçün uyğun bədən üzvünün (hiss üzvünün) istifadə olunduğu izah olunur. Dərslikdə verilmiş mətndə ətraf aləmi hiss üzvlərimiz vasitəsilə öyrəndiyimizdən bəhs edilir.
**Müəllimin nəzərinə!** Sinifdə bu mövzu ilə əlaqədar həssas şagird ola bilər. İnklüzivlik prinsiplərini nəzərə almaq tövsiyə olunur.
Müzakirə təşkil edərək bədən üzvləri hisslərlə əlaqələndirilir.
• Sinfin pəncərəsindən çölə baxın və gördüklərinizi qeyd edin.
Şagirdlər dərslikdəki müzakirə sualları vasitəsilə ətraf aləmin dərk olunmasında hisslərin rolunu və bu məlumatların qəbulunda hiss üzvlərinin hisslərlə əlaqəsini təhlil edirlər.
• İybilmə hissiniz olmasaydı, hansı məlumatları almaq çətin olardı?
Bu tip müzakirə sualları ilə şagirdlərdə tənqidi təfəkkürü və təhliletmə bacarıqlarını inkişaf etdirmək olar.
**TAPŞIRIQ** Dərslikdə verilmiş 1-ci tapşırıq nümunəyə uyğun yerinə yetirilir. Şagirdlər sözləri uyğun şəkillərlə birləşdirir və izah edirlər. 2-ci tapşırıqda hər bir fikrin qarşısında “doğru” və ya “yanlış” sözü yazılır. 3-cü tapşırıq vasitəsilə şagirdlərin müqayisəetmə, təhliletmə bacarıqlarını necə nümayiş etdirdikləri müəyyən olunur. Verilmiş hər bir fikri daha doğru tamamlayan sözün altından xətt çəkməklə 4-cü tapşırıq yerinə yetirilir.
**Diferensial təlim.**
*Dəstək.* Hiss üzvlərinin adları soruşulur.
*Dərinləşdirmə.* Şagirdlərə hiss üzvləri barədə daha ətraflı məlumat verməyi tapşırmaq olar.
**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:
• Əşyaların bərk və yumşaq, isti və soyuq olmasını necə bilirsiniz? Yaş və quru əşyaları necə fərqləndirirsiniz? Gözlərinizi bağlasanız, otaqda rahat hərəkət edə bilərsiniz? Niyə?
• Meyvələrin dadını, qoxusunu, formasını hansı bədən üzvləri vasitəsilə müəyyən edirsiniz? Qidaların (yediklərinizin) turş, şirin, duzlu, şit, acı olduğunu necə bilirsiniz? Güllərin ətrini bir-birindən necə fərqləndirirsiniz?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.
**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Hiss üzvlərini sadalayır. | Fəaliyyət |
| Hiss üzvlərinin rolunu müəyyən edir. | Sual-cavab |
| Hisslərlə onlara uyğun bədən üzvlərini əlaqələndirir. | Tapşırıq, sual-cavab |

# Mövzu 21. Səs haradan gəlir

**• Dərslik: səh. 59 • İş dəftəri: səh. 49**

| | |
|---|---|
| **Altstandartlar** | 3.3.1. Səs mənbələrini müəyyən edir.<br>3.3.2. Səs mənbəyindən olan məsafədən asılı olaraq səsin dəyişməsini təsvir edir. |
| **Köməkçi vasitələr** | Mobil telefon və ya kompüter |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Səsdən nə üçün və necə istifadə edirik?
**2. Fəaliyyət.** Mahnını eşidək.
**3. Öyrənmə**. Səs mənbəyindən olan məsafədən asılı olaraq səsin dəyişməsi haqqında.
**4. Tapşırıq.** Dərslik: tap. №1-2. İD: tap. №1-4.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərin diqqətini mövzuya yönəltmək və onların mövzu ilə bağlı ilkin biliklərini yoxlamaq məqsədilə müəllim bütün siniflə belə fəaliyyət qura bilər. Əvvəldən mobil telefona yazılmış tanış səsləri (məsələn, quş və heyvan, maşın, qapı, təyyarə, qatar, şəlalə, çay, külək və s.) səsləndirməklə bu səslərin kimə və ya nəyə məxsus olduğunu soruşur.

Müəllim bu fəaliyyəti başqa cür də qura bilər. Şagirdlərdən biri gözlərini bağlayır, müəllim isə əl çalmaqla, qrafindən su tökməklə, masanı hərəkət etdirməklə, sinif yoldaşlarından birindən danışmağı xahiş etməklə səslərin kimə və ya nəyə məxsus olduğunu soruşa bilər.

Sinifdə eşitmə qabiliyyətləri zəif olan şagirdlər ola bilər. İnklüzivlik prinsiplərini nəzərə almaq tövsiyə olunur. Gender bərabərliyinin gözlənilməsi də vacibdir. Fəaliyyət oyun kimi keçirildikdə şagirdlərin seçimində qız və oğlan şagirdlərin bərabər sayda oyuna cəlb olunmasına və onların normal eşitmə qabiliyyətlərinə malik olmalarına diqqət edilməlidir.

Oyun bitdikdən sonra müəllim şagirdlərə suallar verir:

– Səsləri necə müəyyən etdiniz? Siz bir-birinizlə ünsiyyət qurmaq üçün nə edirsiniz? Uzaqda olan yoldaşınızı çağırmaq üçün nə edirsiniz?

Şagirdlərin cavabları əsasında onların diqqəti səsdən ünsiyyət üçün istifadə edilməsinə, eşitdikləri səslərin gəldiyi mənbələri fərqləndirməyə, yaxında və uzaqda olduqda səsin alçalmasına və ucalmasına yönəldilir.

**FƏALİYYƏT** Dərslikdə verilmiş addım 1 və 2 yerinə yetirilir. Şagirdlərə suallar verilir:

– Hansı sırada əyləşən şagirdlər əllərini daha tez qaldırdı? Nə üçün? Hamının eyni anda əl qaldırması üçün mahnının səsi necə olmalı idi?

Şagirdlərin cavablarında səsin alçaq və ya yüksək, gur və ya zəif, yaxın və ya uzaq fikirləri olması ehtimal edilir. Mövzunu daha yaxşı mənimsəmələri üçün şagirdlərlə oyun keçirilə bilər.

**Oyun. "Qırılmış əlaqə".** Oyunun qaydaları izah edilir. Müəllim sol sırada ən arxa masada əyləşən şagirdin qulağına pıçıltı ilə hər hansı əşya adı deyir. Həmin şagird yanında əyləşən şagirdin qulağına həmin sözü pıçıldayır. Qarşı masada əyləşən şagird arxa partada iki yoldaş arasındakı pıçıltı ilə deyilən sözü necə eşidirsə, həmin sözü öz yanındakı yoldaşının qulağına pıçıldayır. Oyun bu qayda ilə bütün sinif boyu çütlər arasında davam edir. Ən son masada oturan cütlük eşitdikləri sözü ucadan səsləndirir. İlk sözlə yekun söz müqayisə olunur. Əlaqənin harada qırıldığı müəyyən olunur. Pıçıltı ilə deyilən sözü yaxşı eşidən şagirdlər alqışlanır.

Oyunun davametmə ardıcıllığı sxematik belə təsvir olunur. Təsvirdə verilmiş oxların istiqaməti oyunun ardıcıllığını ifadə edir.




**ÖYRƏNMƏ** Dərslikdəki "Öyrənmə" mətnində şagirdlərin səs barədə təsəvvürləri genişləndirilir. Bütün şagirdlərin bir dəqiqə tam sakit olması bildirilir. Sonra suallar əsasında müzakirə təşkil edilir.

– Sakit olduğunuz zaman kənarda səs var idimi? Bu nə səsi idi?

Şagirdlərin cavabı müxtəlif ola bilər. Məktəbin yerləşdiyi əraziyə görə cavablarda maşınların, quşların, çayın, küləyin, dəhlizdə gəzən müəllim və ya şagirdlərin ayaq səsləri və s. kimi fikirlər sadalana bilər. Hətta bəzi şagirdlərdən nəfəs alıb-vermək kimi fikir də eşidilə bilər.

– Həyəcanın, təhlükənin olduğunu necə hiss edirsiniz? Daha hansı səslər sizi narahat edir?

Şagirdlər mənbənin səsinə görə həyəcanı və təhlükəni müəyyən etdiklərini söyləyə bilərlər. Onlar müxtəlif nəqliyyat vasitələri (təcili tibbi yardım, yanğınsöndürən və s. maşınlar) ilə yanaşı, arı, ağcaqanad kimi həşəratların və digər heyvanların da adlarını sadalaya bilərlər.

**TAPŞIRIQ** Dərslikdə verilmiş 1-ci və 2-ci tapşırıqlar yerinə yetirilir. 1-ci tapşırıqdakı şəkildə təsvir olunmuş səs mənbələri işarələnir. 2-ci tapşırıqda şagirdlər gözlərini yumaraq ətrafı dinləyir və eşitdikləri səsləri, səsin gəldiyi mənbəyi dəftərində qeyd edirlər.

Şagirdlərə əlavə tapşırıq verilə bilər. Müəllim sinifdə qısa bir hekayə danışır. Şagirdlərə hekayənin qəhrəmanlarının adlarını dəftərə qeyd etməyi tapşırır. Sonra müəllim sinfin qapısının yanında alçaq səslə başqa bir hekayəni danışır. O, şagirdlərə ikinci hekayənin qəhrəmanlarının adını da dəftərə yazmağı tapşırır. Şagirdlər çətinlik çəkərlərsə, səs mənbəyi yaxınlaşdıqda və uzaqlaşdıqda, həmçinin alçaq və uca səslə səsləndikdə nə baş verdiyini soruşur. Şagirdlərə müşahidə etdiklərini dəftərlərində qeyd etmələri bildirilir.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərdən sinifdə səs gələn əşya və obyektlərin adını soruşmaq olar.

*Dərinləşdirmə*. Şagirdlərə səsin yaxınlaşdıqca və uzaqlaşdıqca necə dəyişdiyini izah etmək təklif oluna bilər.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

- Səslər haradan gəlir? Səslər necə olur? Alçaq səs daha yaxı eşidilir, yoxsa uca səs?
- Eyni səs mənbəyi bizə yaxın və bizdən uzaqda olduqda səsi necə dəyişir?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Səs çıxaran əşya və obyektləri müəyyən edir. | Fəaliyyət |
| Səs çıxaran hər şeyin səs mənbəyi olduğunu izah edir. | Sual-cavab, tapşırıq |
| Mənbədən uzaqlaşdıqca və mənbəyə yaxınlaşdıqca səsin dəyişdiyini fərqləndirir. | Fəaliyyət, sual-cavab, tapşırıq |

## Mövzu 22. Bu gün hava necədir

**Dərslik:** səh. 61 • **İş dəftəri:** səh. 51.

| | |
|---|---|
| **Altstandartlar** | 3.4.1. Müxtəlif hava şəraitlərini təsvir edir.<br>3.4.2. Hava şəraiti qrafikini qurmaq üçün müxtəlif hava simvollarından istifadə edir.<br>3.4.3. Hava haqqında məlumat toplamaq üçün müvafiq alətlərdən istifadə edir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, rəngli kağızlar, qalın kağız, qayçı, yapışqan, hava şəraitlərini əks etdirən simvolların şəkilləri, pambıq, qara rəngli məftil və ya sim parçaları, kağız ürəklər |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Hava şəraiti haqqında nə bilirəm?
**2. Fəaliyyət.** Külək torbası
**3. Öyrənmə**. Hava şəraitlərini əks etdirən simvollar.
**4. Tapşırıq.** Dərslik: tap. №1,2. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərin hava şəraitinə aid ilkin biliklərini müəyyən etmək üçün siniflə ümumi oyun keçirə bilər. Bu zaman o, hava şəraitini təsvir edir, şagirdlərdən biri isə bu hava şəraitinə uyğun hərəkətlər edir. Məsələn:
• "Qar yağır" – şagird qartopu oynayır.
• "Külək əsir" – şagird pencəyinin qabağını bağlayır.
• "Yağış yağır" – şagird başına çətirəoxşar bir şey tutur.
Şagirdlərin diqqəti dərslikdə verilmiş şəklə yönəldilir. Bacı-qardaş arasındakı dialoq oxunur. Sonra sinifdən iki şagirdə indi bayırda havanın necə olması ilə bağlı dialoq qurmaq tapşırılır. Dialoq bitdikdən sonra sinfə suallar verilir:
– Siz hansı havanı xoşlayırsınız? Niyə?
Mövzunun məqsədi şagirdləri hava şəraiti ilə tanış etmək olduğu üçün uyğun geyim və əşyaları sadalamaq məqsədəuyğun deyil.
**FƏALİYYƏT** "Fəaliyyət" tapşırığında şagirdlər "Külək torbası" ölçmə alətinin hazırlanmasını və nə üçün istifadə edildiyini müşahidə edərək öyrənirlər. Dərslikdə olan addımlar müəllim tərəfindən nümayiş etdirilir. Şagirdlər isə eyni addımları təkrar edirlər. "Külək torbası"nın hissələri də ayrı-ayrılıqda göstərilir. Sonra müəllim tərəfindən hava feni vasitəsilə süni külək yaradılır və şagirdlərdən nə baş verdiyi soruşulur:
– Siz külək torbasında nə müşahidə etdiniz?
Şagirdlər nazik lentlərin müəyyən istiqamətlərə doğru hərəkətə başladığını deyə bilərlər.
– Lentlərin müəyyən istiqamətə doğru hərəkət etməsinə səbəb nədir?
Şagirdlər "fenin vurduğu hava", "hava axını", "külək" kimi fikirlər səsləndirə bilərlər.
– Siz küləkli havada gəzəndə külək üzünüzə vurursa, bu zaman saçlarınız hansı istiqamətə yönəlir?
Şagirdlər "geriyə", "arxaya" cavabları səsləndirə bilərlər.
– Bəs əksinə, külək arxadan vurarsa?
Şagirdlər "üzümüzə", "qabağa" cavablarını verərlər.
– Sizcə, külək güclənərsə, külək torbasında hansı dəyişikliklər baş verər?
Şagirdlər külək torbasının daha güclü yelləndiyini, hərəkət etdiyini bildirirlər.
– Külək torbası vasitəsilə hansı məlumatları ala bilərik?
Şagirdlər küləyin güclü və ya zəif, həmçinin hansı istiqamətdən əsməsi fikirlərini səsləndirə bilərlər.

**Müəllimin nəzərinə!** Külək torbasının iş prinsipini daha asan izah etmək üçün lövhədə onun sxemini və ya şəklini çəkmək olar. Torbanın istiqamətindən asılı olaraq küləyin güclü və ya zəif əsdiyi təyin olunur. Şəkil çəkilərkən küləyin zəifdən güclüyə doğru sürətinin artması ardıcıllığına diqqət etmək vacibdir. Şagirdlərə “Külək torbası” ilə əlaqədar aşağıdakı əlavə məlumatı vermək olar:

– Külək torbası nəhəng corablara bənzəyən konusvari toxunmuş rəngli borudur. Küləyin istiqamətini və gücünü göstərmək üçün əsas bələdçi kimi istifadə edilir. Bir çox hava limanlarında külək torbası gecələr projektorlarla işıqlandırılır. Burada *konusvari* və *projektor* sözləri şagirdlərə onların başa düşəcəyi kimi izah olunmalıdır.




**ÖYRƏNMƏ** “Öyrənmə” materialında şagirdlər müxtəlif hava şəraitləri haqqında məlumatlar əldə edirlər.

**Müəllimin nəzərinə!** Mövzu izah edilərkən “coğrafi proqnoz”, “hava proqnozu” ifadələrini işlətmək məqsədəuyğun deyil.

Müzakirə sualları səsləndirilir və bütün siniflə müzakirə edilir. Müzakirə zamanı şagirdlərin cavablarına uyğun şərhlər verilə bilər.

**TAPŞIRIQ** Dərslikdə verilmiş tapşırıqlar yerinə yetirilir. 1-ci tapşırıqda şəkillər təsvirlərə uyğun seçilmiş simvollarla birləşdirilir. Bu tapşırıqla şagirdlərin hava şəraitinə uyğun simvolları düzgün seçə bilməsi müəyyən olunur.

2-ci tapşırıqda hər bir şagird növbəti dərsə qədər hər hansı üç günü müşahidə edir. Böyüklərin köməyi ilə nümunədə verilmiş cədvəli dəftərində çəkir. Müşahidə etdiyi günlər ərzində hava şəraitini simvollarla cədvəldə qeyd edir. Hansı günlər müşahidə apardığını da cədvəldə qeyd etməsi təklif oluna bilər.

**Cütlərlə iş.** Müəllim cütlərlə iş təşkil edə bilər. Cütlərə müxtəlif hava şəraitlərini əks etdirən simvolların şəkilləri paylanır. Hər cüt ona təqdim olunan simvola uyğun olaraq təbiət mənzərəsi çəkir. Tapşırığı düz və tez yerinə yetirən cütlər kağız ürəklərlə mükafatlandırılır.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdlər simvollara görə hava şəraitini izah edə bilərlər.

*Dərinləşdirmə*. Şagirdlərə hava şəraiti təsvir edilir, onlar isə uyğun simvolu tapırlar. Sonra simvollara görə hava şəraitini fərqləndirirlər.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

• Hansı hava şəraitlərini tanıyırsınız? Günəşli hava necə olur? Qarlı hava necə olur? Yağışlı hava qarlı havadan necə fərqlənir?

• Hava şəraiti haqqında məlumatları sözsüz necə təqdim edə bilərsiniz? Hansı hava şəraitində isti, hansı hava şəraitində isə soyuq hiss edilir? Hansı hava şəraitləri səslərlə müşayiət edilir?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Müxtəlif hava şəraitlərini sadə fikirlərlə təsvir edir. | Sual-cavab |
| Müxtəlif hava simvollarından istifadə edərək hava şəraitinə uyğun qrafik qurur. | Tapşırıq |
| Küləkli havanı müəyyən etmək üçün “Külək torbası” hazırlayır və istifadə edir. | Fəaliyyət, sual-cavab |

# Mövzu 23. Fəsillər bizə necə təsir edir

**Dərslik:** səh. 63 • **İş dəftəri:** səh. 53

| | |
|---|---|
| **Altstandartlar** | 3.4.4. Müxtəlif hava şəraitləri üçün fərqli geyim növlərini təsvir edir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, müxtəlif fəsilləri əks etdirən şəkillər, yarpaqsız ağ-qara formatda ağac təsviri olan şəkil, fəsillərə uyğun geyim şəkilləri, kağızdan kəsilmiş ulduzlar |

**Dərsin qısa planı**

**1. Cəlbetmə.** Fəsillərə görə hava necə dəyişir?

**2. Fəaliyyət.** Fəsillər.

**3. Öyrənmə**. Fəsillərə uyğun geyinək.

**4. Tapşırıq.** Dərslik: tap. №1-3. İD: tap. №1-5.

**5. Özünüzü yoxlayın.**

**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərə bayırdakı hava ilə bağlı sual verilir:

– Bu gün bayırda hava necədir?

– Dərsə gələndə necə geyinmisiniz?



Şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədilə oyun keçirilir.

**Oyun. "Nə səhvdir?"** Oyunun qaydaları izah edilir. Sinif dörd komandaya bölünür. Bütün komandalara fəsillər təsvir olunmuş şəkillər təqdim olunur. Şəkillərdə olan səhvləri qırmızı rəngli karandaş və ya flomaster ilə dairəyə almaq tapşırılır. Tapşırığı düzgün və tez yerinə yetirən komanda qalib olur.

Dərslikdə verilmiş uşaqların dialoqu və oyundan gəldikləri nəticələrə görə şagirdlərə sualla müraciət olunur:

– Şəkildə hansı fəsil təsvir olunub? Niyə belə düşünürsünüz?

– Hansı uşaq havaya uyğun geyinib? Havaya uyğun olmayan geyimdə bayıra çıxsaq, nə baş verər?

Şagirdlərin cavablarına əsasən onların fəsillərə dair məlumatlı olduqları müəyyən edilir.

**FƏALİYYƏT** Əvvəlki dörd komandada fəaliyyət davam etdirilir. Dərslikdəki fəaliyyəti oyun şəklində də təşkil etmək olar.

**Oyun. "Rənglə və uyğunlaşdır".** Oyunun qaydaları izah edilir. Hər bir komandaya nümunəyə uyğun gövdə və budaqlardan ibarət dörd ağac və müxtəlif fəsillərə xas geyim şəkilləri verilir.











Hər komanda hər bir ağacı fəsillərə görə rəngləməli və təsvirə müxtəlif əlavələr (məsələn, günəş şəkli, yağış və külək, qar və s.) etməlidir. Sonra fəslə uyğun geyimləri rənglədiyi ağac şəkillərinin yanına yerləşdirməlidir. Oyunun qaydalarına uyğun tapşırığı birinci və düz yerinə yetirən komanda qalib olur. Qalib komandanın hər bir üzvü ulduzla mükafatlandırılır.

**ÖYRƏNMƏ** Mətndə fəsillərin adları, fəsillərə görə hava şəraitinin müxtəlif olması, hər bir fəslin özünəməxsus xüsusiyyətləri, fəslə və hava şəraitinə görə geyim növlərinin müəyyən olunmasına dair məsələlər yer alır.

**Müəllimin nəzərinə!** Fəsillər coğrafi baxımdan Yer kürəsinin bir il ərzində Günəş ətrafında tam dövr etməsi nəticəsində yaranır. Lakin şagirdlərin yaş dövrünü nəzərə alaraq bu kimi məlumatların verilməsi məqsədəuyğun deyil.

Texniki imkanları olan siniflərdə *https://www.youtube.com/watch?v=xeIl71UcqQk və ya https://www.youtube.com/watch?v=AHfiL3yhJ0k* filmləri nümayiş etdirilə bilər.

Müzakirə sualı səsləndirilir və bütün siniflə müzakirə aparılır. Şagirdlərin cavablarına görə onların fəsillər haqqında fikirlərinin formalaşmasını, fəsillərin insanlara təsirini, hər bir fəslə uyğun ayları necə qavradıqları müəyyən olunur.

**TAPŞIRIQ** İlk iki tapşırıq şagirdlərin hava şəraiti, simvollar, fəsillər və hava şəraitinə uyğun olan geyimlər haqqındadır. Şagirdlər fəsillərə uyğun geyimləri xətlər vasitəsilə birləşdirir və simvollarla uyğunlaşdırır. Tapşırıq yerinə yetirilərkən dərslikdə verilməyən əlavə geyim növlərindən də istifadə oluna bilər. Məsələn:



3-cü tapşırıqda fəsillər və hava şəraiti ilə əlaqədar öyrənilən biliklər ümumiləşdirilir. Şagirdlər verilmiş fikirlərin düzgün və ya səhv olduğunu müəyyənləşdirib seçimlərini əsaslandırmalıdırlar. Məsələn:

1-ci, 3-cü və 5-ci fikrin doğru olduğu V ilə işarə edilir.

2-ci fikrin yanlış olduğu X-lə işarə edilir. Bu, hava şəraitinin fəsillərə görə dəyişməsi ilə əsaslandırılır.

4-cü fikrin yanlış olduğu X-lə işarə edilir, yaz fəslində havanın isinməsi və ağacların çiçəklənməsi ilə əsaslandırılır.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdlər ilin fəsillərini sadalaya və hər bir fəslə aid xüsusiyyətləri izah edə bilərlər.

*Dərinləşdirmə.* Şagirdlər fəsillərin bir-birindən fərqli xüsusiyyətlərini şərh edə bilərlər.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

• İlin hansı fəsilləri var? Qış ayları hansılardır? Hansı fəsildə qar yağır?
• Fəsilləri hansı əlamətlərinə görə fərqləndiririk? Yayda hava necə olur? Yazda nə geyinirik? Hər bir fəslə uyğun ayları sadalayın.

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İlin fəsillərini sadalayır. | Fəaliyyət, sual-cavab |
| Fəsillərə aid xüsusiyyətləri izah edir. | Tapşırıq, sual-cavab |
| İlin fəsillərinə uyğun geyim növlərini seçir və izah edir. | Tapşırıq, sual-cavab |

# Mövzu 24. Canlı və cansız

**Dərslik:** səh. 66 • **İş dəftəri:** səh. 55

| | |
|---|---|
| **Altstandartlar** | 1.2.1. Cansız və canlı varlıqları müəyyən edir. |
| **Köməkçi vasitələr** | Canlı və cansız varlıqlara dair şəkillər və nümunələr, kağız ulduzlar |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Oyuncaqlarım.
**2. Fəaliyyət.** Canlıların əlamətləri.
**3. Öyrənmə**. Canlı və cansız varlıqları tanıyaq.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-4.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərin diqqətini mövzuya yönəltmək üçün oyun keçirilə bilər.
**Oyun. “Canlı, yoxsa cansız?”** Oyunun qaydası izah edilir. Şagirdlərdən biri lövhə qarşısına dəvət olunur və ona canlıların hər hansı bir xassəsi söylənilir (məsələn: “hərəkət edir”). Sonra müəllim müxtəlif obyektlərin adlarını söyləyir. Şagird bu obyektin hərəkət edib-etmədiyini deməlidir. Məsələn:
• Müəllim: “Toyuq”. Şagird: “Hərəkət edir”.
• Müəllim: “Masa”. Şagird: “Hərəkət etmir”.
• Müəllim: “İnsan”. Şagird: “Hərəkət edir”.
• Müəllim: “Kitab”. Şagird: “Hərəkət etmir”.



Digər şagirdlər isə cavabın doğruluğunu smayliklərlə qiymətləndirə bilərlər. Belə üsulla tapşırığın icrası zamanı müəllim hansı şagirdin səhvə yol verdiyini müəyyən edə bilər.
Sonra başqa bir şagird dəvət olunur və canlıların digər bir xassəsi söylənilir (məsələn: “böyüyür”). Müəllim müxtəlif obyektlərin adlarını söyləyir, şagird isə bu obyektin böyüyüb-böyümədiyini söyləməlidir. Məsələn:
• Müəllim: “Ağac”. Şagird: “Böyüyür”.
• Müəllim: “Qələm”. Şagird: “Böyümür”.
• Müəllim: “Çiçək”. Şagird: “Böyüyür”.
• Müəllim: “Telefon”. Şagird: “Böyümür”.



Digər şagirdlər isə cavabın doğruluğunu smayliklərlə qiymətləndirə bilərlər. Belə üsulla tapşırığın icrası zamanı müəllim hansı şagirdin səhvə yol verdiyini müəyyən edə bilər.
Canlılara xas digər funksiyalar da səsləndirilir və müəllim müxtəlif obyektlərin adlarını söyləməklə şagirdlərin cavablarını yoxlayır.
Oyun bitdikdən sonra dərslikdə verilmiş suallar əsasında müzakirə təşkil edilir. Müzakirədə oyuncaqla insan arasındakı fərqi göstərməklə şagirdlərin diqqəti canlı ilə cansız əşyalara yönəldilir.

**FƏALİYYƏT** Tapşırıqda canlı və cansızları əlamətinə görə müəyyənləşdirmək və işarələmək tələb olunur. Tapşırığı praktik olaraq başqa formada da keçirmək olar. Məsələn, müəllim lövhəni iki hissəyə bölüb birində “canlı”, digərində isə “cansız” sözlərini yazır. Şagirdlərə yapışqanlı kağızda müxtəlif adlar və ya şəkillər verilir. Şagirdlər yapışqanlı kağızı “canlı” və ya “cansız” sözü yazılan hissəyə yapışdırmalıdır. Sonra seçimini əsaslandırmaq üçün onun əlamətlərini söyləyir.
*Əlavə fəaliyyət.* Müəllim təbii və süni bitki nümayiş etdirə bilər. Şagirdlərə bu nümunələri müşahidə edib canlı və cansız varlıqları fərqləndirən xüsusiyyət və ya əlamətləri sadalamaq tapşırılır.

**ÖYRƏNMƏ** Materialı izah edərkən şagirdlərin canlılar və cansızlar barədə təsəvvürlərini genişləndirmək üçün sinif otağında və sinifdən kənarda olan varlıqlara istinad etmək məqsədəuyğundur.

Canlıların əsas əlamətləri nümunələrlə izah edilir: canlılar çoxalır, qidalanır, böyüyür və hərəkət edir.



Cansızlar qidalanmır, tənəffüs etmir, hərəkət etmir, böyümür və çoxalmır.



Texniki imkanları olan siniflərdə bitkilərin hərəkətinə dair videomaterial nümayiş etdirmək məqsədəuyğundur. Şagirdlərə *https://www.youtube.com/watch?v=aSE0mIfDVto* küsdüm gülünə dair video nümayiş oluna bilər. Əgər küsdüm gülünü sinfə gətirmək mümkündürsə, üzərində müşahidə aparmaqla da əyani olaraq mənimsətmək olar. Canlı və cansızların əlamətlərini izah edərkən *https://www.youtube.com/watch?v=p51FiPO2_kQ* ("Canlı və cansız varlıqlar" animasiya filmi) nümayiş oluna bilər.

Dərslikdəki müzakirə sualları ilə şagirdlərin diqqəti canlıların əlamətlərinə yönəldilir.

**TAPŞIRIQ** Tapşırıq vasitəsilə şagirdlər canlı və cansız varlıqlara dair biliklərini nümayiş etdirirlər.

1. Canlılar su içirlər. *Doğru*
2. Oyuncaq ayı tənəffüs edir. *Yanlış*
3. Canlılar çoxalırlar. *Doğru*
4. Uşaqlar böyüdükcə dəyişirlər. *Doğru*

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə sinifdə olan üç canlı və beş cansız varlığı dəftərlərində yazmaq tapşırıla bilər.

*Dərinləşdirmə*. Şagirdlərə canlı və cansız varlığı fərqləndirən əlamətləri sadalamaq təklif oluna bilər.

**NƏ ÖYRƏNDİNİZ** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

- Canlıların əlamətləri hansılardır? Canlılar tənəffüs edir? Canlılar hərəkət edir? Canlılar böyüyür?
- Cansızlar canlılardan nə ilə fərqlənir? Cansızlar nəfəs alır? Cansızlar çoxalır? Cansızlar qidalanır?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Canlıları və cansızları əlamətlərinə görə müəyyən edir. | Fəaliyyət |
| Canlılara və cansızlara aid əlamətləri sadalayır. | Sual-cavab, tapşırıq |
| Canlıları və cansızları bir-birindən fərqləndirir. | Fəaliyyət, sual-cavab, tapşırıq |

# Mövzu 25. Yaşamaq üçün nə lazımdır

**Dərslik:** səh. 68 • **İş dəftəri:** səh. 57

| | |
|---|---|
| **Altstandartlar** | 1.2.2. İnsan və heyvanların yaşamaq üçün zəruri ehtiyaclarını sadalayır.<br>1.2.3. Bitkilərin yaşamaq üçün zəruri ehtiyaclarını sadalayır. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, iş vərəqləri, şəkillər |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Canlılara yaşamaq üçün nə lazımdır?
**2. Fəaliyyət.** Canlıların ehtiyacı.
**3. Öyrənmə**. Canlıların ehtiyacları haqqında mətn.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-4.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərə nəfəslərini bir müddət saxlamağı tapşırır. Sonra soruşur:
– Nəfəs almadan nə qədər dayana bildiniz? Əgər nəfəs almasanız, nə baş verər?
Şagirdlərin diqqəti dərslikdə verilmiş şəklə və suallara yönəldilir.
– Göyərçinlər və ördəklər su içməsələr və ya qidalanmasalar, nə baş verər?

**FƏALİYYƏT** Şagirdlərlə insanlar, heyvanlar və bitkilərin yaşaması üçün zəruri ehtiyacların müəyyən olunması məqsədilə fəaliyyət keçirmək olar. Yaşamaq üçün zəruri ehtiyaclar sadalanır. Səslənən fikrin doğru olduğunu şagirdlər əllərini yuxarı qaldırıb yelləməklə təsdiqləyirlər. Yanlış fikir səslənərsə, sakit vəziyyətdə qalaraq reaksiya vermirlər. Məsələn: “İnsan su içir”. Şagirdlər əllərini havaya qaldırıb yelləyirlər. “İnək ət yeyir”. Şagirdlər heç nə etmir, sakit dururlar. Nümunələr bu qayda ilə davam edir. Müəllim müxtəlif nümunələr təqdim edə bilər. Məsələn:
– Qələm nəfəs alır. Çiçək günəşdən istilik alır. Fil bitki ilə qidalanır. İt ot yeyir. Pələng ət yeyir. İnsan hava qəbul edir. İlan alovla nəfəs alır. Çanta su içir. Toyuq dən yeyir. Ağac tüstü ilə nəfəs alır.
Dərslikdə verilmiş sual ətrafında müzakirə təşkil edilir.

**ÖYRƏNMƏ** Mətndə insanların, heyvanların və bitkilərin yaşaması üçün vacib olan ehtiyaclar qeyd olunur. Canlıların yaşaması üçün hava, su, qida ilə yanaşı, günəş istiliyinin də olması vurğulanır.
**Müəllimin nəzərinə!** Mətni izah edərkən şagirdlərin mövzunu daha yaxşı mənimsəməsi üçün kiçik bir təcrübə aparmaq olar. Biri qurumuş və ya solmuş, digəri isə təravətli olan iki bitki nümayiş olunur. Şagirdlərə sual verilir:
– Bu bitkilər arasında hansı fərq var? Bitki nə üçün solur? Bitkiyə su ilə yanaşı, daha nələr lazımdır? Əgər bitkilərin kökünü suya qoyub günəşin altında saxlasaq, yaşayarmı?
Müzakirə təşkil edilərək insanlar, heyvanlar və bitkilərin yaşaması üçün vacib olan ehtiyaclar haqqındakı biliklər ümumiləşdirilir.
– Qidalanmaq nə üçün lazımdır? Bütün canlılar eyni cür qidalanırmı? Hava olmasa, nə baş verər? Günəş olmasa, nə baş verər?

**TAPŞIRIQ** Şagirdlər tapşırıq vasitəsilə yaşamaq üçün vacib olan faktorları fərqləndirdiklərini nümayiş etdirirlər. Tapşırıq aşağıdakı kimi yerinə yetirilir:
1. İnsanların yaşamaq üçün *televizora*/*<u>havaya</u>* ehtiyacı var.
2. Bitkilərin yaşamaq üçün *<u>günəş işığına</u>*/*güldana* ehtiyacı var.
3. Quşların yaşamaq üçün *qəfəsə*/*<u>suya</u>* ehtiyacı var.

**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərə bitkilərə və heyvanlara yaşamaq üçün vacib olan ehtiyacları sadalamağı tapşırmaq olar.
*Dərinləşdirmə.* Şagirdlərə insanların, heyvanların və bitkilərin yaşaması üçün nələrə ehtiyac olduğunu aşağıdakı cədvəldə tamamlamaq tapşırılır.

| İnsanlar | Heyvanlar | Bitkilər |
| --- | --- | --- |
| *su* | *su* | *su* |
| | | |

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

• Heyvanların canlı qalmaq üçün nəyə ehtiyacı var? Hava olmasa, heyvanlar yaşayar? Heyvanlar qidalanmasa, nə baş verər?

• Bitkilərə canlı qalmaq üçün Günəşdən başqa nə lazımdır? Su olmasa, bitkilərlə nə baş verər?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
| --- | --- |
| İnsanların, heyvanların və bitkilərin yaşaması üçün lazım olanları müəyyən edir. | Fəaliyyət |
| Canlıların yaşaması üçün lazım olanları təyinatına uyğun müəyyənləşdirir. | Sual-cavab, tapşırıq |
| Canlıların yaşaması üçün lazım olanları təyinatına uyğun fərqləndirir. | Fəaliyyət, sual-cavab, tapşırıq |

| 5-ci BÖLMƏ | Ehtiyatlı davranaq |
|---|---|

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 26 | Nəqliyyat vasitələri | 1 | 72 | 60 |
| Mövzu 27 | Diqqətli olaq | 1 | 74 | 62 |
| Mövzu 28 | Seldən necə qorunmaq olar | 1 | 76 | 64 |
| Mövzu 29 | Təcili zəng | 1 | 78 | 66 |
| | **CƏMİ** | **4** | | |

**Bölmənin qısa icmalı**

Bölmə həyat fəaliyyətinin təhlükəsizliyi ilə bağlı mövzuları əhatə edir. Kiçikyaşlı məktəblilərin təhlükə haqqında məlumatları qeyri-müəyyəndir və ailədə səsləndirilən qadağalarla məhdudlaşır. Adətən, təhlükə riski olan əşyalar evdə gizli saxlanılır, yaxud da onların istifadəsinə aid qadağalar qoyulur. Amma uşaqlar risklər barədə məlumatlandırılmır, təhlükəli vəziyyətlərdə necə davranılması ilə bağlı aydın təlimatlar verilmir.

Məktəb mühitinin təhlükəsizliyini təmin etməyin səmərəli yollarından biri şagirdlərdə ehtiyatlı davranmağı təbliğ etməkdir. Ehtiyatlı davranmaq üçün şagirdlər müxtəlif əşyaların yarada bildiyi təhlükələr haqqında məlumatlar əldə etməlidirlər. Şagirdlər məlumatlara əsaslanaraq və ətraf mühiti müşahidə edərək nəyə diqqət yetirmək, şübhəli vəziyyətlərdə məsuliyyətli qərar qəbul edib özünü necə aparmaq kimi bacarıqlarını inkişaf etdirirlər. Səbəb-nəticə əlaqələrini tədqiq edərək gündəlik təcrübədə öz hərəkətlərini dəyərləndirməyi və əsaslandırmağı öyrənirlər.

Uşaq situasiyanı təhlil edib potensial müsbət və mənfi nəticələri ölçüb-biçməyi öyrənir, "... olduqda nə baş verə bilər?" düşünüb səbəb-nəticə əlaqəsini dərk edir. Beləliklə, o, tədricən ekstremal hallarda tələb olunan məsuliyyətli davranışını müəyyən edir. Başqalarına qarşı öhdəlikləri dərk edib həm özünü, həm ətrafdakıları düşünərək müstəqilliyini inkişaf etdirir və qaydalara əsaslanaraq ümumi təhlükənin qarşısını almaq üçün məsuliyyəti öz üzərinə götürməyə hazır olur. Bu da öz növbəsində özünüidarəetmə və məsuliyyətli qərarvermə kimi sosial-emosional bacarıqların formalaşmasına təkan verir.

Bölmənin ilk mövzusu "Nəqliyyat vasitələri"dir. Şagirdlər nəqliyyat vasitələrinin təyinatını öyrənir, onları növünə görə (su, hava, yerüstü) fərqləndirirlər. Mövzunun ikinci təlim məqsədi isə nəqliyyat vasitələrindən təhlükəsiz istifadə qaydalarının mənimsədilməsidir.




"Diqqətli olaq" mövzusu azyaşlıların təhlükəsizliyi ilə bağlı aktual məsələlərə toxunur. Mövzunun gözlənilən təlim nəticələri uşaqların özünüidarəetmə və məsuliyyətli qərarvermə sosial-emosional bacarıqlarının inkişafına yönəlmişdir.

"Seldən necə qorunmaq olar" mövzusu şagirdlərin təbii fövqəladə hadisələrlə ilk tanışlığıdır. Mövzuda sel və subasma hadisələrinin başvermə səbəbləri və belə hallarda insanların əməl etməli olduğu davranışlardan bəhs edilir.

"Təcili zəng" texnogen qəza vəziyyətlərində davranış qaydaları haqqındadır. Mövzuda ehtiyatsız davranış, nəzarətsiz cihazlar və bunun nəticəsində yaranan təhlükəli vəziyyətlər, risklər haqqında danışılır, yanğın hadisəsi baş verərsə, dərhal hansı nömrəyə zəng etmək, hansı sualları cavablandırmağa hazır olmaq kimi addımlar təqdim olunur.

**Bölməyə giriş**. Dərsliyin əvvəlki bölmələrindən fərqli olaraq bu bölmə məzmununa görə bir qədər əlahiddədir. Ona görə də müəllim bölməyə həyat fəaliyyətinin təhlükəsizliyinə aid suallarla başlaya bilər:

– Təhlükə deyəndə nə başa düşürsünüz? Biz gündəlik həyatımızda hansı təhlükələrlə rastlaşa bilərik? Təhlükələrdən özümüzü necə qoruya bilərik? Bizim təhlükəsizliyimizi kimlər qoruyur?

# Mövzu 26. Nəqliyyat vasitələri

**Dərslik:** səh. 72 • **İş dəftəri:** səh. 60.

| | |
|---|---|
| **Altstandartlar** | 2.2.4. Nəqliyyat vasitələrini tanıyır və adlandırır.<br>2.2.5. Liftdən və eskalatordan təhlükəsiz istifadə qaydalarını bilir və əməl edir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, rəngli markerlər, iş vərəqləri, şəkillər, kağız ürəklər |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** İstifadə etdiyimiz nəqliyyat vasitələri.
**2. Fəaliyyət.** Nəqliyyat vasitələri.
**3. Öyrənmə**. Nəqliyyat vasitələri. Liftdə və eskalatorda davranış qaydaları.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Bu mərhələdə şagirdlərlə kiçik sorğu keçirilir. Sorğunun nəticəsi lövhədə çəkilmiş cədvələ rəngli markerlərlə qeyd edilir.
– Məktəbə hansı nəqliyyat vasitəsi ilə gəlmisiniz?

***Şagird sayı***

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5 | | | Vüqar | | | |
| 4 | Yaqut | | İnci | | | |
| 3 | Səid | Fateh | Xalid | Könül | Aysel | |
| 2 | Səlma | Mehin | Sərdar | Aysu | Leyla | |
| 1 | Vaqif | Rafiq | Nigar | Azər | Afiq | |
| | **Piyada** | **Taksi** | **Avtobus** | **Avtomobil** | **Metro** | **Digər** |

Şagirdlərin adları məktəbə gəldikləri nəqliyyat növünə görə cədvəldə qeyd edilir və yekunda rənglərlə kənarları haşiyələnərək sütunlu diaqram yaradılır.
Neçə şagirdin hansı nəqliyyat vasitəsindən istifadə etdiyi müəyyənləşdirilir. Müzakirə zamanı şagirdlərin hansı nəqliyyat vasitələrini tanıdıqları aydınlaşdırılır.

**FƏALİYYƏT** Nəqliyyat vasitələrinin növlərinə görə şagirdlərlə oyun keçirilir.
**Oyun. "Yerdə, yerin altında, səmada və suda".** Oyunun qaydaları izah edilir. Lövhədə aşağıdakı şəkildə nəqliyyat növlərinin adı qeyd edilir.

| Yerüstü nəqliyyat | Yeraltı və digər nəqliyyat | Su nəqliyyatı | Hava nəqliyyatı |
|---|---|---|---|

Sinif 4 komandaya bölünür. Hər komanda verilmiş vaxt ərzində dörd nəqliyyat növünə uyğun nəqliyyat vasitələrinin adlarını ayrı-ayrı vərəqlərdə yazır. Yazdıqları nəqliyyat vasitələrinin siyahısını uyğun nəqliyyat növlərinin altında yerləşdirirlər. Hər bir nəqliyyat növü üzrə ən çox nəqliyyat vasitəsi yazan komanda qalib olur. Qalib komanda kağız ürəklərlə mükafatlandırılır. Nümunə olaraq sonda bir komanda üzrə belə siyahı tərtib oluna bilər:

| Yerüstü nəqliyyat | Yeraltı və digər nəqliyyat | Su nəqliyyatı | Hava nəqliyyatı |
|---|---|---|---|
| *Avtomobil, avtobus, qatar, velosiped...* | *Metro, lift, eskalator...* | *Gəmi, qayıq, bərə, yaxta...* | *Təyyarə, helikopter, hava şarı...* |

Dərslikdə verilmiş fəaliyyət yerinə yetirilir. Fəaliyyətin icrası nəqliyyat vasitələrinin adını və növünü (su, hava, yerüstü) müəyyən etməyi nəzərdə tutur. Fəaliyyət iki mərhələdən ibarətdir. Birinci mərhələdə

şagirdlər nəqliyyat vasitələrinin adını şəkillərin altındakı çərçivələrə yazacaq, ikinci mərhələdə isə onların hərəkət etdiyi yolu müəyyən edəcəklər.

**ÖYRƏNMƏ** Mətndə nəqliyyatın funksiyasından və əhəmiyyətindən bəhs edilir, həmçinin lift və eskalator da nəqliyyat vasitəsi kimi təqdim olunur və bu nəqliyyat vasitələrindən istifadə qaydaları izah edilir.

– Nəqliyyat vasitələri işlərimizi necə asanlaşdırır?

Sual ətrafında müzakirə aparmaq olar. Müzakirə zamanı verilən cavablar şagirdlərin gündəlik həyatdan və böyüklərdən əldə etdikləri biliklərə əsaslanır. Müzakirə iki əlaqəli istiqamətdə təşkil edilə bilər:

1) insanların həyatı üçün nəqliyyatın əhəmiyyəti və faydası;

2) nəqliyyatdan istifadə qaydaları və ehtiyatlı davranış.

Şagirdlərin diqqətini eskalator şəklinin yanındakı işarəyə yönəldib sual vermək olar:

– Bu işarənin mənası nədir?



Şagirdlər "Eskalatorda qaçmaq olmaz!" kimi fikirlər səsləndirə bilərlər.

– Eskalatorda qaçmaq hansı fəsadlara səbəb ola bilər?

Bu və ya oxşar suallar şagirdlərin təhlükələri dəyərləndirmə bacarıqlarını müəyyənləşdirməyə imkan yaradır.

**TAPŞIRIQ** Dərslikdə verilmiş tapşırığın icrası zamanı şagirdlər lift və eskalatordan təhlükəsiz istifadəyə dair öyrəndiklərini tətbiq edərək möhkəmləndirirlər.

Tapşırığın icrasından sonra bütün siniflə oyun keçirilə bilər.

**Oyun. "Bəli – xeyr".** Oyunun qaydaları izah edilir. Müəllim şagirdlərdən birinə müraciət edərək hər hansı bir fikir söyləyir. Məsələn:

Avtobus hava nəqliyyatıdır. (*Xeyr*)
Gəmi yerüstü nəqliyyatdır. (*Xeyr*)
Metro yeraltı nəqliyyata aiddir. (*Bəli*)
Təyyarə hava nəqliyyatıdır. (Bəli)
Qatar sərnişin və yük daşıyır. (*Bəli*)
Helikopter hava nəqliyyatıdır. (*Bəli*)



Şagird "Bəli" və ya "Xeyr" cavabı verməklə münasibət bildirir. Digər şagirdlər isə cavabın doğruluğunu smayliklərlə qiymətləndirə bilərlər. Belə üsulla tapşırığın icrası zamanı müəllim hansı şagirdin səhvə yol verdiyini müəyyən edə bilər.

**Diferensial təlim**

*Dəstək.* Şagirdlərə şəkillər göstərib (fayton, avtomobil) onlardan hansının müasir dövrə, hansının isə keçmişə aid olduğunu soruşmaq, nəqliyyat vasitələrinin zaman keçdikcə necə dəyişdiyini təsvir etmək tapşırılır.

*Dərinləşdirmə.* Şagirdlərə gələcəyin nəqliyyat vasitələrinin şəklini çəkməyi təklif etmək olar.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

• Hansı nəqliyyat vasitələrini tanıyırsınız? Nəqliyyat vasitələri nə üçündür? Nəqliyyatın faydası nədir? Nəqliyyat vasitələri bir-birindən necə fərqlənir? Hansı nəqliyyat vasitəsi daha sürətlidir? Hansı nəqliyyat vasitəsi dəmir relslər üzərində hərəkət edir? Hansı nəqliyyat vasitələrindən daha çox xoşunuz gəlir? Nə üçün?

• Liftdə və eskalatorda hansı qaydalara əməl etmək lazımdır? Liftdən nə üçün istifadə edilir? Liftdən istifadə zamanı liftin düymələri ilə oynamaq olarmı? Nə üçün liftdə atılıb-düşmək olmaz? Eskalator nədir? Hərəkət edən eskalatorda nələri etmək düzgün deyil? Bu zaman hansı təhlükələr yarana bilər?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Nəqliyyat vasitələrini sadalayır. | Fəaliyyət |
| Nəqliyyat vasitələrinin hərəkət yolunu müəyyən edir. | Sual-cavab |
| Liftdən və eskalatordan təhlükəsiz istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Tapşırıq |

# Mövzu 27. Diqqətli olaq

**Dərslik:** səh. 74 • **İş dəftəri:** səh. 62

| | |
|---|---|
| **Altstandartlar** | 2.2.1. Tanımadığı insanlarla ünsiyyətin zərərlərini izah edir.<br>2.2.2. Şübhəli əşyalarla davranış qaydalarını bilir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, iş vərəqləri, şəkillər, kağız ürəklər |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Evdə tək olarkən təhlükəsizliyin qorunması.
**2. Fəaliyyət.** Yad insanlar və sahibsiz əşyalar.
**3. Öyrənmə**. Təhlükəli vəziyyətlərdə davranış qaydaları.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim dərsə şagirdlərin bildiyi "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılı ilə başlaya bilər. Nağıl üzrə rollu oyun təşkil etmək olar. Ana keçi, Şəngülüm, Şüngülüm, Məngülüm, canavar və dəmirçi rolları şagirdlər arasında bölünür. Nağılın səhnələşdirilməsi üçün şagirdlərə təlimat verilir. Səhnəcik bitdikdən sonra müəllim suallarla müraciət edir:




– Canavar evə necə daxil ola bildi? Çəpişlərin səhvi nədə oldu? Nağılı istədiyiniz kimi necə dəyişərdiniz?
Dərslikdəki mövzu ilə nağılda baş verənlər əlaqələndirilir. Dərslikdə təsvir olunan situasiya müzakirə edilir. Müəllim uşaq və qapını döyən naməlum şəxs arasındakı dialoqu oxumağı təklif edir. Bundan sonra müəllim sinfə müraciətlə soruşa bilər:
– Bu halda uşaq nə etməlidir? "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılı ilə şəkil arasında hansı oxşarlıq var?

Şagirdlər nağıldan gəldikləri nəticəyə, əsasən də ailədə səsləndirilən qadağalara istinad edərək "Qapını açmamalıdır!" deyə bilərlər. Sonra müəllim gündəlik həyatda belə vəziyyətlə qarşılaşmağın mümkünlüyünü izah edərək əlavə suallarla müzakirəni davam etdirə bilər.

– Biz hər gün tanımadığımız insanlarla qarşılaşırıq. Belə insanlara "yad adamlar" deyirlər. Uşaqlar yad adamlarla hansı yerlərdə rastlaşa bilərlər?

Şagirdlərin cavablarını dinlədikdən sonra əlavə etmək olar:

– Yad adamların çoxu heç kimə pislik etmək istəməyən sadə insanlardır, lakin bəzi yad adamlar təhlükəli ola bilər. Bəs onların təhlükəli olduğunu necə müəyyən etmək olar?

Sualın məqsədi potensial təhlükəli insanları sərbəst şəkildə müəyyənləşdirmək bacarığını inkişaf etdirməyə yönəlmişdir. Şagirdlərin cavablarını dinlədikdən sonra onları potensial təhlükəli yad adamın mümkün davranışları, nitqi və geyimi barədə məlumatlandırmaq lazımdır.

**Təhlükəli yad adamlar necə davranırlar:** çox əsəbi, tələsən, ya da əksinə, həddindən artıq sakit və təmkinli görünə bilərlər. Bu davranışları şagirdlərə nümunələrlə göstərmək məqsədəuyğundur. Onlar uşaqları dilə tuturlar, əllərindən gələni edirlər ki, uşaqlar onların dost olduğuna inansınlar, təhlükəsiz hesab edib güvənsinlər. Yad adam yaxınlaşaraq gəzinti və ya hədiyyə təklif edə bilər (*şirniyyat, meyvə suyu və ya oyuncaq*) və ya bir işdə kömək istəyə bilər (*məsələn, itirilmiş iti tapmaqda kömək etmək kimi*).

**Təhlükəli yad adamlar necə danışırlar:** asta səslə ya tez-tez (*sürətlə*) danışa, münasibət qurmaq üçün yaxın dost kimi müraciət edə bilərlər.

**Təhlükəli yad adamlar necə geyinirlər:** ola bilsin ki, uşaqlar yad adamları pis geyimli, qorxulu insanlar kimi təsəvvür edirlər. Uşaqlar bilməlidirlər ki, onlar adi görünüşlü insanlar kimi səliqəli geyimdə də ola bilərlər. İnsanların görünüşünə diqqət etmək kifayət deyil, onların hərəkətlərinə də diqqət yetirmək lazımdır.

Müzakirədə uşaqlar üçün potensial təhlükəli yad insanlar haqqında məlumatlarla bərabər, uşaqları qoruyanlar haqqında da danışmaq məqsədəuyğundur. "Kim sizi qoruyur?" və "Kiminlə özünüzü rahat və təhlükəsiz hiss edirsiniz?" və s. suallarla aparılan qısa sorğu ilə şagirdlərin diqqətini ətrafda onların təhlükəsizliyini təmin edən insanlara cəlb edərək fəaliyyətə keçmək olar.

**FƏALİYYƏT** Tapşırıq oyun şəklində də keçirilə bilər.

**Oyun. "Yad insanlar və sahibsiz əşyalar".** Oyunun qaydaları izah edilir. Fəaliyyət iki səhnəcikdən ibarətdir. Oyunçular müəllim tərəfindən seçilə, yaxud könüllülər dəvət edilə bilər. Onların nəzərinə çatdırılır ki, "yad adam"ın obrazını öyrəndikləri məlumata əsasən canlandırmağa çalışmalıdırlar. İki səhnəcikdə uşaqlar rollu oyun vasitəsilə təhlükəli vəziyyəti təsvir edib ehtiyatlı davranış qaydalarını nümayiş etdirirlər. Bu fəaliyyətdə şagirdlər fəal proaktiv davranışı modelləşdirirlər. Fəaliyyət onların özünüidarəetmə və məsuliyyətli qərarvermə sosial-emosional bacarıqlarının inkişafına yönəlmişdir.

**ÖYRƏNMƏ** Mətndə valideynlər yaxında olmadıqda ünsiyyət qurmaq istəyən yad adamlarla davranış qaydaları izah edilir. Sahibsiz əşyalara potensial təhlükə kimi yanaşmaq, ehtiyatlı davranmaq tövsiyə olunur və bu barədə kimə məlumat verməyin mümkünlüyü izah edilir.

Suallar ətrafında müzakirə təşkil edilə bilər.

• Tanımadığınız insanla ünsiyyət qurarsınız? Niyə?

• Sahibsiz əşya gördükdə nə etməlisiniz?

Şagirdlər sualları ailədən və məktəbəhazırlıq qruplarından öyrəndikləri biliklərə əsasən cavablandırırlar. Bu zaman səbəb-nəticə əlaqəsini qurmaqla qadağaların təhlükəsizliyə xidmət etdiyi şərh olunur.

– Yad adam sizə yaxınlaşıb bir şey təklif etsə, 3 addımlı davranış modelini təkrarlayın.

1-ci addım. "Yox!" – demək.

2-ci addım. Dərhal yad adamdan uzaqlaşıb özünü təhlükəsiz yerə (həyətinizə, məktəbin həyətinə, yaxın marketə, tanış adamın yanına və s.) çatdırmaq.

3-cü addım. Məlumat vermək.

3-cü addımla bağlı təhlükəsizliyi təmin edən insanlar mövzusunun davamı olaraq ictimai yerlərdə daha kimlərə müraciət etməyin mümkün olduğunu şagirdlərin nəzərinə çatdırmaq məqsədəuyğundur.

– Elə vəziyyət yarana bilər ki, yaxınlıqda xidməti geyimdə (satıcı, polis, mühafizəçi) insanlar olmasın, belə olan halda ətrafdakı nənə və babalara, qadınlara və yanında uşaq olan kişilərə yaxınlaşmaq məqsədəuyğundur.

**TAPŞIRIQ** Uşaqlara sahibsiz əşyalarla bağlı situativ tapşırıq təklif olunur. Şagirdlər təklif olunan üç cavab variantından birini seçməlidirlər. Müəllim fərqli variantları seçən şagirdlərə öz seçimlərini əsaslandırmağı təklif edə bilər. Bu zaman müzakirə aparılır.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə "yad adam" və "sahibsiz əşya" anlayışlarını izah etmək təklif oluna bilər.

*Dərinləşdirmə.* Şagirdlərə müxtəlif situasiyalar təklif olunur və onlara necə davranacaqlarını əsaslandırmağı tapşırmaq olar. Məsələn:

• Yad adam sizi evinə qonaq dəvət edir.

• Yad adam ona kömək etməyi xahiş edir.

• Sizi məktəbdən götürmək üçün yad adam gəlmişdir.

• Yad adam sizə dadlı yemək təklif edir.

**Müəllim üçün əlavə məlumat.** Psixoloqlar ənənəvi "qorxu-qadağa" prinsipinə əsaslanan tərbiyə yanaşmasından fərqli olaraq uşağın təlimatlandırılmasına və davranışında müstəqilliyinin inkişafına üstünlük verirlər. Təhlükəli vəziyyətlər və insanlar haqqında söhbəti açıq, dürüst ünsiyyət üslubunda qurmaq lazımdır. Uşaqlarda qorxu hisslərinin qarşısını almaq üçün yaxşı olar ki, müəllim dərsi təmkinli, pozitiv tonda aparsın.

• Uşaqları yad adamlardan təcrid etmək həmişə mümkün deyil, amma onlara təhlükəsiz davranış qaydalarını öyrətmək mümkündür.

• Uşaqlara öz intuisiyalarını, yəni daxili hisslərini (nəyinsə yaxşı olmadığını bildirən içdən gələn səsi eşitmək) dinləmək vərdişinin təşviqi də vacibdir. Uşaqlara öyrətmək lazımdır ki, əgər kimsə onları narahat edirsə və ya nəyinsə düzgün olmadığını hiss edirlərsə, dərhal oradan uzaqlaşmalıdırlar.
• Uşaqlar başa düşməlidirlər ki, təhlükəsizlikləri üçün yalnız valideynləri deyil, onların özləri də məsuliyyət daşımalıdırlar.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:
• Tanımadığınız insanlar sizə yaxınlaşanda nə etmək lazımdır? Nə üçün uşaqlara yad adamlarla ünsiyyət qurmaqdan çəkinməyi tövsiyə edirlər? Uşaqlar özlərini yad adamların onlarla ünsiyyət qurmaq cəhdlərindən necə qoruya bilərlər? Uşaqlar tanımadıqları şəxslərlə nə zaman çəkinmədən ünsiyyət qura bilərlər?
• Sahibsiz bağlama görəndə kimə müraciət etməlisiniz? Sahibsiz əşya və bağlamalara toxunmaq nə üçün təhlükəli ola bilər? Təhlükələrin qarşısını necə almaq olar?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.
**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Yad insanların arasında potensial təhlükəli şəxsləri seçir. | Sual-cavab, oyun, fəaliyyət |
| Yad insanlarla ünsiyyətdən çəkinmək tövsiyəsinin və sahibsiz əşyalara toxunmamaq qadağasının təhlükəsizliyə xidmət etməsini öz fikirləri ilə izah edir. | Sual-cavab, oyun, fəaliyyət, tapşırıq |
| İctimai yerlərdə rəsmi şəxsləri uniformasına görə təsvir edir. | Fəaliyyət, tapşırıq |
| Təhlükəli vəziyyət barədə məlumat verməyin yollarını izah edir. | Fəaliyyət, sual-cavab, tapşırıq |

## Mövzu 28. Seldən necə qorunmaq olar

**Dərslik:** səh. 76 • **İş dəftəri:** səh. 64

| | |
|---|---|
| **Altstandartlar** | 2.3.1. Təbii fövqəladə hadisələri təsvir edir.<br>2.3.2. Təbii fövqəladə hadisələr zamanı təhlükəsizlik qaydalarını sadalayır. |
| **Köməkçi vasitələr** | Plastilin, kiçik qutular, kiçik vedrə, su, su butulkaları |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Sel və daşqın təhlükəsi.
**2. Fəaliyyət.** Sellə mübarizə.
**3. Öyrənmə**. Sel və daşqının yaranma səbəbləri və bu zaman davranış qaydaları.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-5.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Şagirdlərə dərslikdəki şəklə əsasən baba ilə nəvənin dialoqunu oxumaq təklif oluna bilər. Sonra şagirdlərə aşağıdakı sual verilir:

– Sizcə, baba nə demək istəyir? Baba hansı təhlükədən danışır?

Şagirdlər sualı cavablandırmaqda çətinlik çəksələr, onlara yönəldici suallarla kömək edilə bilər:

– Baba və nəvə harada dayanıblar? Çayın kənarındakı evlərə hansı təhlükələr ola bilər?

Şagirdlərin cavabları dinlənildikdən sonra ikinci sualın müzakirəsinə keçmək olar.

– Bu təhlükədən necə qorunmaq olar? Çaya yaxın yerdə ev tikmək üçün onun yerini necə seçmək olar?

**FƏALİYYƏT** Tapşırıq praktik yerinə yetirilə bilər. Bunun üçün sinfə böyük ləyən, kiçik vedrədə su və butulka gətirilə bilər. Şagirdlərə dərslikdəki kimi plastilindən qum kisələri hazırlamaq tapşırılır. Onların qum kisələri haqqında biliklərini yoxlamaq üçün suallar verilir:

– Siz qum kisəsi görmüsünüzmü? Plastilindən qum kisəsini necə hazırlaya bilərsiniz?

Əgər şagirdlərin qum kisəsi haqqında təsəvvürləri yoxdursa, müəllim tərəfindən nümunə olaraq plastilindən qum kisəsi hazırlanır və şagirdlərə nümayiş olunur. Sonra şagirdlərin hər birinə 5 qum kisəsi hazırlamaq tapşırılır. Qum kisələri hazır olduqdan sonra sinfə gətirilmiş ləyənin içərisində çay, evlər və ağaclar olan kiçik maket düzəldilir.

Müəllim tərəfindən ləyənin içərisində çayın axması üçün yer hazırlanır. Sinfə gətirilmiş kiçik qutular vasitəsilə çayın ətrafında evlərin maketi qurulur. Şagirdlərin köməyi ilə plastilindən ağac maketləri də hazırlanıb evlərin yaxınlığında yerləsdirilə bilər. Maket tam hazır olduqdan sonra müəllim problemli situasiya yaradır.



– Uşaqlar, təsəvvür edin ki, qəflətən güclü yağış başlayır və evimizin yanından keçən çayın suyu çoxalır. Çayın suyu daşır və evimizə tərəf gəlir. Sizcə, biz nə etməliyik?

Müəllim bunu deyərək su butulkası və ya vedrə ilə çayın suyunu artırmağa başlayır. Əgər şagirdlər hazırladıqları qum kisələrindən istifadə etmək haqqında fikirlər səsləndirməz-sə, müəllim şagirdlərin yaşadıqları mühiti (şəhər, rayon, qəsəbə və ya kənd) nəzərə alaraq yönəldici suallar verir.

Sualların məqsədi diqqəti suyun qarşısını almaq üçün hər hansı bir maneədən (qum kisələrindən) istifadə etməyə yönəltməkdir.

– Qum kisələrini nə üçün evlərin qarşısına düzürlər?

– Nə zaman çaylarda, göllərdə, kanallarda su arta və ətrafı basa bilər?

Bu fəaliyyətlə şagirdlərdə güclü yağışın yağması, qarın əriməsi ilə çaylarda suyun artması və selin, daşqının əmələ gəlməsi fikri formalaşır. Həmçinin həyata keçirilən praktik fəaliyyət onlarda selin, daşqının qarşısını almaq üçün atıla biləcək ilk addımlar haqqında təsəvvür yaradır.

**ÖYRƏNMƏ** Mətndə sel və daşqının qarların əriməsi, çoxlu yağış yağması nəticəsində əmələ gələn fəlakət olduğu göstərilir. Sel və daşqın zamanı suyun səviyyəsindən hündürdə olan yerlərə çıxmaqla təhlükədən qorunmağın mümkünlüyü qeyd olunur.

Suallar əsasında müzakirə təşkil edilir.

– Yaz fəslində selin başvermə səbəbi nədir?

Bu suala şagirdlər mətndən öyrəndikləri məlumat əsasında cavab verə bilərlər. Şagirdlərin yağış, külək, sel və daşqının başvermə səbəblərini araşdırmasını istiqamətləndirmək üçün “Bu gün hava necədir” dərsi ilə inteqrasiya yaratmaq olar.

– Sel və daşqın zamanı nə üçün hündür yerə çıxmaq lazımdır?

Şagirdlər sualı cavablandıraraq səbəb-nəticə zəncirini qurur, təhlükəsizliyə yönələn davranışları şərh edirlər.

Texniki imkanları olan siniflərdə mobil telefon və ya kompüter vasitəsilə sel və daşqınlar haqqında animasiya filmi *(https://www.youtube.com/watch?v=b8xu3uppYOc)* nümayiş oluna bilər.

Texniki imkanları olmayan siniflərdə müəllim yaşadıqları mühitə uyğun olaraq nümunələr verə bilər.

**TAPŞIRIQ** Dərslikdə şəkildəki davranışlara əsasən tapşırığın yerinə yetirilməsi qeyd olunur. Yanlış və doğru olan şəkillərin seçilməsi tələb olunan tapşırıqlarda müəllim şagirdlərin diqqətini insanların hərəkətlərinə yönəldir. Şagirdlər özləri müəyyən etməlidirlər ki, sel, daşqın təhlükəsi olan yerlərdə çayın kənarında ev tikmək düzgün olmadığı kimi, orada oynamaq da təhlükəlidir.



**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərə sel və daşqının vura biləcəyi zərərləri izah etmək təklif oluna bilər.
*Dərinləşdirmə.* Sel və daşqından qorunmaq üçün qaydalar tərtib etməyi tapşırmaq olar.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:
- Sel və daşqın hadisəsi nə üçün baş verir? Havalar istiləşəndə çayların suyu nə üçün çoxalır? Çayların suyunun çoxalması nə üçün təhlükəli olur?
- Sel və daşqın təhlükəsindən necə qorunmaq olar? Daşqın nədir? Hansı yerlərdə sel təhlükəsi ola bilər? Qəfil sel hadisəsi baş verərsə, hansı addımları atmaq lazımdır?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.
**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Sel və daşqın hadisəsinin baş verməsini təsvir edir. | Sual-cavab, fəaliyyət |
| Sel və daşqın zamanı təhlükəsizlik qaydalarını sadalayır. | Fəaliyyət, tapşırıq |
| Sel və daşqından qorunmağın yollarına dair sadə nümunələr göstərir. | Sual-cavab, fəaliyyət, tapşırıq |

## Mövzu 29. Təcili zəng

**Dərslik:** səh. 78 • **İş dəftəri:** səh. 66

| | |
|---|---|
| **Altstandartlar** | 2.3.3. Texnogen qəza haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.<br>2.3.4. Texnogen qəza anında zəng etməli olduğu telefon nömrəsini bilir. |
| **Köməkçi vasitələr** | Rəngli karandaşlar, flomaster, vərəqlər, kağız ürəklər |

**Dərsin qısa planı**
**1. Cəlbetmə.** Yanğının səbəb-nəticə əlaqəsinə aid təsəvvürlər.
**2. Fəaliyyət.** Ünvanımı bilirəm.
**3. Öyrənmə**. Yanğın zamanı davranış qaydaları.
**4. Tapşırıq.** Dərslik: tap. №1. İD: tap. №1-6.
**5. Özünüzü yoxlayın.**
**6. Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Dərslikdəki şəkil əsasında sual-cavab təşkil edilə bilər.
– Uşaqlar niyə həyəcanlıdırlar? Şəkildə hansı hissələrdə alov görürsünüz? Sizcə, ilk olaraq yanğın harada başlayıb? Yanğının baş verməsinə səbəb nə ola bilər? Yanğını söndürmək, həmçinin pişiyi xilas etmək üçün nə edərdiniz?

Suallar cavablandırılarkən şagirdlərin diqqəti aşağıda sadalanan bilik və bacarıqlara yönəldilir.
**Müşahidəçilik:** təhlükəli vəziyyətləri vaxtında müəyyən etmək üçün ətrafa diqqət yetirib müşahidəçi olmaq.

**Səbəb-nəticə əlaqəsi:** qəza hadisələrinin nəticələrini qabaqlamaq üçün onların səbəbləri haqqında məlumatlı olmaq.
**Nə etmək:** qəza hadisəsi anında, təhlükəli vəziyyətlərdə davranış qaydalarına əməl edib özünü və başqalarını xilas etmək.
Sonra şagirdlərin cavabları ümumiləşdirilir və belə yangın hadisələrinin insanların ehtiyatsız davranışları nəticəsində baş verdiyi önə çəkilir.
**FƏALİYYƏT** Tapşırıq hər bir şagirdin yaşadığı ünvanı yadda saxlamağa xidmət edir. Şagirdlər yaşadıqları ünvanı – ölkə, şəhər (qəsəbə, kənd), küçə ardıcıllığı ilə onların adını və ev nömrəsini yazmalıdırlar. Fəaliyyətin icrasına başlamazdan əvvəl müəllim şagirdləri işin icrası barədə təlimatlandırır. Şagirdlər əvvəlki mövzulardan ölkəmizin adını bilirlər. Ancaq digər dairələrdəki informasiyanı yazmaq uşaqlara çətin ola bilər. Buna görə də onlara başa salmaq lazımdır ki, ölkədə çoxlu insan yaşayır və onlar şəhərlərdə, qəsəbə və kəndlərdə məskunlaşıblar. Şəhərdə, qəsəbədə, kənddə yaşayanlar – hər kəs öz ünvanını yazmalıdır. Şəhər və qəsəbələrdə küçələr və hər küçənin isə öz adı olur. Kəndlərdə küçə adı olmaya da bilər. Hər kəs yaşadığı ünvanı bilməlidir, çünki bu hər zaman lazım ola bilər.
**ÖYRƏNMƏ** Mətndə qəza hadisələrinin əsas səbəbi olan ehtiyatsız davranış halları, nəzarətsiz cihazlar və bunun nəticəsində yaranan təhlükələr haqqında danışılır. Səbəb-nəticə əlaqəsinin təsvirindən sonra yangın hadisəsi baş verərsə, dərhal hansı nömrəyə zəng etmək, hansı sualları cavablandırmağa hazır olmaq kimi addımlar təqdim olunur.
Suallar əsasında müzakirə təşkil edilir.
• Hansı davranışlar yanğına səbəb ola bilər?
• Yanğın zamanı 1-1-2-yə zəng vurmaqdan başqa nə edə bilərsiniz?
Müzakirənin birinci sualı çox əhatəlidir. Şagirdlər yanğına səbəb olan mümkün davranışları göstərəcəklər. Müəllim cavabları qeyd edib onların toxunmadığı, lakin gündəlik məişətdə rast gəlinən ehtiyatsız davranışlar barədə əlavələr edə bilər. Şagirdlərin cavabları ümumiləşdirilir və təhlükəli vəziyyətlərdə davranış qaydaları təkrarlanır. Belə hallarda çevik və təmkinli olmağın vacibliyi haqqında məlumat vermək olar. Qaydaların əvvəlcədən öyrənilməsi və yadda saxlanılması insanlara çevik və təmkinli olmağa kömək edir.
"Təcili zəng" telefon nömrəsini yadda saxlayıb möhkəmləndirmək məqsədilə mobil telefondan istifadə etmək olar. Müəllim karton kağızdan hazırlanmış mobil telefon maketi vasitəsilə şagirdlər arasında fəaliyyət həyata keçirə bilər. Bir neçə şagirdə mobil telefon maketindən istifadə etməklə təcili zəng zamanı atılacaq addımların göstərilməsini təklif edə bilər. Bu məşq uşaqlarda təcili zəng vərdişinin inkişaf etməsinə kömək edər. Mobil telefon vasitəsilə təcili zəng qaydalarını göstərmək şagirdlərin diqqətini məsuliyyətli davranış məsələlərinə cəlb etmək üçün əlverişli məqamdır. Məktəbdə mobil telefondan istifadə etməyə qadağa qoyulmasına baxmayaraq təhlükəli vəziyyətlərdə mobil telefondan istifadə etməklə 1-1-2-yə zəng etməyi bütün şagirdlər bilməlidirlər. Təhlükəli vəziyyətlərdə özlərinin və digərlərinin həyatını qorumağın hər bir vətəndaşın borcu olduğunu onların diqqətinə çatdırmaq lazımdır.
• "Ev ünvanını nə üçün bilməlisiniz?" sualı ətrafında müzakirə aparmaq üçün onlara "Ölkəm", "Mən azərbaycanlıyam", "Mən harada yaşayıram" mövzuları zamanı öyrəndiklərini xatırlatmaq olar. Əvvəlki dərslərdə öyrəndiklərini "Təcili zəng" mövzusu ilə əlaqələndirmək məqsədəuyğundur.
Texniki imkanları olan siniflərdə mobil telefon və ya kompüter vasitəsilə yanğın təhlükəsizliyi haqqında uşaqlar üçün animasiya filmi *(https://www.youtube.com/watch?v=BFvHAWYycTw)* nümayiş oluna bilər.
**TAPŞIRIQ** Dərslikdə şəkillər əsasında təqdim olunan tapşırıq mərhələli icra edilə bilər. Ehtiyatsız davrandıqda yanğına səbəb ola biləcək əşyaları işarələdikdən sonra onlara səbəb-nəticə əlaqəsini izah etməyi təklif etmək olar.
Şagirdlərə dərslikdə verilən tapşırıqda əks olunmayan yanğına səbəb ola biləcək digər əşyaların şəklini çəkmək əlavə olaraq tapşırıla bilər.



**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərə kibrit və alışqanla oynamaqla hansı təhlükəli vəziyyətlərin yarana biləcəyini izah etməyi təklif etmək olar.
*Dərinləşdirmə.* Elektrik və qaz cihazlarının nə zaman və nə üçün yanğına səbəb olduğunu izah etmək tapşırıla bilər.
**Müəllim üçün əlavə məlumat.** Şagirdlərdə qəza hadisələri haqqında təsəvvürlərin formalaşdırılmasında vacib elementlərdən biri ictimai fəal mövqe ilə əlaqəlidir. Bizə təhlükəli hallarda kim kömək edir? Fövqəladə hallarda insanlara kömək edən peşəkarlar haqqında şagirdlərlə birgə kiçik təqdimat hazırlamaq olar. Maraqlı və faydalı tədbirlərdən biri şəhərin və ya rayonun yanğınsöndürənləri ilə görüş ola bilər. Şagirdlər xilasetmə xidmətlərini və peşəkarlarını kəşf edəcəklər, yanğınsöndürənlərin qarşılaşdığı müxtəlif riskləri və təhlükələri onların özlərindən eşidəcəklər, təhlükənin qarşısının alınması fikrini daha da gücləndirəcəklər.
ÖZÜNÜZÜ YOXLAYIN Dərslikdəki suallar ətrafında və əlavə suallar verməklə müzakirə təşkil edilir:

- Yanğın hansı səbəblərdən baş verə bilər? Yanğın nə üçün təhlükəlidir? Yanğının qarşısını necə almaq olar? Hansı məişət texnikası və əşyalar yanğına səbəb ola bilər? Evdə yanğın baş verməməsi üçün yanğına səbəb ola biləcək elektrik və qaz cihazlarına kim nəzarət etməlidir?
- Yanğın haqqında xəbər vermək üçün hansı məlumatları bilməli və hansı nömrəyə zəng etməliyik? Yanğın barədə kimlər xəbər verə bilər? Bunun üçün hansı nömrəni yığmaq lazımdır? Telefonda hansı suallar verilir? Bu suallara vaxtında cavab vermək üçün nələri bilmək lazımdır? Bu sualları nə üçün verirlər?

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.
**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Ehtiyatsız davrandıqda yanğına səbəb ola biləcək əşya və avadanlıqları sadalayır. | Sual-cavab, fəaliyyət |
| Yanğın baş verməsinin səbəb-nəticə zəncirini izah edir. | Sual-cavab, fəaliyyət |
| Təcili zəng üçün məlumatları bildiyini nümayiş etdirir. | Fəaliyyət |
| Ehtiyatsız davrandıqda yanğına səbəb ola biləcək əşya və avadanlıqları müəyyən edir. | Tapşırıq |

*BURAXILIŞ MƏLUMATI*

*Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün*
*həyat bilgisi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2023-014)*
*metodik vəsaiti*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Elşad Yunusov**<br>**Gülər Mehdiyeva**<br>**Elmina Kazımzadə**<br>**Yalçın İslamzadə**<br>**Elmar İmanov**<br>**Famil Ələkbərov** |
| Koordinator | **Əli Ağacanlı** |
| Redaktor | **Əsgər Quliyev** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Eldəniz Xocazadə** |
| Korrektor | **Aqşin Məsimov** |
| Məsləhətçi | **Rasim Abdurazaqov** |

Məsləhətçi qurum "Alston" Nəşriyyat Evi

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi – 2023**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron
informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-2-3

Hesab-nəşriyyat həcmi: 8,3. Fiziki çap vərəqi: 9.
Səhifə sayı 72. Formatı: 70x100 1/16. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Times new roman 10-11 pt. Ofset kağızı. Ofset çapı.
Bakı – 2023.

Nəşr məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).